Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 26 (8049) ŞƏNBƏ, 2 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan gəncliyinə İLHAM ƏLİYEV örnəyi

## Prezident gənc yaşlarındakı fəaliyyətini nümunə göstərdi və yeni nəslə çağırış etdi:

- *ölkəmizin gələcəyinin sizin əlinizdə olduğunu unutmayın;*
- *ən ağır dövrdə, ən çıxılmaz vəziyyətdə belə ümidinizi itirməyin;*
- *təhsilə böyük əhəmiyyət verin;*
- *peşəkar və fəal olun;*
- *milli ruhda, vətənpərvərlik ovqatında tərbiyə alın;*
- *dövlət maraqlarını, milli mənafeyi, müstəqilliyi layiqincə qoruyun.*





Prezident İlham Əliyev dünən keçirilən Gənclər Gününə həsr olunmuş respublika toplantısına əliboş gəlməmişdi.

Dövlət başçısı mədəniyyət, elm, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən gənclərə Prezident mükafatı təqdim etdi. Bir qrup gənc isə dövlət gənclər siyasətinin həyata keçirilməsində və gənclər hərəkatının formalaşmasında səmərəli fəaliyyətinə görə dövlət mükafatları ilə təltif olundular. Əslində bu diqqət Prezident İlham Əliyevin ötən 16 ildə gənclərə göstərdiyi hərtərəfli himayədarlıq və qayğının kiçik təzahürü idi.

### Prezidentin tövsiyələri

Bakı Konqres Mərkəzində keçirilən bu toplantı bir həqiqətin - Azərbaycanda həyata keçirilən mütərəqqi dövlət gənclər siyasətinin növbəti təsdiqi oldu. Cənab Prezident tədbir boyu gənclərlə bir yerdə oldu, nitq söyləyərək gənclərə tövsiyələrini verdi, həm də onları dinlədi.

Toplantıdakı çıxışında **“Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər Azərbaycan vətəndaşı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər**” - deyən Prezident İlham Əliyev gənclərin cəmiyyətdəki rolunu düzgün səciyyələndirdi. Prezident gənclərə təhsilə çox böyük fikir vermələrini, xalqımızın maraqlarını hər şeydən üstün tutmağı tövsiyə etdi. İlham Əliyevin başqa bir istəyi isə dövlət təşkilatlarının gəncləri önə çəkməsi ilə bağlı oldu: “Çünki gənclərin həm potensialı, həm fəallığı, həm onların məsələlərə yeni baxışları cəmiyyət üçün çox lazımdır”. Dövlət başçısı gənclərin milli ruhda tərbiyə almalarına xüsusi diqqət çəkdi. Bu, gələcəkdə gənclərin dövlətimizin və xalqımızın milli maraqlarını layiqincə qoruya bilmələri üçün xüsusi əhəmiyyət kəsb edir. “Haqlı olaraq gənclərimizlə fəxr edə bilərik”, - deyən dövlət başçısı şəhidlərin böyük əksəriyyətinin gənclər olduğunu vurğuladı və qeyd etdi ki, hər bir gəncin əsas vəzifəsi müstəqilliyimizi möhkəmləndirmək olmalıdır.

Azərbaycan öz inkişaf yolu ilə inamla irəliləyir. Ölkənin yüksəlişi, baş verən pozitiv dəyişikliklər yürüdülən siyasətin düzgün olduğunu, dövlətin və xalqın maraqlarına xidmət etdiyini göstərir. Lakin Prezidentin dediyi kimi, bu yolda biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim irəli baxmalıyıq və ilk növbədə, bu gün həll edə bilmədiyimiz məsələləri yoluna qoymalıyıq. Əlbəttə, bu yolda dövlət başçısının gənclərdən gözləntiləri çoxdur. Gənclər öz əməlləri ilə hər bir məsələdə Azərbaycan Prezidentinin yardımçıları olmalıdırlar.

### Mütərəqqi gənclər siyasəti

Gənclik hər bir dövlət üçün mühüm sosial təbəqədir, xalqın sabahı və sağlam gələcəyidir. Təsadüfi deyil ki, dövlətlərin inkişaf səviyyəsini müəyyənləşdirən vacib meyarların arasında gənclər sayəsində qazanılan uğurlar xüsusi yer tutur. Hələ 26 il əvvəl bu reallığı düzgün dəyərləndirən ulu öndər Heydər Əliyev gənc nəslin roluna böyük önəm vermiş, bu təbəqədən olan insanlara hər sahədə özlərini təsdiq etmək üçün şərait yaratmışdı. Heydər Əliyevin 1997-ci ildə fevral ayının 2-ni Gənclər Günü elan etməsi ulu öndərin gənclərə xüsusi diqqətinin təzahürü idi.

Məhz ulu öndərin yaratdığı bünövrə və hərtərəfli imkanlar sayəsində gənc nəsil cəmiyyətimizin aparıcı qüvvəsinə çevrilib. Bu gün cəbhədə düşmənlə üzə-üzə dayanan, vətənimizin mübariz keşikçiləri məhz gənc nəslin nümayəndələridir. Beynəlxalq yarışlarda himnimizi səsləndirən, bayrağımızı ucaldan, qələbələrilə xalqımızı sevindirən də gənclərimizdir. Azərbaycan gənci həm də dövlət idarəçiliyində ona bəslənən etimadı uğurla doğruldur, seçkili orqanlarda öz seçicilərini layiqincə təmsil edir, diplomat kimi xaricdə milli mənafelərimizi qoruyur. Eyni zamanda Azərbaycan gənci ölkəmizin inkişafına töhfə verən bacarıqlı iş adamıdır, gələcəyin istedadlı alimidir. Beləliklə, dövlətə və dövlətçiliyə sədaqət ruhunda formalaşan gənc nəsil malik olduğu qabiliyyət və intellektual imkanları ilə dövləti və xalqı sağlam gələcəyə daşıyan avanqard təbəqədir.

### Dövlət başçısı gənclərə güvəndiyini bəyan etdi

Prezident İlham Əliyevin fəaliyyətində gənclər siyasəti daim prioritet istiqamət təşkil edib. Bu dövrdə gənclərin cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirakının stimullaşdırılmasını, onların potensialından səmərəli istifadəni nəzərdə tutan 3 dövlət proqramı təsdiq olunub. Hazırda 2017-2021-ci illəri əhatə edən üçüncü proqram icra olunur. 2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə ayrıca dövlət proqramı yerinə yetirilib. 3 il əvvəl isə gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası” təsdiq olunub.

Bütün bunlar Azərbaycan Prezidentinin gənclərə diqqətinin, onların cəmiyyət həyatında fəal iştirakına verdiyi əhəmiyyətin bariz göstəricisidir. Prezident İlham Əliyevin indiyədək imzaladığı dövlət proqramları, gənclərin təhsil üçün xaricə göndərilmələri, “Gənclər ev”lərinin yaradılması, Gənclər Fondu tərəfindən gənclərin layihə və proqramlarının dəstəklənməsi, bilikli, peşəkar, istedadlı gənclərin dəstəklənməsi üçün Prezident mükafatının təsis edilməsi ondan xəbər verir ki, Azərbaycanda gənclərlə bağlı məqsədyönlü tədbirlər kompleks şəkildə həyata keçirilir. Bəli, Azərbaycan Prezidenti, Azərbaycan dövləti hər addımda, hər yerdə gənclərin yanındadır.

Dünən Prezident İlham Əliyev Azərbaycan gənclərinə inandığını və güvəndiyini bəyan edərək onlara uğurlar arzuladı. Bu, Prezidentin böyük etimadıdır. Hər bir gənc layiqli vətəndaş kimi cəmiyyət həyatının bütün sahələrində fəallıq göstərməli, ona bəslənən etimadı əməli ilə doğrultmalıdır.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

## Prezident gənclərə tam güvənir, gənclər də Liderini birmənalı dəstəkləyir

### Prezident İlham Əliyevin nitqi

*Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı keçirilib.*
*AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.*
*Dövlət başçısı tədbirdə nitq söylədi.*

- Əziz gənclər, mən sizi qarşıdan gələn Gənclər Günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycanda Gənclər Günü 22 ildir ki, qeyd olunur. Bildiyiniz kimi, 1997-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda Gənclər Günü təsis edildi. Ulu öndər gənclərə həmişə böyük qayğı, sevgi ilə yanaşırdı. Çox yaxşı bilirdi ki, ölkəmizin gələcəyi gənclərin əlində olacaq.

Azərbaycanda müasir gənclər siyasəti isə 1994-cü ildə başlamışdır. O il ulu öndər Gənclər və İdman Nazirliyini yaratdı. Gənclər və İdman Nazirliyinin yaradılması çox əlamətdar hadisə idi. Azərbaycanda gənclər siyasəti məhz 1994-cü ildən icra edilməyə başlanılmışdır.

O illər çox ağır illər idi. Azərbaycan böhrandan təzə-təzə çıxırdı. Ölkəmizdə iqtisadi vəziyyət çox ağır idi. Ölkəmizdə islahatlara start verilirdi. Bütün bu çətinliklərə baxmayaraq, ulu öndərin çox düzgün qərarı Azərbaycanda gənclər üçün yeni imkanlar açdı, yeni şərait yaratdı. Ondan sonra da müvafiq qərarlar qəbul edilmiş, göstərişlər verilmişdir. 1999-cu ildə dövlət gənclər siyasəti haqqında fərman imzalanmışdır. Ondan sonrakı dövrdə də biz həmişə gənclərə dəstək olmağa çalışmışıq.

*Ardı 2-ci səh.*

## İlham Əliyev ən böyük himayədarımız, Mehriban Əliyeva dayağımızdır





Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın şəhid ailələrinə, Qarabağ müharibəsi əlilləri və onların ailə üzvlərinə göstərdiyi diqqət və qayğı hər zaman yüksək dəyərləndirilib.

Yanvarın 28-də dövlət başçısının şəhid ailələri ilə görüşməsi, səmimi söhbət etməsi, “ev almayan şəhid ailəsi qalmayacaq” fikrini bəyan etməsi onları bir daha qürurlandırdı. Çünki cənab İlham Əliyev bu xoşməramlı, humanist missiyası ilə hər kəsə şəhid ailələrinə münasibətin necə olmasının nümunəsini göstərdi.

Azərbaycan vətəndaşı, xüsusilə də ən həssas təbəqə olan şəhid ailələri, müharibə əlilləri bir daha gördü ki, dövlət də, ölkənin lideri də hər zaman onların yanındadır, daim onlara sahib çıxıb və bundan sonra da belə olacaq.

### Milli Qəhrəman ailəsinə göstərilən ehtiram

Dövlət başçısının şəhid ailələri ilə bağlı imzaladığı son fərmana əsasən 12268 nəfər şəhidin vərəsələrinə birdəfəlik ödəmələr ediləcək. Şəhid vərəsələrinin əhatə dairəsinə 1997-ci ilin avqust ayının 2-dək şəhid olmuş əlavə 2725 nəfərin (o cümlədən vərəsələri 11 000 manatdan az sığorta ödənişi almış 2264 şəhid hərbi qulluqçunun və 461 şəhid polisin) vərəsələri də daxil edilib. Artıq 3758 şəhidin 5144 vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub və onlardan 3100 şəhid üzrə 4200 vərəsəyə ödəniş edilib.

*Ardı 8-ci səh.*

# Prezident gənclərə tam güvənir,

## Prezident İlham Əliyevin nitqi

*Əvvəli 1-ci səh.*

2005-ci ildən bugünə qədər üç dövlət proqramı qəbul edilmişdir. Bölgələrdə 40-a yaxın Gənclər Mərkəzi yaradılmışdır, 44 Olimpiya İdman Mərkəzi vardır ki, orada məşq edənlərin əksəriyyəti gənclərdir.

Bizim beynəlxalq əlaqələrimiz genişlənir. Gəncə şəhəri 2016-cı ildə Avropa Gənclər Paytaxtı adına layiq görülmüşdür. Biz Azərbaycanda müxtəlif beynəlxalq tədbirlər, o cümlədən 170 ölkədən nümayəndənin iştirak etdiyi Dünya Skaut Hərəkatı Təşkilatının konfransını keçirmişik. Bütün bunlar onu göstərir ki, bu istiqamətdə düzgün addımlar atılır və bundan sonra da atılacaq.

Azərbaycanda gənclərlə bağlı dövlət siyasəti başlayanda mən də gənc idim. O vaxt mənim 32 yaşım var idi. Fürsət düşmüşkən, gənclik illərimdən bir qədər danışmaq istərdim. Mən orta məktəbi Bakıda bitirəndən sonra 1977-ci ildə Moskvaya oxumağa getdim. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna daxil oldum. Beş il orada təhsil aldım, ondan sonra üç il aspiranturada oxudum, dissertasiya müdafiə etdim və mən institutda dərs deməyə başlayanda 23 yaşım var idi. İşimdən də çox razı idim.

Mənim işimə heç bir irad yox idi, ta 1990-cı ilə qədər. Həmin il xalqımıza qarşı qanlı cinayət törədilmişdir, Qanlı Yanvar faciəsi baş vermişdir.

O vaxt atam Heydər Əliyev təqaüdçü idi. Yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək öz səsini bütün dünyaya çatdırdı. Mən də onun yanında idim. Orada mətbuat konfransı keçirdi və Sovet İttifaqını, Kommunist Partiyasını və onun rəhbərliyini qətiyyətlə pislədi, bu dəhşətli cinayəti bütün dünyaya çatdırdı. Çünki o vaxt bizim sözümüz dünyaya çatmırdı. Hələ Sovet İttifaqı dövrü idi. Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi. Heydər Əliyev kimi tanınmış şəxsiyyətin bu məsələ ilə bağlı dediyi sözlər dərhal dünyaya çatdırıldı və dünya ictimaiyyəti bundan xəbər tutdu. Bu addım həm təbii, həm də çox cəsarətli idi. Çünki Azərbaycan xalqı, onun maraqları Heydər Əliyev üçün hər şeydən üstün idi. Bir daha bildirməliyəm ki, Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi və heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı nə vaxtsa dağılacaq. Yəni, Heydər Əliyev sovet sistemini dərindən bilən insan kimi bu addımı şüurlu şəkildə atdı. Bilirdi ki, ona qarşı çox böyük təzyiqlər, təqiblər başlanacaq. Belə də oldu. Bizdə olan məlumata görə, Moskvada sovet rəhbərliyi onun çıxışından çox hiddətlənmişdi və göstəriş vermişdi ki, o, həbs olunsun.

Biz müxtəlif yollarla çalışırdıq ki, o, Moskvadan Bakıya gəlsin. İndi tarixin bu səhifəsini tam açıqlamaq istəmirəm. Ancaq Bakıya gələ bildi. Lakin Bakıda da yaşamağa qoymadılar. Bakıda da ona qarşı çox böyük təzyiqlər göstərildi və o, Naxçıvana gedərək orada yaşamağa başladı. Bir müddətdən sonra xalq onu Naxçıvan Ali Məclisinin sədri vəzifəsinə seçdi.

Müstəqilliyə gedən yol məhz Naxçıvandan başladı. Çünki Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını dövlət bayrağı kimi məhz Heydər Əliyev Naxçıvan parlamentində qaldırdı və təsis etdi. Azərbaycan Milli Məclisi, - o vaxt Ali Sovet adlandırılırdı, - qarşısında vəsatət qaldırılmışdı ki, bu bayraq dövlət bayrağı kimi qəbul edilsin.

Mənim taleyimdə bundan sonra dəyişiklik baş vermişdir. Mən oxuduğum və dərs dediyim institutdan çıxarıldım. Mənim işimə heç bir irad yox idi. Məni işdən çıxaranda rəhbərlik belə də demişdi ki, Sizə bizim iradımız yoxdur. Ancaq Heydər Əliyev artıq Sovet İttifaqında düşmən kimi tanınır və düşmənin oğlu belə institutda dərs deyə bilməz. Mənim üçün işsizlik dövrü başladı. Bir neçə ay işsiz qaldım. Müxtəlif yerlərdə iş axtarırdım, müraciət edirdim. Amma biləndə ki, Heydər Əliyevin oğluyam, əlbəttə ki, məni heç kim işə götürmürdü.

O vaxt Sovet İttifaqının tarixində iqtisadi sahədə müəyyən liberallıq da müşahidə olundu, özəl biznesə icazə verildi. Mən məcbur qalıb özəl bizneslə məşğul olmağa başladım. Qısa müddət ərzində çox uğurlu fəaliyyət göstərdim və öz həyatımı yenidən qurmuş oldum. İşimdən razı idim. O vaxt Moskvada yaranmaqda olan Azərbaycan icmalarının fəaliyyətinə dəstək verirdim. Yadımdadır ki, o vaxt Moskvada Azərbaycan Vətəndaş Assambleyası yaradılmışdı. O assambleyanın qurucularından biri də mənəm. Bir biznesmen kimi assambleyanın fəaliyyətinə ən çox maliyyə dəstəyi verən də mən olmuşam. O vaxt Moskvada Azərbaycan məktəbi təsis edilmişdi. Moskvada yaşayan azərbaycanlılardan birincisi, o məktəbə maliyyə dəstəyi verən də mən olmuşam.



Mən bunları ona görə demirəm ki, özümü tərifləyim. Sadəcə olaraq, bu, tarixdir və mən istərdim ki, bizim gənclərimiz bunu bilsinlər. Bilsinlər ki, hətta ən ağır dövrdə, ən çıxılmaz vəziyyətdə onlar həmişə ümidli olmalıdırlar, naümid olmamalıdırlar. Həmişə bilməlidirlər ki, onların taleyi onların öz əllərindədir. Yenə də deyirəm, o vaxt Sovet İttifaqının dağılması haqqında heç kim düşünmürdü. Mən çox yaxşı başa düşürdüm ki, əgər sovet rəhbərliyi atamı düşmən kimi tanıyırsa, mənim üçün bu cəmiyyətdə yer tapmaq çox çətin olacaq. Ancaq tale belə gətirdi ki, vəziyyət dəyişdi və bu gün Azərbaycan müstəqil dövlətdir. Bu, bizim ən böyük xoşbəxtliyimizdir. Bir daha demək istəyirəm ki, insanlar ən ağır vəziyyətdə də həmişə ümidli olmalıdırlar.

Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir. Bu gün hər bir vətənpərvər azərbaycanlı haqlı olaraq fəxr edir ki, o, müstəqil Azərbaycan Respublikasının vətəndaşıdır. Ölkəmizin hərtərəfli inkişafında gənclərimizin çox böyük rolu vardır. Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər.

Gənclər üçün əsas istiqamət, əlbəttə ki, təhsildir. Mən bütün gənclərə üz tutub deyirəm ki, təhsilə çox böyük fikir versinlər. Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar. İstənilən sahədə işləyən gənclər çalışmalıdırlar ki, öz peşəkarlıqlarını artırsınlar. Bizim gənclərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. Əsrlərboyu bizim xalqımız başqa dövlətlərin, imperiyaların tərkibində yaşamışdır. Ancaq biz milli mənsubiyyətimizi, adət-ənənələrimizi qorumuşuq. Nəyə görə?! Ona görə ki, biz həmişə öz dəyərlərimizə bağlı olmuşuq və bugünkü gənclər daim bu məsələyə çox böyük diqqət yetirsinlər. Azərbaycan dəyərləri bizim üçün ən başlıca dəyərlərdir. Bizi bir xalq kimi, millət kimi qoruyan, əsrlərboyu assimilyasiyadan qoruyan məhz bizim dəyərlərimiz, ana dilimiz, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz olubdur. Azərbaycan gəncləri mütləq milli ruhda tərbiyə almalıdırlar ki, gələcəkdə dövlət maraqlarını, xalqımızın milli maraqlarını layiqincə qoruya bilsinlər. Hesab edirəm ki, bu iki əsas amil hər bir gənc üçün çox vacibdir.

Mən bir daha demək istəyirəm ki, bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, vətən uğrunda vuruşurlar. Bizim şəhidlərimizin böyük əksəriyyəti gənclərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Bizim gənclərimiz hərbi qələbələrimizi şərtləndiriblər. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir və bu əməliyyatlarda iştirak edənlərin mütləq əksəriyyəti gənclərdir. Biz bu əməliyyat nəticəsində uzun illər ərzində işğal altında qalan torpaqları işğalçılardan azad etdik. O torpaqlarda - Lələtəpədə, Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının dağlarında Azərbaycan bayrağını ucaltdıq. Bu, böyük tarixi qələbədir. Bu qələbə bir daha onu göstərdi ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq, Azərbaycan əsgəri, Azərbaycan zabiti vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır. Bu qələbə ermənilərin uzun illər ərzində yaratdıqları mifi tamamilə darmadağın etdi. Bu qələbə göstərdi ki, biz döyüş meydanında da onlardan üstünük. Bu qələbə göstərdi ki, ən əlverişsiz hərbi mövqelərdən əks hücum əməliyyatı apararaq biz çox strateji mövqelərə sahib olduq. Bu gün ordu quruculuğu istiqamətində atılan addımlar təbiidir, zəruridir. Çünki biz müharibə şəraitində yaşayırıq, müharibə hələ bitməyib. Biz hər an hazır olmalıyıq ki, torpaqlarımızı işğalçılardan azad edək.

Bizim gənclərimiz bu gün sərhədlərimizi qoruyur. Sərhədçilərimizin böyük əksəriyyəti gənclərdir. Bizim gənclərimiz ictimai asayişi qoruyur. Bu gün Azərbaycan dünya miqyasında ən təhlükəsiz ölkələrdən biridir. Bizim gənclərimiz müxtəlif sahələrdə uğurla fəaliyyət göstərir.

Azərbaycanda könüllülər hərəkatı geniş vüsət almışdır. Mən bunu çox alqışlayıram. Təxminən 20 min gənc könüllü olaraq çalışmış və indi müxtəlif təşkilatlarda müxtəlif vəzifələrdə işləyir, xeyir gətirir. Könüllülər hərəkatının xüsusi əhəmiyyəti var. Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir və təsadüfi deyil ki, bu sahədə gənclər öz rolunu oynayır. Könüllülər hərəkatı "ASAN xidmət"dən başladı və "ASAN xidmət"də işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Bu gün "ASAN xidmət" bizim milli intellektual, innovasiya məhsulumuzdur. Artıq bir neçə ölkə bizim köməyimizlə bu sistemi tətbiq etməyə başlayıb. "ASAN xidmət" yeni bir xidmət növüdür və təsadüfi deyil ki, vətəndaşların bəyənmə əmsalı 100 faizə yaxınlaşır.

Bizim gənclərimiz idmanda böyük qələbələr qazanırlar, başımızı uca edirlər. Hər bir idman qələbəsi hər bir vətənpərvər vətəndaşı sevindirir, ruhlandırır. Görün, biz hansı böyük nailiyyətlərə çatdıq. Son Yay Olimpiya Oyunlarında medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerdə idi. Bu, tarixi qələbədir. Bu qələbəni müstəqillik dövründə doğulmuş və boya-başa çatmış gənclər əldə ediblər. Biz bunu heç vaxt təsəvvür edə bilməzdik. İndi burada əyləşən gənclər sovet dövrünü xatırlamırlar, çoxları o vaxt heç doğulmamışdı. Ancaq o vaxt Azərbaycan idmanı sovet məkanında ön planda deyildi. Amma bu gün biz dünya miqyasında belə tarixi qələbələr qazanmışıq. Avropa Oyunlarında komanda hesabında ikinci yeri, İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutmuşuq. Bu, bir daha göstərir ki, bizim gənc idmançılarımız nə qədər peşəkardır, iradəlidir, vətənpərvərdir.

Bizim gənclərimiz bu gün iqtisadiyyatın müxtəlif sahələrində, dövlət təşkilatlarında işləyirlər. Mənim də tövsiyəm ondan ibarətdir ki, gəncləri dövlət təşkilatları önə çəksinlər. Çünki gənclərin həm potensialı, həm fəallığı, həm də məsələlərə yeni baxışları cəmiyyət üçün çox lazımdır. Bütün dövlət təşkilatlarına tövsiyə etmişəm ki, könüllüləri cəlb etsinlər. Qoy, könüllülər dövlət qurumlarında, nazirliklərdə, digər dövlət təşkilatlarında təcrübə keçsinlər. Özəl sektora da tövsiyəm bundan ibarətdir. Biz özəl sektora çox gözəl şərait yaratmışıq. Azərbaycanda fəaliyyət göstərən özəl müəssisələrin sayı son 15 il ərzində 60 mindən 130 minə qalxmışdır. Bu, iqtisadi sahədə islahatların təzahürüdür. Onlar da mütləq gəncləri işə cəlb etsinlər ki, gənclər həm təcrübə keçsinlər, həm də hazırlıq prosesi sürətlə getsin.



Yəni, gənc alimlərimiz müxtəlif sahələrdə bizim elmi potensialımızı gücləndirirlər. Mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl Elmin İnkişafı Fondu, Gənclər Fondu yaradılmışdır. Bu fondlar vasitəsilə istedadlı gənclərə qrantlar verilir, müxtəlif tədqiqat proqramlarının həyata keçirilməsi üçün vəsait ayrılır. Yəni, bizim gənclərimiz bu gün cəmiyyətdə çox fəal rol oynayırlar və əlbəttə ki, gələcəkdə siz ölkəmizi idarə edəcəksiniz. Ona görə bir daha demək istəyirəm ki, ilk növbədə, milli vətənpərvərlik yüksək səviyyədə olmalıdır. Hər bir gənc bilməlidir ki, bizim hamımızın əsas vəzifəsi dövlət müstəqilliyini möhkəmləndirməkdir, onu qorumaqdır. Biz xoşbəxtik ki, müstəqillik dövründə yaşayırıq. Əsrlərboyu Azərbaycan xalqı müstəqillik eşqi ilə yaşamışdır. Nəsillər gəlirdi-gedirdi, biz başqa ölkələrin tərkibində yaşayırdıq, öz bayrağımızı qaldıra, öz himnimizi səsləndirə bilmirdik. Amma bu gün böyük xoşbəxtlikdir ki, biz müstəqillik dövründə yaşayırıq və əsl müstəqil siyasət həyata keçiririk. Ona görə bizim gənclərimiz həmişə yadda saxlamalıdırlar ki, Azərbaycanın dövlət müstəqilliyi hər şeydən üstündür, Azərbaycan xalqının maraqları hər şeydən üstün olmalıdır. Bir daha demək istəyirəm ki, müstəqilliyi qorumaq üçün mütləq bilik, savad, vətənpərvərlik və milli təfəkkür olmalıdır.

Bu gün gənclərə ölkə qarşısında duran bəzi vəzifələr haqqında qısaca öz sözlərimi demək istəyirəm. Ölkəmizin sürətli və uğurlu inkişafı davam edir, ölkə qarşısında duran bütün vəzifələr icra olunur. Bu gün Azərbaycan dünyada çox sürətlə inkişaf edən ölkə kimi tanınır. Biz isə əldə edilmiş uğurlarla kifayətlənməməliyik, daim irəliyə baxmalıyıq və ilk növbədə, bu gün həll edə bilmədiyimiz məsələləri həll etməliyik, nöqsanları, problemləri aradan qaldırmalıyıq. Əlbəttə ki, gənclər bu sahədə bizim ən birinci yardımçılar ola bilərlər və olmalıdırlar. Ona görə ictimai nəzarətin gücləndirilməsi çox önəmli məsələdir. Mən öz çıxışlarımda dəfələrlə demişəm ki, mütləq ictimai nəzarət olmalıdır. Çünki ictimai nəzarət olan yerdə işlər daha yaxşı gedir. Ona görə mən gəncləri bu məsələyə diqqət yetirməyə dəvət edirəm.

Ölkəmizdə daxili vəziyyət sabitdir. Daxili sabitlik hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Biz görürük ki, dünyanın müxtəlif yerlərində sabitlik pozulanda çox böyük faciələr baş verir, o ölkələrin başına çox böyük bəlalar gətirilir. Biz görürük ki, ölkələr dağılır, milyonlarla insan həlak olur, qaçqın, köçkün vəziyyətinə düşür. Ona görə daxili sabitliyin qorunması hər birimizin əsas vəzifəsidir və bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir.

Sosial problemlərin həlli daim diqqət mərkəzində olmalıdır. Bu sahəyə çox böyük diqqət göstərilir, çox böyük vəsait ayrılır. Xüsusilə məcburi köçkünlərin, şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin sosial problemlərinin həlli üçün böyük vəsait ayrılır. Onlar üçün şəhərciklər salınır, minlərlə ev tikilib və tikiləcəkdir. Ünvanlı sosial yardım alanların da problemləri daim diqqət mərkəzindədir. Onlar hələ də öz imkanlarını özləri təmin edə bilmirlər. Ona görə təbiidir ki, Azərbaycan dövləti onlara dəstək göstərir. Onu da bildirməliyəm ki, Azərbaycan ünvanlı sosial yardım göstərən nadir ölkələrdəndir və bu, tam ədalətlidir. Biz çalışmalıyıq ki, hələ də öz maddi imkanlarını lazımi səviyyəyə qaldıra bilməyən vətəndaşlar dövlətdən dəstək alsınlar. Eyni zamanda, bundan sonrakı dövrdə özünüməşğulluq proqramı da geniş vüsət alacaq və dövlət hələ də yaxşı vəziyyətdə yaşamayan vətəndaşları müxtəlif vasitələrlə, aktivlərlə təmin edəcəkdir.

Hesab edirəm ki, Azərbaycan xarici siyasətlə bağlı nümunəvi ölkə sayıla bilər. Bizim xarici siyasətimiz daxili siyasətimizin məntiqi davamıdır. Uğurlu xarici siyasət aparmaqla biz özümüzü mümkün olan xarici risklərdən qoruyuruq və buna nail oluruq. Bəzən bizim xarici siyasətimizi tarazlaşdırılmış siyasət kimi qələmə verirlər. Ancaq mən hesab edirəm ki, bizim xarici siyasətimiz milli maraqlar üzərində qurulub. Milli maraqlar diktə edir ki, biz bütün ölkələrlə işgüzar, bərabərhüquqlu, bir-birinin işinə qarışmamaq şərti ilə münasibətlər quraq və qurmuşuq - qonşularımızla, İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrlə, eyni zamanda, Avropa ölkələri ilə. Yəni, biz buna nail ola bilmişik, eyni zamanda, öz milli maraqlarımızı həmişə lazımi səviyyədə qoruyuruq və qoruyacağıq. Bizim dünyadakı rolumuzu və bizə olan münasibəti əks etdirən çox parlaq bir nümunə var. Bir neçə il bundan əvvəl Azərbaycan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Yəni, bu da beynəlxalq aləmin mütləq əksəriyyətidir. Azərbaycana göstərilən hörmət, rəğbət, dəstək bu səsvermədə özünü büruzə verdi.

Əlbəttə, ən başlıca vəzifə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Azərbaycan bu istiqamətdə hüquqi cəhətdən, siyasi cəhətdən və bütün başqa cəhətlərdən öz mövqelərini möhkəmləndirir. Bizim ərazi bütövlüyümüz danışıqlar mövzusu deyil, heç vaxt olmayıb və heç vaxt olmayacaqdır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınıb və son illərdə bu istiqamətdə əlavə addımlar atılıb. Mənim bir çox xarici həmkarlarımla imzaladığım sənədlərdə Azərbaycanın ərazi bütövlüyünə böyük dəstək göstərilib. Avropa İttifaqı ilə keçən il imzalanmış Tərəfdaşlıq Prioritetləri Sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı haqqında xüsusi bənd var. Beynəlxalq təşkilatlar, BMT, onun Baş Assambleyası, Təhlükəsizlik Şurası bizim xeyrimizə, yəni, ədaləti əks etdirən qətnamələr qəbul ediblər. Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının, ATƏT-in və digər təşkilatların qəbul etdiyi qərarlar bizim mövqeyimizi möhkəmləndirir. Bütün bunlar münaqişənin həlli üçün hüquqi baza, hüquqi əsas yaradır və bu da bizim mövqeyimizi möhkəmləndirir. Biz çox böyük təbliğat işi aparırıq, yəni, həqiqətləri çatdırırıq. Müxtəlif ölkələrdə təqdimatlar keçirilir, Xocalı soyqırımının tanıdılması prosesi uğurla gedir, müharibə ilə bağlı həqiqətləri çatdırırıq. Beləliklə, beynəlxalq ictimaiyyətdə düzgün fikir yaradırıq. Çünki onlar həqiqəti bilməlidirlər. Ona görə bütün lazımi tədbirlər görülüb.

Bununla paralel olaraq bizim iqtisadi gücümüz, hərbi gücümüz artır. Aprel döyüşləri və ötən il keçirilən uğurlu Naxçıvan əməliyyatı bizim gücümüzü, peşəkarlığımızı göstərdi. Biz strateji yüksəklikləri azad etmişik, biz strateji kommunikasiyalara nəzarət edirik. Bütün bunlar münaqişənin həlli üçün çox önəmli zəmin yaradır. Ona görə biz bu məsələ ilə bağlı öz siyasətimizi davam etdirəcəyik. Biz daha güclü olmalıyıq və biz güclənirik. Ölkə qarşısında duran vəzifələrdən biri də iqtisadi gücümüzü artırmaqdır və bu istiqamətdə işlər aparılır. İqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində işlər görülür. Biznes mühitinin yaxşılaşdırılması istiqamətində yaxşı nəticələr var. Dünya Bankının son "Doing Business" hesabatında Azərbaycan 32 pillə irəliləyərək 25-ci yerə layiq görülüb. Baxın, dünya miqyasında biznes şəraitinə görə Azərbaycan 25-ci yerdədir. Biz bunu nəyin hesabına əldə etmişik? Ancaq islahatlar hesabına. İslahatlar davam etdiriləcək. Bu islahatlar nəticə verir. Biz islahat naminə islahat aparmırıq. Biz məqsədyönlü, düşünülmüş addımlar atırıq ki, ölkəmizin inkişafına yeni təkan verək, hələ də həll olunmamış problemləri həll edək, nöqsanları, xoşagəlməz halları, çatışmayan məqamları aradan götürək və bunu edirik. Buna nail olmaq üçün, əlbəttə ki, gənclərin çox böyük dəstəyi olmalıdır. Biz bunu hiss edirik və görürük.

İqtisadi müstəqillik siyasi müstəqilliyin əsas şərtidir. Təsəvvür edin, əgər biz iqtisadi cəhətdən asılı olsaydıq, müstəqil siyasət apara bilərdikmi? Əlbəttə ki, yox. Dünyada o qədər ölkə var ki, bu məsələ ilə bağlı çətinlik çəkir. Biz iqtisadi gücümüzə arxalanaraq müstəqil siyasət aparırıq və öz prinsipial sözümüzü deyirik, xalqımızın maraqlarını bütün tədbirlərdə qoruyuruq.

İqtisadi müstəqillik və dayanıqlılıq mütləq bundan sonra da təmin edilməlidir. Biz xarici dövlət borcumuzu çox aşağı səviyyədə saxlayırıq. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 4-5 dəfə çoxdur. Çox az ölkə tapılar ki, bu göstərici ilə fəxr edə bilsin. Yəni, biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik və heç vaxt asılı olmamalıyıq. Mən gənclərə deyirəm, siz də bunu bilməlisiniz ki, biz heç vaxt heç kimdən asılı olmamalıyıq. Biz azad xalq kimi yaşamalıyıq, biz öz həyatımızı özümüz qururuq. Əgər kimsə bizə məsləhət vermək, kömək göstərmək istəsə, - əlbəttə ki, əgər bu, təmənnasızdırsa, - biz bunu alqışlayırıq. Ancaq biz özümüz hər şeyi bilirik, öz həyatımızı özümüz qururuq. Müstəqilliyimizin son 25 ili bunu göstərir ki, biz düzgün yoldayıq.

Biz 1993-cü ildən başlayaraq ancaq inkişaf və tərəqqi yolu ilə gedirik. Amma baxın, 1993-cü ilə qədər nələr baş verirdi. Azərbaycan demək olar ki, dünya xəritəsindən silinirdi. Müstəqilliyimizin ilk illəri ağır, faciəli illər idi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Xüsusilə 1992-ci ildə AXC-Müsavat cütlüyünün hərbi çevrilişindən sonra vəziyyət daha da ağırlaşdı. Xaos, anarxiya, özbaşınalıq, quldur dəstələri çiyinlərində avtomat küçələri gəzirdilər. Siz gənclər bunları görməmisiniz, bəlkə də televiziya kadrlarında görmüsünüz. Biz bunları görmüşük - özbaşınalıq, rüşvətxorluq, korrupsiya. Səriştəsiz adamlar vəzifəyə gəldilər, ölkəmizi bərbad vəziyyətə saldılar, vətəndaş müharibəsinə təkan verdilər və Azərbaycanda vətəndaş müharibəsi başladı. Məhz o hakimiyyətin xəyanətinə görə torpaqlarımız işğal altına düşmüşdür. Bütün bunları biz görmüşük. Əgər Azərbaycan xalqı 1993-cü ildə müdriklik göstərməsəydi, Heydər Əliyevi hakimiyyətə dəvət etməsəydi, bizim taleyimizin necə olacağını bilmək olmazdı. Ona görə bütün bunları görərək biz bugünkü sürətli inkişafı daha da yüksək qiymətləndirməliyik və bu inkişafı dayanıqlı etməliyik.

Biz Azərbaycanın dövlət maraqlarının keşiyində nəyin bahasına olursa-olsun durmuşuq. Bu yolda təzyiqlər də, yalanlar da, böhtanlar da, iftiralar da olub. Bunların heç biri bizi öz yolumuzdan döndərə bilməyib. Ona görə ki, biz düzgün yoldayıq. Çünki bilirik ki, bizim siyasətimiz xalqın maraqlarına cavab verir. Əldə etdiyimiz nəticələr, nailiyyətlər, gözəlləşən şəhərlər bütün bədxahlara, bizə zərbə vurmaq istəyənlərə, paxıllıq edənlərə ən gözəl cavabdır. Amma bu proses daimi olmalıdır, davam etməlidir. Buna görə siz gənclər buna hazır olmalısınız, hər şeyi bilməlisiniz. Sizin üçün ən başlıca vəzifə müstəqilliyi, milli maraqları qorumaq, Azərbaycanı yad təsirlərdən qorumaq və xalqımızın rahat həyatını təmin etməkdir. Mən şübhə etmirəm ki, siz buna hazırsınız. Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm. Sizi qarşıdan gələn Gənclər Günü münasibətilə bir daha təbrik edirəm və gənclərə "Eşq olsun!" deyirəm. Sağ olun.

* * *

Sonra gənclər siyasətinə həsr olunan film nümayiş olundu.

# gənclər də Liderini birmənalı dəstəkləyir

Daha sonra gənclərin nümayəndələri çıxış etdilər.

Azərbaycan Gənclər Təşkilatları Milli Şurasının sədri **Məryəm MƏCİDOVA** dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli Mehriban xanım.

Əziz gənc dostlarım.

Əvvəlcə hamınızı 2 fevral - Gənclər Günü münasibətilə təbrik edir, fəaliyyətinizdə daim uğurlar arzulayıram.

Biz tarixi hadisələrlə zəngin bir dövrü yaşayırıq. Azərbaycan öz tarixində heç vaxt olmadığı qədər müstəqil və güclü dövlətə malikdir. O, regionda və dünyada sayılır və dövlətimizlə hesablaşırlar. Bunun arxasında əzmkarlıq, mübarizlik və düşünülmüş uzaqgörən siyasət dayanır. Ümummilli lider Heydər Əliyev öz zəngin təcrübəsi, nüfuzu və dahilərə xas zəkası ilə gələcəyimiz üçün güclü əsaslar yaradıb.



Azərbaycan 28 ildir ki, müstəqil dövlətdir. Ölkəmizdə uğurla həyata keçirilən gənclər siyasətinin bu il 25 ili tamam olur. 25 ildir ki, Azərbaycan gənci tarixi, milli və mədəni mənsubiyyətinin qorunması yolunda daha ciddi addımlar atmaqdadır. Biz beynəlxalq tribunalarda çıxış edərkən "Mən müstəqil respublikanın vətəndaşıyam", - deyə özümüzü təqdim edirik.

Bəli, bu sözləri biz fəxrlə deyirik. Çünki bizim arxalandığımız güclü dövlətimiz və güclü liderimiz var!

Sədri olduğum Gənclər Təşkilatları Milli Şurası 1995-ci ildə 11 təşkilatla yaradıldı. Bu gün sıralarımızda 128 təşkilat birləşir. Təşkilatımız Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək gənclərin ictimai idarəetmə məktəbi kimi də formalaşıb. Gənclər Təşkilatları Milli Şurasının sıralarından çıxmış gənclər bu gün mərkəzi və yerli icra orqanlarında, o cümlədən beynəlxalq təşkilatlarda və şirkətlərdə çalışaraq bilik və bacarıqlarını dövlətimizin möhkəmlənməsinə və inkişafına yönəldirlər. Bu amilin əhəmiyyətini nəzərə alaraq gəncləri ölkəmizin həyatında daha da fəal iştiraka çağırıram. Çünki, bu, bizim Vətənimizdir, çünki bu, bizim Azərbaycanımızdır.

Bir məqamı da xüsusi qeyd etmək istərdim. Gənclər təşkilatlarının təşəbbüsləri, onların cəmiyyətin və gəncliyin inkişafına yönəlmiş layihələri, həmçinin beynəlxalq əməkdaşlığı dövlət tərəfindən dəstəklənir. Gənclər təşkilatları üzvlərinin fəaliyyəti ən ali səviyyədə qiymətləndirilir. Məsələn, mən beynəlxalq tədbirlərdə iştirak edərkən, öz həmyaşıdlarıma gənclər üçün Prezident mükafatçısı olduğumu bildirəndə bunu təəccüblə qarşılayır, dövlət gənclər siyasətimizə həsəd aparırlar. Budur, gənclərə olan qayğı və diqqət, budur, gənclərə olan inam.

Gənclər siyasətinin vacib istiqamətlərindən biri də beynəlxalq təmsilçilikdir. Dövlətimizin yürütdüyü xarici siyasət nəticəsində biz gənclər Azərbaycanın inkişafı və həqiqətlərini dünya ictimaiyyətinə yüksək tribunalardan çatdırırıq. Əminliklə deyə bilərəm ki, bundan sonra da belə olacaq.

Azərbaycan əhalisinin əksəriyyətinin gənclərdən ibarət olması ölkəmizin davamlı inkişafının təminatıdır. Bizim yeganə yolumuz Prezidentimizin ətrafında daha da sıx birləşərək azərbaycançılıq ideologiyasına sədaqətlə xidmət etməkdir.

Möhtərəm cənab Prezident, Siz Azərbaycan gənclərinin IV Forumunda çıxış edərək belə bir fikir bildirdiniz: "Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram". Biz də bütün fəaliyyətimizdə Sizə arxalanır və qayğınızı hər zaman hiss edirik.

On minlərlə gənci birləşdirən 128 gənclər təşkilatı adından bizə verilən bu dəyəri yüksək qiymətləndirir və Sizi əmin edirik ki, etimadınızı doğrultmaq üçün daim səylə çalışacağıq.

Diqqətinizə görə minnətdaram.

❖ ❖ ❖

Qarabağ qazisi, baş leytenant **Kamil MUSAVİ** çıxış edərək dedi:

- Möhtərəm Prezident.

Cənab Ali Baş Komandan.

Hörmətli tədbir iştirakçıları.



Hər birinizi salamlayıram. Gənclər Günü münasibətilə bütün gənc bacı və qardaşlarımızı təbrik edir, həyatda uğurlar arzulayıram.

Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir. Bu gün Azərbaycanın gələcəyi olaraq biz gənclərin üzərinə çox böyük vəzifələr düşür. Onlardan biri və birincisi vətənpərvər olmağımızdır. Hər bir gənc vətənpərvər olmalıdır, Vətənini sevməlidir. Vətənpərvər olmaq təkcə hərbi forma geyinib hərbçi olmaq deyil. Vətənpərvər olmaq təkcə hərbi forma geyinib səngərdə dayanmaq deyil. Hər bir insanın vətənpərvərliyi öz sahəsində Vətəninə, xalqına, millətinə vicdanla xidmət etməsidir.

Mən bu gün burada həm Azərbaycan Ordusunu, həm Qarabağ qazilərini təmsil edirəm. Bildirmək istəyirəm ki, biz hər zaman döyüş əhval-ruhiyyəsi ilə yaşayırıq. Biz hər zaman öz doğma torpaqlarımızı düşmən tapdağından azad etmək arzusundayıq.

Cənab Baş Komandan, bir zamanlar hücum əmri sanki yaddaşımızdan silinmişdi. Amma Aprel döyüşlərində gözlənilməyən anda Sizin "İrəli" əmri verməyiniz cəsarətli qərarlarınızdan oldu.

Siz çıxışlarınızın birində belə bir fikir söyləmişdiniz: "Biz öz doğma torpaqlarımızı heç kimə verməyəcəyik və heç bir zaman bu vəziyyətlə barışmayacağıq". Bu fikirlərinizi dünyaya sübut etmək və öz doğma torpaqlarımızı düşmən tapdağından azad etmək üçün Azərbaycanın qeyrətli oğulları Sizin "İrəli" əmrinizə hazırdır.

Möhtərəm cənab Prezident, "İrəli" əmri verdiyiniz zaman biz qazilər də bu əmrdən kənarda qalmayacağıq. Düzdür, kimlərsə düşünər ki, bədənin hər hansısa bir üzvünü itirmiş insanlar necə döyüşə bilər? Amma ayağı olmayanlar sürünərək, gözləri görməyənlər hiss edərək döyüşə gedəcəklər. Yetər ki, xalqımız yaşasın, yetər ki, müstəqil Azərbaycanımız var olsun.

Çox sağ olun.

❖ ❖ ❖

Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi, "Human Foundation" Fondunun Azərbaycan üzrə təsisçisi **Fəridə ƏSGƏRZADƏ** çıxış edərək dedi:



- Möhtərəm cənab Prezident.

Hörmətli gənclər.

Sizin və bu böyük gənclər auditoriyasının qarşısında çıxış etmək, fikirlərimi sizinlə bölüşmək mənim üçün şərəfdir. Biz bu gün dördüncü sənaye inqilabı dövründə yaşayırıq. Genetika, süni intellekt, robototexnika, nanotexnologiya və biotexnologiya sahələri artıq yenilik deyil. Bir çox peşə və ixtisaslar 5 və ya 10 il əvvəl heç mövcud deyildi. Bu səbəbdən də gənclərin yeni yaranan peşələr və əmək bazarına uyğunlaşması baxımından sahibkarlıq düşüncəsinin inkişaf etdirilməsi çox aktualdır.

Sizin apardığınız uğurlu iqtisadi siyasət nəticəsində Azərbaycanda biznes mühiti davamlı olaraq yaxşılaşır, istehsal, emal sahələri inkişaf edir və iqtisadiyyatın şaxələnməsi təmin edilir. Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin inkişafına dəstək göstərilir, qanunvericilik bazası təkmilləşdirilir və güzəştli kreditlər verilir. Startap infrastrukturunun inkişafı üçün böyük addımlar atılır. Yüksək texnologiyalar parkları, innovasiya mərkəzləri, biznes inkubasiya mərkəzləri açılır. Gənclər üçün biznes məsləhət xidmətlərinin təşkili və metodiki tövsiyələrin verilməsi mühüm əhəmiyyət kəsb edir.

Gənc sahibkarlığın inkişafının ən vacib komponentlərindən biri beynəlxalq təcrübənin öyrənilməsi, mentallıq və innovasiya xidmətlərinin göstərilməsidir. İnnovativ ideyalara gəldikdə isə, sosial sahibkarlığı xüsusi vurğulamaq lazımdır. Bu sahə gəlir gətirməklə yanaşı, cəmiyyətə fayda verən, yerli və qlobal problemlərin həlli yollarını tapmağa təsir göstərməyə malik sahibkarlıq konsepsiyasıdır. Mənim "Human Foundation"u yaratmağıma bu düşüncə səbəb olub. Bizim məqsədimiz sosial sahibkarlıq platforması vasitəsilə gənclərə sosial biznes, mədəni layihələrin həyata keçirilməsi üçün şərait yaratmaq, hər kəs üçün bərabər imkanları dəstəkləməkdir.

Dövlətin dəstəyi bizi ətrafımızda çox sadə gəncləri toplamağa həvəsləndirdi və bu qarşılıqlı dəstək dairəsi bu gün getdikcə genişlənir. Son dövrlərdə yaradılmış sahibkarlıq subyektlərinə diqqət yetirəndə burada qadınların sayının artdığını müşahidə edirik. Azərbaycan çox azsaylı ölkələrdən biridir ki, qadınların sahibkarlıq fəaliyyəti dövlət tərəfindən tam dəstəklənir və inkişaf üçün bütün şərait yaradılır. Mənim fəaliyyətim bunun bir nümunəsidir. 21 yaşımdan etibarən sahibkar kimi, 23 yaşımdan isə universitetdə müəllim kimi çalışmağa başlamışam. Sevindirici haldır ki, mənim fəaliyyətim və ideyalarım müxtəlif təşkilat və dövlət qurumları tərəfindən dəstəklənib. Sahibkarlıq sahəsində həm elmi, həm praktiki fəaliyyət göstərməyim dövlətimizin yaratdığı şərait nəticəsində mümkün olub.

Əziz Mehriban xanım, Sizin ictimai fəaliyyətiniz, sosial sahədə gördüyünüz işlər, insanpərvərliyiniz və işgüzarlığınız nəinki mənə, bütün gənc azərbaycanlı qadınlara örnəkdir.

Hörmətli gənclər, bu gün ölkəmizdə cənab Prezident tərəfindən həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində gənclərin sahibkarlıq fəaliyyəti ilə məşğul olması və məşğulluğun təmin olunması üçün münbit şərait yaranmışdır. Biz gənclər bu işdə cənab Prezidentin bizə göstərdiyi etimadı doğrultmalı və yeni ideyalarla Azərbaycanın daha da inkişafı üçün birlikdə çalışmalıyıq. Azərbaycanda hər bir gənc parlaq uğura nail ola bilər. Biz hər zaman uğur qazanmaq istəyiriksə, elə bu gün başlamalıyıq. Gənclər günümüzü təbrik edirəm.

Hörmətli cənab Prezident, bizə yaratdığınız şərait və dəstək üçün Sizə gənc sahibkarlar adından dərin minnətdarlığımı bildirirəm. Sizi əmin etmək istəyirəm ki, biz Azərbaycanın daha da güclənməsi naminə əzmlə çalışacağıq.

Diqqətinizə görə təşəkkür edirəm.

❖ ❖ ❖

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri **Seymur ORUCOV** çıxış edərək dedi:



- Möhtərəm cənab Prezident.

Çox hörmətli Mehriban xanım.

Hörmətli tədbir iştirakçıları.

Əvvəla, ulu öndərin biz gənclərə hədiyyəsi olan Gənclər Günü münasibətilə hər birinizi səmimi-qəlbdən təbrik edirəm.

Bu gün bu yüksək kürsüdən ulu öndərin qurduğu Yeni Azərbaycan Partiyasının nümayəndəsi kimi çıxış edib fikirlərimi sizinlə bölüşmək istəyirəm.

Cənab Prezident, Sizin rəhbəri olduğunuz Yeni Azərbaycan Partiyası cəmiyyətin aparıcı qüvvəsidir. Müdriklərdən biri deyib: "Haradan gəldiyini, harada olduğunu, haraya gedəcəyini müəyyən edən xalqlar heç zaman uğursuzluğa düçar olmurlar". Bəli, biz bu yolda iri addımlarla irəliləyirik. Biz ona görə xoşbəxtik ki, bu yolun təməlini ulu öndər Heydər Əliyev qoyub. Bu gün Azərbaycan gəncliyi xoşbəxtdir ki, Azərbaycanın lideri, Prezidenti gənclərimizə daha güclü, daha zəngin bir Azərbaycan bəxş edib.

Cənab Prezident, Siz çıxışlarınızda demisiniz ki, Azərbaycan tarixində bu qədər güclü olmayıb. Bəli, bu gücün mənbəyi Heydər Əliyev yoludur, bu gücün mənbəyi xalqla iqtidarın birliyidir, bu gücün mənbəyi Azərbaycan xalqının, Azərbaycan gəncinin Sizə olan ehtiramıdır, məhəbbətidir.

Bu gün hər bir Azərbaycan gənci Ali Baş Komandanın əsgəridir. Səngərdə əsgəridir, orduda əsgəridir, təhsildə əsgəridir. Əgər Azərbaycanın müstəqilliyinə qarşı hər hansı bir təhdid olarsa, inanın ki, cənab Prezident, bu gənclər həmin qüvvələri tarixin siyasi səhnəsindən bir anda silərlər.

Təbiidir ki, bu gün dünyada sosial şəbəkələrlə bağlı baş vermiş xaosdan bəzi antimilli qüvvələr sui-istifadə etməyə çalışırlar. Bir çox dövlətlər artıq bununla bağlı qanunvericilikdə dəyişikliklər edib, düşünürük ki, artıq bu, Azərbaycanda da zərurətə və tələbata çevrilib.

Bu gün xalq tərəfindən tarixin arxivinə atılmış siyasətin tör-töküntüləri, bax, həmin bu sosial medianın vermiş olduğu imkanlardan sui-istifadə edərək xalqı çaşdırmağa, səhv, yalan, böhtan xarakterli məlumatlar yayaraq insanlardakı Azərbaycana olan inamı itirməyə, ictimai-siyasi sabitliyi pozmağa cəhdlər göstərirlər. Amma bu gün Yeni Azərbaycan Partiyasının gənc üzvləri - Prezidentini, Vətənini sevən gənclər onları sosial şəbəkələrdə də iflasa uğradıblar. Bütün həqiqətləri açıqlayaraq, Azərbaycan cəmiyyətinə onların kim olduqlarını göstərib. Azərbaycan xalqı onsuz da onların kim olduğunu çox gözəl bilir. Mən buradan üzümü həmin antimilli qüvvələrə tutub deyirəm, təkcə Yeni Azərbaycan Partiyası Gənclər Təşkilatının bir rayondakı üzvlərinin sayı sizdən qat-qat çoxdur. Təkcə ötən il Yeni Azərbaycan Partiyasına 24 mindən çox üzv qəbul edilib. Onların əksəriyyəti gənclərdir. Bu da ondan xəbər verir ki, Azərbaycan cəmiyyəti bu siyasi kursa böyük dəstək verir, bu siyasi kursla həmfikirdir.

Əziz cənab Prezidentimiz, Siz qısa müddət ərzində yeni Azərbaycan qurdunuz. Azərbaycanı dünyada bir çox dövlətlərin heyranlıqla izlədiyi bir səviyyəyə gətirib çıxardınız. Biz gənclərin də, Yeni Azərbaycan Partiyası gənclərinin də əsas işi ondan ibarətdir ki, Sizin və çox hörmətli Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın gördüyü işləri gənclərimizə çatdıraq, bunun təbliğatını aparaq. Təbiidir ki, Siz bu işdə bizə çox kömək göstərirsiniz. Çünki Sizin gördüyünüz işlər o qədər möhtəşəmdir, cəmiyyət tərəfindən o qədər müsbət qarşılanır və Azərbaycanı o qədər qüdrətli edir ki, həmin işlər özü-özünü təbliğ edir.

Müqayisə üçün deyim ki, məsələn, Ermənistan gəncləri öz rəhbərlərini necə təbliğ edə bilərlər? İş yoxdursa, əhali səfil vəziyyətdə yaşayırsa, hər şeydən məhrumdursa, hansı təbliğatdan söhbət gedə bilər?! Amma Azərbaycan gəncinin deməyə sözü çoxdur.

Cənab Prezident, Sizi bir daha əmin etmək istəyirəm ki, biz istər regionlarda, istərsə də paytaxtda gənclərlə görüşlərimiz zamanı gənclər Sizə hər zaman öz məhəbbət, sevgi və ehtiramlarını ifadə edirlər. Bu gün Siz əmin ola bilərsiniz ki, Azərbaycan gəncliyi Sizin çağırışınızı gözləyir, Azərbaycan gəncliyi Sizinlədir. Çünki bizim dəmir iradəli Prezidentimiz var. Biz çox sürətlə inkişaf edirik. Bu yoldan bizi heç kim, heç bir qüvvə döndərə bilməz.

Yaşasın müstəqil Azərbaycan!

Yaşasın Heydər Əliyev yolu! Yaşasın Prezidentimiz İlham Əliyev!

Çox sağ olun.

❖ ❖ ❖

"Regional İnkişaf" İctimai Birliyinin nümayəndəsi **Aydan RAMAZANOVA** çıxış edərək dedi:



- Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım.

2016-cı ildə Heydər Əliyev Fondu tərəfindən təsis olunmuş "Regional İnkişaf" İctimai Birliyinin məqsədi regionlarda ictimai nəzarəti həyata keçirmək, ölkəmizin sosial, ictimai və mədəni həyatında fəal iştirak etmək, dövlətimiz tərəfindən regionların inkişafı sahəsində həyata keçirilən tədbirlərə geniş dəstək göstərməkdən ibarətdir. Bu istiqamətdə İctimai Birlik bölgələrdə mütəmadi görüşlər keçirir, insanların qayğıları ilə maraqlanır, müraciətlərini araşdıraraq həlli yollarını axtarır.

Cənab Prezident, bugünədək biz Sizin və Mehriban xanımın bilavasitə dəstəyi sayəsində əhalinin sosial, infrastruktur, özünüməşğulluq, səhiyyə və digər məsələlərlə bağlı çoxsaylı müraciətlərinin müsbət həllinə nail olmuşuq. İcazənizlə görülmüş işlərdən bəzi nümunələri qeyd etmək istəyirəm.

Əhalinin özünüməşğulluğunun təmin olunması ilə bağlı Sizin tapşırığınıza uyğun olaraq, "Sosial bağlar" layihəsi həyata keçirildi. Layihə çərçivəsində 125 şəhid ailəsi, əlil və aztəminatlı ailələr üçün intensiv meyvə bağları salındı. Bu bağlar onların yaşayış səviyyəsinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayacaq.

Bu yaxınlarda Ağsu rayonundan qayıtdıq. Əhalinin Sizə salamlarını çatdırmaq istərdim. Ağsu rayonunun Elabad kəndində sakinlərə verilmiş pay torpaqlarının sərhədləri uzun müddət qeyri-müəyyən olduğundan insanlar torpağı əkib-becərməkdə və dövlət tərəfindən verilmiş imtiyazlardan istifadədə çətinlik çəkirdi. İctimai Birliyin təşəbbüsü ilə aidiyyəti qurum tərəfindən qısa müddət ərzində torpaqların dəqiq sərhədləri müəyyənləşdirildi, vətəndaşlara müvafiq mülkiyyət sənədləri verildi. Eyni zamanda, əkin üçün torpaqların şumlanması və məhsulun yığılmasında da onlara lazımi kömək göstərildi.

Belə nümunələr kifayət qədərdir. Bildirmək istərdim ki, bütün bu işlər regionlarda əhali, xüsusilə gənclər tərəfindən böyük məmnunluqla qarşılanır, onlarda ruh yüksəkliyi yaradır və dövlətə olan inamı daha da gücləndirir.

Cənab Prezident, bütün bu işlərdə həmişə Sizin və Mehriban xanımın dəstəyinə arxalanırıq. Sizin insanlara bu cür qayğı göstərməyiniz, onların problemlərinə həssaslıqla yanaşmağınız bizə və bütün gənclərə stimul verir.

Gənclərimiz bütün sahələrdə gedən inkişaf proseslərini yaxından izləyir və dövlətimizin əldə etdiyi nailiyyətlərlə qürur duyur. Sizin rəhbərliyiniz altında dövlətçiliyimiz, siyasi və iqtisadi müstəqilliyimiz daha da möhkəmlənib. Bu gün ölkəmiz beynəlxalq tədbirlərin, forumların, mötəbər idman yarışlarının keçirildiyi məkana çevrilib. Xalqımızın rifahı naminə gördüyünüz bütün bu işlər Azərbaycan gənclərində xoşbəxt gələcəyə olan inam və əminliyi daha da artırır.

Regionlardakı gənclərimizin sosial fəallığının artırılması, onların bilik və bacarıqlarının inkişaf etdirilməsi, həyata keçirilən layihələrdə iştirakının təmin olunması məqsədilə biz geniş fəaliyyətimizə könüllüləri də cəlb etmişik. Hazırda 500-ə yaxın könüllü İctimai Birliyin bütün təşəbbüslərinə dəstək verərək müxtəlif idman yarışlarında, marafonlarda, səhiyyə aksiyalarında, eləcə də əhalinin tibbi, hüquqi və ekoloji maarifləndirilməsində fəal iştirak edir.

Möhtərəm cənab Prezident, "Regional İnkişaf" İctimai Birliyi olaraq biz regionlara, o cümlədən cəbhə bölgələrinə müntəzəm səfərlər edirik. Bu səfərlər zamanı şahidi oluruq ki, xalqımızda böyük ruh yüksəkliyi, milli birlik və həmrəylik var. Bu hislər onların Sizə və Mehriban xanıma olan inamından irəli gəlir. Siz bayramları, xoş günlərinizi, hətta doğum günlərinizi xalqla, qaçqın və məcburi köçkünlərlə, şəhid ailələri və əsgərlərlə qeyd edirsiniz. Bu, biz gəncləri bir daha hədsiz qürurlandırmaqla yanaşı, Sizdən humanizm və vətənpərvərlik dərsi alaraq dövlətimizə layiqli vətəndaş kimi yetişməyimizdə böyük rol oynayır.

Bizim qarşımıza konkret məqsədlər qoyulub. Region gəncləri adından bildirmək istəyirəm ki, bu məqsədlərə nail olmaq üçün bundan sonrakı fəaliyyətimizdə də dövlətimizə və Prezidentimizə sadiq qalaraq, Sizin ətrafınızda sıx birləşəcək, ölkəmizin inkişafı naminə daha böyük əzmlə çalışacağıq.

Möhtərəm cənab Prezident, regionların inkişaf etdirilməsi istiqamətindəki fəaliyyətinizdə biz gənclər Sizin bir nömrəli köməkçilərinizik.

Diqqətinizə görə minnətdaram.

❖ ❖ ❖

Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, Tələbə Gənclər Təşkilatının sədri **Ayxan HÜSEYNLİ** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Bu gün Azərbaycan vətənpərvər və istedadlı gənclər ölkəsidir. Bu, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin real bəhrəsidir. Dahi rəhbərimizin təşəbbüsü ilə hələ sovetlər birliyi dövründə Azərbaycan gəncliyinin inkişafı istiqamətində ardıcıl tədbirlər görülürdü, milli dəyərlərə və tarixi-mədəni irsə bağlı gənc nəslin formalaşdırılmasına başlanılmışdı. O dövrdə gənclərin təhsili sahəsində həyata keçirilən tədbirlər, onların ixtisaslı kadr kimi yetişdirilməsi, xüsusilə milli hərbçi kadrların hazır-



lanması ölkəmizin gələcək müstəqilliyinə hesablanmışdı.

Ümummilli lider ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra da gənclərlə bağlı dövlət siyasətini əsas vəzifələr sırasına çəkmiş, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması, onların problemlərinin həlli və gələcəyin layiqli vətəndaşları kimi yetişməsi üçün lazımi şərait yaratmışdı. Bütün bunlar da gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşması, sosial problemlərinin həlli və məşğulluqlarının təmin olunması baxımından mühüm əhəmiyyətə malikdir.

Ulu öndər Heydər Əliyev deyirdi: "Bizim hamımızın vəzifəsi Azərbaycanın gənclərini milli vətənpərvərlik ruhunda tərbiyə etməkdir, gənclərimizi bilikli etmək, müasir dünyanın əldə etdiyi nailiyyətlər səviyyəsinə qaldırmaqdır, respublikamızın gənclərini Azərbaycanda müstəqil, demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu işinə cəlb etməkdir".

Bu gün ulu öndərin müəyyənləşdirdiyi və Sizin rəhbərliyinizlə davam etdirilən yolla gedən Azərbaycan gəncləri cəmiyyətin fəal sosial təbəqəsinə çevrilmişdir. İnsan kapitalının yetişdirilməsi sahəsində irəli sürdüyünüz düzgün yol və əldə olunan nəticə Azərbaycanda gənclər siyasətini yeni mərhələyə çıxarıb. Görülən işlərin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri öz intellektual səviyyələri, bilik və bacarıqları ilə dünyada tanınır və qəbul olunurlar. Artıq gənclərimiz diplomatiya, iqtisadiyyat, mədəniyyət, incəsənət, idman və digər sahələrdə ölkəmizi layiqincə təmsil edirlər.

Dünyada Azərbaycan kimi ikinci bir dövlət göstərmək çətindir ki, müharibə şəraitində ola-ola gənclərin problemləri ilə bu qədər yaxından məşğul olsun.

Müstəqil ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da gənc nəsil hərtərəfli qayğı ilə əhatə olunub. Muxtar respublikada gənclərin yüksək səviyyədə təhsil alması, intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün formalaşması və asudə vaxtlarının səmərəli təşkili məqsədilə ardıcıl tədbirlər görülür.

Ötən dövrdə muxtar respublikada 200-dən çox məktəb binası, 5 peşə məktəbi, 23 uşaq bağçası, məktəbdənkənar tərbiyə müəssisələri, musiqi məktəbləri, Gənclər Mərkəzi, elektron kitabxanalar, mədəniyyət sarayları, tələbə evləri, 50-dən artıq idman obyekti, universitet şəhərcikləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitab"ının təsis edilməsi, Gənclər Fondunun yaradılması muxtar respublikada gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardandır.

Həyata keçirdiyiniz dövlət gənclər siyasətinin, gələcəyimiz olan gənclərə göstərdiyiniz qayğının və yaradılan şəraitin nəticəsidir ki, Naxçıvan şəhəri 2018-ci ildə ölkəmizin Gənclər Paytaxtı seçilmişdi.

Müdriklər deyirlər ki, bir ölkənin gələcəyini bilmək üçün onun gəncliyinə nəzər salmaq lazımdır. Çünki gənclər mənsub olduğu xalqı təmsil edir. Azərbaycan gənci xalqına, dövlətinə və rəhbərinə sədaqətlidir. Azərbaycan gənci ulu öndər Heydər Əliyevin ideyalarına sadiq qalaraq öz həyat yolunu müstəqil Azərbaycanın gələcək yolu kimi seçən əsl vətəndaşlardır. Bu gün Azərbaycan gəncinin simasını Avropa, dünya və Olimpiya çempionu olan idmançılarımız, beynəlxalq reytinqli şahmatçılarımız, istedadlı gənc alimlərimiz, musiqiçilərimiz, mühəndislərimiz, doğma Azərbaycanımızın mənafeyini müdafiə edən diplomatlarımız, Lələtəpədə, Günnütdə Azərbaycan bayrağını vüqarla dalğalandıran əsgərlərimiz müəyyən edirlər. Budur, Azərbaycan gəncliyi, budur, müstəqil Azərbaycanın gələcəyi.

Çıxışlarınızın birində qeyd etmişdiniz ki, "Gələcəkdə gənclər ölkəmizi idarə edəcəklər. Bunun yeganə yolu ondan ibarətdir ki, gənclər vətənpərvərlik ruhunda tərbiyə alsınlar, öz Vətəninə bağlı olsunlar, öz Vətənini sevsinlər və dövlət müstəqilliyini hər şeydən üstün tutsunlar". Biz Sizin etimadınızı və bundan irəli gələn məsuliyyəti başa düşərək potensialımızı müstəqil Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafına sərf edirik. Bizim bir yolumuz var. O da müdrik rəhbərimiz tərəfindən uğurla davam etdirilən ulu öndər Heydər Əliyev yoludur.

Cənab Prezident, ölkəmizin gələcəyi olan gənclərin inkişafına göstərdiyiniz hərtərəfli qayğıya görə Sizə muxtar respublika gəncləri adından dərin minnətdarlığımızı bildiririk.

❖ ❖ ❖

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbəsi **Ülkər ƏSƏDOVA** çıxış edərək dedi:



- Hörmətli cənab Prezident.

Əziz tədbir iştirakçıları.

Bu gün burada Azərbaycanın böyük tələbə ordusu adından çıxış etmək mənim üçün çox böyük məsuliyyət və şərəfdir.

Mən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının dördüncü kurs tələbəsiyəm. Bir çox yuxarı kurs tələbələri kimi, mən də artıq magistratura imtahanlarına hazırlaşmağa başlamışam. Mən magistr diplomunu diplom üçün deyil, bilik və bacarıq üçün almaq istəyirəm. İnanıram ki, belə də olacaq. Mən istəyirəm ki, aldığım təhsil sayəsində ölkəmin inkişafına töhfə verim və mənim həmin inkişafda payım olsun.

Yəqin ki, burada əyləşən hər bir kəs Antuan de Sent-Ekzüperinin "Balaca Şahzadə" əsərini xatırlayır. Orada balaca Şahzadə deyir ki, "Böyüklər rəqəmləri çox sevirlər. Onlara deyəndə ki, özünə təzə dost tapmısan, heç vaxt soruşmazlar ki, onun səsi necədir? O hansı oyunları sevir? O, kəpənəkləri xoşlayırmı? Bu suallar əvəzinə soruşacaqlar ki, onun neçə yaşı var? Neçə bacı-qardaşdırlar?".

Biz, tələbələr üçün isə vacib olan rəqəmlər deyil, tələbəlik illərində qazandığımız biliklər, dostluqlar, ən əsası isə xatirələrdir.

Biz hər səhər dərsə qaçmağa, axşamlar sosial şəbəkələrdə günün hesabatı formatında statuslar yazmağa, gecələr isə kollokvium və imtahanlara hazırlaşmağa öyrəşmişik. Yadımdadır ki, dərsə gecikdiyim vaxtlarda auditoriyanın qapısı ağzında arzulayırdım ki, müəllim hələ auditoriyaya girməmiş olsun - bəzən bu arzularım gerçəkləşirdi, bəzən isə yox. Təqaüdlər köçürüləndə və hamı bu xəbəri bir-birinə sevinclə ötürəndə biz əsl bayram ab-havasını yaşayırdıq.

Dövlətimiz bizim üçün dünya standartlarına cavab verən auditoriyalar, məşq zalları, yeni kitabxana və laboratoriyalar yaradıb. Biz tələbələr bu imkanlardan çox yaxşı faydalanırıq. Dörd il əvvəl mənə yad olan insanlar bu gün mənim ən yaxın və ən doğma dostlarıma çevriliblər və biz bir-birimizdən artıq ayrıla bilmirik. Çünki biz artıq bir ailəyik.

Tələbələr istənilən ölkənin aparıcı qüvvəsidir. Ölkənin inkişafı və nailiyyətləri birbaşa tələbələrin nə qədər sağlam, savadlı, xoşbəxt və uğurlu olmasından asılıdır. Biz, Azərbaycan tələbələri əlimizdən gələni edəcəyik ki, uğur qazanaq. Uğur qazanaq ki, ölkəmiz də uğur qazansın, biz xoşbəxt olaq ki, ölkəmiz də xoşbəxt olsun.

Biz çalışacağıq ki, müstəqil dövlətimizdə yaradılan bütün imkanlardan tam şəkildə istifadə edək və növbəti dəfə, cənab Prezident, siz Sofiya ilə deyil, məhz azərbaycanlı mühəndis tələbələr tərəfindən yaradılmış robotla danışasınız. Biz çalışacağıq ki, Nobel mükafatçıları arasında gənc azərbaycanlı alimlər olsun - niyə də olmasın axı? Bizim tərəfdaşlıq etdiyimiz universitet dünyaya 29 Nobel mükafatçısı bəxş edib. Biz çalışacağıq ki, azərbaycanlı tələbə Harvard və Oksford tələbəsi kimi bir brendə çevrilsin, ölkəmiz xoşbəxtlik reytinqlərində ən ön yerləri tutsun.

Ola bilsin ki, dediklərim bir az qeyri-real səslənir. Amma bu gün mən, sadə bir tələbə, ölkə başçısının qarşısında necə çıxış edirəmsə, inanın ki, sizin də hər bir arzunuz həyata keçə bilər.

Ardı 4-cü səh.

# Prezident gənclərə tam güvənir, gənclər də Liderini birmənalı dəstəkləyir

*Əvvəli 3-cü səh.*





Əziz gənclər və tələbələr, biz Azərbaycan kimi keçmişi zəngin və gələcəyi parlaq bir ölkədə yaşadığımıza və təhsil aldığımıza görə, həqiqətən də, çox şanslıyıq. Azərbaycan tələbələri beynəlxalq əmək bazarında rəqabət gücünə malikdirlər. Bu gücü biz tələbələr, ilk növbədə, ölkəmizin inkişafına sərf etməliyik, çünki bizim hər addımımızda dövlət bizə dəstək olmağa hazırdır və dəstək olur da.

Hörmətli cənab Prezident, bu cür imkanları bizə yaratdığınız üçün Sizə bütün tələbələrin minnətdarlığını çatdırmaq istərdim. Siz bizim üçün ən böyük nümunəsiniz və ən böyük örnəksiniz.

Sonda bütün tələbələr adından onu da diqqətinizə çatdırmaq istəyirəm ki, cənab Prezident, biz Sizi həqiqətən də çox istəyirik və çox sevirik. Ulu Tanrı Sizi və ailənizi qorusun. Çox sağ olun.

❖ ❖ ❖

Şəhid polkovnik-leytenant Raquf Orucovun oğlu **Aqşin ORUCLU** çıxış edərək dedi:



- Möhtərəm cənab Prezident.

Əziz həmyaşıdlar.

İşinizin gərgin olmasına baxmayaraq, vaxt ayırıb biz gənclərlə görüşdüyünüz üçün Sizə çox təşəkkür edirik. Mən Aprel döyüşlərində qəhrəmanlıqla şəhid olmuş polkovnik-leytenant Raquf Orucovun oğluyam və şəhid oğlu olmağımla fəxr edirəm.

Aprel döyüşlərində atamın Vətənimiz uğrunda qəhrəmancasına şəhid olması bizə böyük qürur hissi yaşadır. Ordumuzun Aprel döyüşlərindəki qələbəsi yalnız ordunun deyil, həm də Sizin qələbəniz idi. Aprel döyüşləri bütün dünyaya Azərbaycan Ordusunun gücünü, əzmini və qətiyyətini göstərdi. Azərbaycan Ordusu bu gücü, bu ilhamı məhz Sizdən alır. Lakin hamıya məlumdur ki, torpaqların qorunması, azadlıq və müstəqillik itkisiz əldə edilmir. Buna baxmayaraq, Vətən, torpaq uğrunda şəhid olan igid və qəhrəmanlarımız Azərbaycan var olduqca yaddaşlarda yaşayacaq.

Mən bir gənc kimi, dövlətimizə layiqli vətəndaş olmaq məqsədilə ADA Universitetinə qəbul oldum. Hazırda ölkəmizin ən nüfuzlu universitetlərindən birində təhsil alıram və dövlətim bizə dəstək olur. Digər sosial müdafiəyə ehtiyacı olan ailələr kimi, mənim də təhsil haqqım dövlətimiz tərəfindən ödənilir.

Cənab Prezident, Sizin dörd gün öncə şəhid ailələri ilə keçirdiyiniz görüş, orada yaşlı şəhid valideynlərinə göstərdiyiniz qayğı və nəvaziş xalqımız tərəfindən qürur hissi ilə qarşılandı. Bu, biz gənclər üçün gözəl nümunə oldu. Siz bu görüşdəki çıxışınızda qeyd etdiyiniz kimi, təkcə keçən il 5900 məcburi köçkün ailəsi, 6600 şəhid ailəsi dövlətimiz tərəfindən mənzillərlə təmin olunub, 6 mindən çox şəhid ailəsinə isə minik avtomobilləri verilib. Bu, Sizin şəhid ailələrinə göstərdiyiniz münasibətin təzahürüdür. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün verdiyiniz sərəncama uyğun olaraq 2016-cı ildə biz də digər şəhid ailələri kimi 11 min manat vəsaiti almışıq.

Qərara gəldik ki, Qarabağ döyüşçülərinin və qazilərinin, şəhidlərin təbliği işinə biz də qoşulaq. Bu məqsədlə 2016-cı ilin Aprel döyüşlərində şəhid olanların ailə üzvləri birləşərək İctimai Birlik yaratdıq. Ümid edirik ki, gördüyümüz işlərlə dövlətin bu sahədə həyata keçirdiyi siyasətə kiçik töhfə vermiş oluruq. Güman edirik ki, bu iş valideynlərimizin ruhlarını da şad edib.

Biz gənclər düşünürük ki, verdiyimiz hər itki əvəzinə minlərlə gənc onların keçdiyi şərəfli yolunu davam etdirməyə hazırdır. Mən bu gün bir gənc, bir şəhid övladı kimi bir daha əmin oldum ki, həyata keçirdiyiniz siyasətin əsasında sosial ədalət prinsipi hər şeydən yüksəkdə dayanır. Siz və birinci xanım Mehriban Əliyeva sosial müdafiəyə ehtiyacı olanlara hər zaman xüsusi diqqət və qayğı ilə yanaşmısınız, hər zaman şəhid ailələrinin yanında olmusunuz. Azərbaycan vətəndaşları hər zaman Sizin şəfqət və mərhəmətinizi hiss edib. Sizin gəncliyə dəstəyiniz və sosial siyasətiniz bizdə özünəinam və əminlik yaradır.

Şəhid vərəsələrinə göstərdiyiniz diqqət və qayğı üçün Sizə bir daha minnətdarlığımızı bildiririk. İnanırıq ki, Sizin rəhbərliyiniz ilə Azərbaycan gəncliyi sabaha daha inamla addımlayacaq. Azərbaycanın əmin-amanlıq şəraitində inkişafı üçün apardığınız siyasətdə Sizə uğurlar arzulayırıq. Əmin ola bilərsiniz ki, bir qəhrəman övladı olaraq hər zaman Sizin yanınızdayıq. Sizin apardığınız daxili və xarici siyasəti dəstəkləyirik. Çox sağ olun, möhtərəm cənab Prezident.

❖ ❖ ❖

"ASAN" könüllüsü **Emilya BAYRAMOVA** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Sizi 17 minlik ASAN könüllüləri hərəkatının üzvü kimi salamlamaqdan qürur duyuram. Sizin xeyir-duanızla 15 nəfərlə çıxdığımız bu yola, Sizin dəstəyinizlə davam edirik.

Gənclərlə görüşlər zamanı nəcib bir fəaliyyət kimi dəyərləndirdiyiniz könüllülük fəaliyyəti bu gün ölkəmizdə geniş vüsət alıb. Sizin də dediyiniz kimi, ölkəmizdə könüllülük hərəkatı var və bu hərəkat yaşayır.



Dövlətimizə olan sonsuz sevgimizin nəticəsi olaraq "ASAN xidmət" mərkəzlərində vətəndaşlarımıza təmənnasız xidmətlə yanaşı, evsahibliyi etdiyimiz dünya əhəmiyyətli tədbirlərdə, idman yarışlarında könüllü olaraq aktiv iştirak etdik, ölkəmizi ən yüksək səviyyədə təbliğ etməyə çalışdıq. Könüllülük fəaliyyəti zamanı Sizin və hörmətli Mehriban xanımın dəstəyini daim hiss edirik.

Təşəbbüskarı olduğunuz ASAN könüllüləri haqqında fikirlərinizi hər zaman böyük fəxrlə dinləyir və ruhlanırıq. Biz gənclər olaraq fəaliyyətimizdə hər zaman Sizin Azərbaycan gəncliyi qarşısında qoyduğunuz ən ümdə vəzifələri, vətənpərvərlik və insanpərvərlik prinsiplərini, məsuliyyətli vətəndaş tələblərinizi rəhbər tuturuq.

Diqqətinizə çatdırmaq istərdim ki, bugünə qədər ASAN könüllüləri tərəfindən 30 mindən çox gənci əhatə edən 500-dən çox sosial-mədəni, ekoloji, maarifləndirici layihələr icra edilib, o cümlədən "ASAN məktub" layihəsi çərçivəsində 3000 aztəminatlı və ya kimsəsiz uşağın əlçatan arzularının gerçəkləşməsində vasitəçi olmuşuq.

Eyni zamanda, "Əsgərə məktub" layihəsi çərçivəsində vətəndaşlarımızın xeyir-duasını, arzu və diləklərini əsgərlərimizə çatdırmışıq, Aprel döyüşləri zamanı qəhrəman əsgərlərimizə mənəvi dəstək olmuşuq. Azərbaycanın hərbi uğurları bu gün biz gəncləri çox qürurlandırır və əminik ki, Ali Baş Komandan kimi Sizin rəhbərliyinizlə işğal altında olan bütün torpaqlarımızın geri qayıdacağı gün uzaqda deyil. Ən böyük arzumuz isə o zəfər bayramının təşkilində könüllü olaraq iştirak etməkdir.

Könüllülük həyatımıza hədsiz dinamiklik qatdı və heç şübhəsiz ki, fərdi inkişafımıza böyük təkan oldu. Valideynlərimiz, böyüklərimiz onların dövründə gənclər üçün belə şəraitin olmamasından şikayətlənəndə biz onları da könüllülüyə dəvət etdik və bu gün artıq ölkəmizdə "Könüllülüyün yaşı yoxdur" şüarı heç kəsi təəccübləndirmir.

Möhtərəm Prezident, biz çox gözəl dərk edirik ki, Sizin siyasətiniz ölkəmizin təbii sərvətlərinin insan kapitalına çevrilməsinə, dövlətimizin dayanıqlı inkişafına yönəlib. Bu gün biz gənclərin ən böyük xoşbəxtliyi, ən dəyərli sərvəti məhz ölkəmizin müstəqilliyi, sabitliyi və tərəqqisidir.

Sonda bir məsələyə də xüsusi olaraq toxunmaq istəyirəm. Bu gün dövlətimizin uğurlu inkişafını gözü götürməyən qüvvələr bəzən gəncləri də öz oyunlarına alət etməyə çalışır. Lakin gəncliyimizin mütləq əksəriyyəti həmin təsisatların əsl niyyətlərindən xəbərdardır və biz Sizin yanınızdayıq, Sizin sadiq, könüllü əsgərlərinizik.

Möhtərəm cənab Prezident, Sizi əmin edirik ki, ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri sayəsində öz müstəqilliyini qorumuş, güclü, öz sözünü deməyə qadir dövlətimizin dayanıqlı inkişafı üçün daim çalışacağıq.

Bir daha biz gənclərə olan sevginiz üçün Sizə minnətdarıq.

Biz Sizi çox sevirik, könüllülərin könlü daim Sizinlədir.

❖ ❖ ❖

Sonra bir qrup gəncin təltif olunması mərasimi keçirildi.

Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə yekunlaşdı.

# Prezident vətəndən kənarda yaşayan soydaşlarımıza da diqqət və qayğısını əsirgəmir

Fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ukraynada yaşayan soydaşlarımız Umud və Sabir Şirinov qardaşları ilə görüşüblər.









AZƏRTAC xəbər verir ki, dövlət başçısı həyatları təhlükəyə məruz qalan insanların xilası zamanı göstərdikləri şəxsi şücaətə görə onları "İgidliyə görə" medalı ilə təltif edib.

Şirinov qardaşlarını salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Vətənə xoş gəlmisiniz. Sizi təbrik edirəm. Çox böyük şücaət göstərmisiniz. Köməksiz vəziyyətdə olan insanları xilas etmisiniz. Öz həyatınızı risk altına salmısınız. Bu, doğrudan da, çox böyük əks-səda doğurub. Əlbəttə ki, sizin bu qəhrəmanlığınız Azərbaycan xalqı haqqında daha da dolğun təsəvvür yaradılmasına xidmət göstərir. Doğrudan da, xalqımızı ləyaqətlə təmsil etmisiniz. Mən sizi dəvət etdim və sizi dövlət mükafatı ilə - "İgidliyə görə" medalı ilə təltif edirəm.

Sonra Prezident İlham Əliyev medalları təqdim etdi.

Daha sonra Şirinov qardaşları hadisə barədə danışdılar.

**Umud ŞİRİNOV** dedi:

- Biz işdən qayıdırdıq, yolda yük maşınının qoşqusu aşmışdı, amma elə bildik ki, yolu tutmayıb. Yaxınlaşanda gördük ki, artıq gecdir, yol təmiz tutulmuşdu. Biz birtəhər keçdik, az qala özümüz də qəzaya düşmüşdük. Biz yanan "KİA" maşınını görməmişdik. Biz avtomobilimizi saxlayıb buraya yığılmış adamlara iradımızı bildirdik ki, niyə xəbərdaredici nişan qoymamısınız. Heç yarım dəqiqə keçməmişdi ki, mən uşaq səsi eşitdim. Yolun kənarı çox çökəklik idi, görünmürdü. Uşaq səsi eşidəndə baxıb gördüm ki, bir maşın yanır, səs də oradan gəlir. Artıq salon təmiz yanmışdı. Dedim bəs niyə dayanmısınız? Dedilər ki, qapıları aça bilmədik, maşına baxdıq, qazla işləyir, qaz balonu var, partlaya bilər, cəhd edə bilmədik, məsləhət görmürük. Biz də qapını aça bilmədik, sonradan sürücü özü bizə dedi ki, uşağa görə qapıların mərkəzi qıfılını bağlayıbmış. Biz maşının qapılarını heç cür aça bilmədik. Gördük maşın təmiz yanır. Uşağın atası və anası yıxılı vəziyyətdə idi. Üçyaşlı uşaq qışqırırdı. Biz avtomobilin yük yerinin qapısını qırdıq, uşağı və anasını çıxardıq. Biz tələsir, ehtiyat edirdik ki, qaz balonu partlaya bilər. Mən uşağı çıxaranda kömək istədim. Yolda 25-30 nəfər dayanmışdı. Kömək istədim, heç kim yaxın durmadı. Mən qardaşıma dedim ki, bizim də övladımız var, indicə balon partlayacaq. Alovun ona çatmasına bir qarış qalıb. Sürücü komada idi, tərpənmirdi, oturacaqların arasında sıxılmış vəziyyətdə qalmışdı. Biz oturacaqları qırdıq. Sağ olsun qardaşım, dedi ki, gəl risk edək, onu da çıxaraq. Qadın yalvarırdı ki, ərini də çıxaraq. Uşaq da deyirdi ki, xahiş edirəm atamı da xilas edin. Artıq biz özümüz haqqında düşünmürdük, həyatımızı riskə qoyub kişini də çıxardıq. Bundan dəqiqə yarım sonra qaz balonu partladı.

Prezident **İlham ƏLİYEV:** Siz doğrudan da qəhrəmanlıq göstərmisiniz. Mən bunu eşidəndə dedim ki, mütləq sizi dəvət etsinlər, görüşək, mən sizi "İgidliyə görə" medalı ilə təltif edim.

**ŞİRİNOV** qardaşları: Çox sağ olun, cənab Prezident.

Prezident **İlham ƏLİYEV:** Sizin kimi gənclər bizim fəxrimizdir.

**ŞİRİNOV** qardaşları: Siz də bizim fəxrimizsiniz.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

## S.A.Şirinovun və U.A.Şirinovun "İgidliyə görə" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Həyatları təhlükəyə məruz qalmış insanların xilası zamanı göstərdikləri şəxsi şücaətə görə Sabir Adil oğlu Şirinov və Umud Adil oğlu Şirinov "İgidliyə görə" medalı ilə təltif edilsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2019-cu il*

## 2019-cu il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mədəniyyət, elm, təhsil və ictimai fəaliyyət sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2019-cu il Gənclər üçün Prezident mükafatları verilsin:

Hacızadə Hüseynxan Saleh oğlu
Həsənov Masər Fuad oğlu
Rəcəbli Sara Rauf qızı
Mehmandarov Mustafa Adil oğlu
Mirzəmmədova Nigar Mübariz qızı
Şahverənov Allahverdi Umud oğlu

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2019-cu il*

## Gənclər siyasəti sahəsində fəallığı ilə fərqlənən şəxslərin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə və dövlət gənclər siyasətinin həyata keçirilməsində, gənclər hərəkatının formalaşmasında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Cabbarov Azad Vaqif oğlu

**"Tərəqqi" medalı ilə**

Əsgərli Asif Məmməd oğlu
Qədirov Vüqar Kərim oğlu
Orucov İlqar Nəcibəddin oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

İskəndərov Vüqar Yapon oğlu
Quliyev Rüfət Mətləb oğlu
Nəcəfli Kamal Məmməd oğlu

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2019-cu il*

# Qaraçay-Çərkəz Respublikası ilə sıx əməkdaşlıq Azərbaycan-Rusiya münasibətlərinin inkişafına töhfədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, iki ölkə prezidentləri arasında yüksək səviyyədə qarşılıqlı etimadın mövcud olduğunu bildirdi və bunun əlaqələrimizin genişlənməsində xüsusi rol oynadığını dedi. Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycan Respublikasının Rusiya Federasiyasının ayrı-ayrı regionları, o cümlədən ümumi tarixi-mədəni dəyərlərə mailik olduğumuz Şimali Qafqaz regionu və eləcə də Qaraçay-Çərkəz Respublikası ilə sıx əməkdaşlığının həyata keçirilməsinin Azərbaycan-Rusiya münasibətlərinin inkişafına töhfə verdiyini dedi. Dövlət başçısı Azərbaycan ilə Rusiyanın müxtəlif regionları arasında əlaqələrin uğurlu inkişafında ötən il iki ölkə prezidentlərinin iştirakı ilə Bakıda keçirilən IX Azərbaycan-Rusiya Regionlararası Forumunun önəmini qeyd etdi. Prezident İlham Əliyev Raşid Temrezovun ölkəmizə səfərinin səmərəli və uğurlu keçəcəyinə əminliyi ifadə etdi.

Azərbaycan Prezidenti ilə görüşdən böyük məmnunluq duyduqlarını deyən Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezov Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin inkişafında regionlararası qarşılıqlı fəaliyyətin rolunu qeyd edərək, bu gün Bakıda biznes nümayəndələri arasında keçiriləcək görüşün əhəmiyyətini vurğuladı. O bildirdi ki, Rusiyanın Qaraçay-Çərkəz regionu ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın həyata keçirilməsi üçün qarşılıqlı maraq mövcuddur və bunun üçün yaxşı imkanlar var. Raşid Temrezov mədəni və humanitar əlaqələrin də yüksək səviyyədə olduğunu bildirərək, bunun münasibətlərimizin inkişafına öz töhfəsini verdiyini vurğuladı.

## Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun tikintisi və avadanlıqlarla təchizatına dair tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun tikintisi və avadanlıqlarla təchizatı məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.12.23-cü yarımbəndində göstərilmiş məbləğin 14 245 000 (on dörd milyon iki yüz qırx beş min) manatı Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

## "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 788; 2013, № 7, maddə 776; 2014, № 7, maddə 778, № 12, maddə 1523; 2016, № 2, I kitab, maddə 185, № 3, maddə 414; 2017, № 2, maddə 149, № 7, maddə 1287) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 30.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"30.6. Təqvim haqları sığortaçının Büronun iştirakçı sığortaçılarının reyestrinə daxil edildiyi gündən başlayaraq, daxil olan sığorta haqlarının avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığorta müqavilələri üzrə 10 faizi, digər icbari sığorta müqavilələri üzrə isə 5 faizi həcmində ödənilir.";

1.2. aşağıdakı məzmunda 30.7-ci maddə əlavə edilsin:

"30.7. Büronun hesabına köçürülmüş avtonəqliyyat vasitəsi sahiblərinin icbari sığorta müqavilələri üzrə təqvim haqlarının 50 faizi "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən yaradılan icbari tibbi sığorta fonduna ödənilir.".

**Maddə 2.** Bu qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 dekabr 2018-ci il*

## "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1442-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1442-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2019-cu il*

## "Sahibkarlıq fəaliyyəti haqqında" və "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin 1-ci hissəsinin 10-cu və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

1. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 1013; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 1, maddə 6, № 3, maddə 226, № 4, maddə 280; 2000, № 7, maddə 489; 2001, № 11, maddə 686, № 12, maddə 736; 2002, № 5, maddələr 241, 248; 2003, № 1, maddələr 1, 16, № 12 (I kitab), maddə 673; 2006, № 8, maddə 657; 2007, № 8, maddə 745, № 10, maddə 938; 2008, № 2, maddə 49, № 5, maddə 348; 2010, № 4, maddə 276; 2013, № 11, maddə 1283; 2014, № 4, maddə 333, № 10, maddə 1156; 2016, № 12, maddə 2014; 2017, № 6, maddə 1057; 2018, № 2, maddə 156) 9-cu maddəsinin 3-cü hissəsində "inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması sahəsində tədbirlərdə iştirak etmək, onlara" sözləri "inkişafına" sözü ilə, "müvafiq icra hakimiyyəti orqanının nəzdində Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

2. "Çayçılıq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 881; 2007, № 12, maddə 1218; 2016, № 7, maddə 1242; 2017, № 1, maddə 7, № 5, maddə 715, № 12, maddə 2209) 9.1-ci maddəsində "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2018-ci il*

## "Sahibkarlıq fəaliyyəti haqqında" və "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1388-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Sahibkarlıq fəaliyyəti haqqında" və "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1388-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Sahibkarlıq fəaliyyəti haqqında" və "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin 3-cü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir, həmin hissədə "orqan (qurum)" dedikdə isə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu nəzərdə tutulur;

2.2. "Çayçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 9.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir, həmin maddədə "orqan (qurum)" dedikdə isə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Sahibkarlıq fəaliyyəti haqqında" və "Çayçılıq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 yanvar 2019-cu il*

# Təhsil naziri gənc müəllimlərlə görüşüb



Fevralın 1-də "Muğam Klub"da Azərbaycan Gəncləri Günü münasibətilə bir qrup gənc müəllimlə görüş keçirilib.

Əvvəlcə tədbir iştirakçıları "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğuna ekskursiya ediblər.

AZƏRTAC xəbər verir ki, görüşdə təhsil naziri Ceyhun Bayramov ümummilli lider Heydər Əliyevin təhsilə daim böyük önəm verdiyini, ulu öndərin ideyalarının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qətiyyətlə həyata keçirildiyini bildirib.

Prezident İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əhəmiyyətini qeyd edən nazir bu sənədə uyğun olaraq həyata keçirilən tədbirlərdən və qazanılan uğurlardan danışıb.

C.Bayramov gənclər siyasətinin dövlətin əsas prioritetlərindən biri olduğunu, bu istiqamətdə Prezident İlham Əliyev tərəfindən çoxlu sayda sərəncamlar imzalandığını, layihələr reallaşdırıldığını vurğulayıb. Son illər müəllimlərin stimullaşdırılması, peşəkarlığının artırılması və müəllim nüfuzunun yüksəldilməsinə xüsusi diqqət göstərildiyini bildirən C.Bayramov ötən il işə qəbul olunan 4 min 100 nəfərə yaxın müəllimin 2 min 724 nəfərinə həvəsləndirmə tədbirləri tətbiq edildiyini deyib. Qeyd edilib ki, ümumilikdə müəllimlərin işə qəbulu üzrə müsabiqənin şəffaf keçirilməsi nəticəsində son 5 ildə 18 min 136 müəllim işə qəbul olunub. Onlardan kənd məktəblərində fəaliyyətə başlamış 11 min 600 nəfərə (64 faiz) həvəsləndirmə tədbirləri tətbiq edilib.

Nazir bildirib ki, hazırda ölkə üzrə müəllimlərin sayı 144 min 414 nəfər təşkil edir. Onlardan 35 yaşa qədər olan müəllimlərin sayı 39 min 179 nəfərdir ki, bu da müəllimlərin 27 faizi deməkdir. Həmin müəllimlərdən 6 min 99-u Bakı şəhərinin payına düşür.

Ötən illərlə müqayisədə müəllim işləmək arzusunda olanların sayında üç dəfə artım müşahidə edildiyini söyləyən nazir deyib ki, 2014-cü ildə 500 və daha artıq bal toplayan 922 nəfər müəllimlik ixtisasını seçmişdisə, 2017-ci ildə bu rəqəm 1370 nəfər olub. Ötən il keçirilən qəbul imtahanlarında 500 və daha artıq bal toplayan məzunlar arasında müəllimlik ixtisasını 2090 nəfər seçib. Bu göstərici 2014-2015-ci tədris ilinə nisbətən 2,3, ötən ilə nisbətən isə 1,5 dəfə artım deməkdir.

C.Bayramov şagirdlərin milli dəyərlər əsasında formalaşmasında hər bir müəllimin üzərinə düşən vəzifələrdən bəhs edib. Nazir müəllimləri Gənclər Günü münasibətilə təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdə gənc müəllimlərdən Kürdəmir rayonu Qabil Hüseynov adına Bağman kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyatı müəllimi Xalid Bayramov və Hacıqabul rayonu Talış kənd məktəbinin ibtidai sinif müəllimi Səbinə Əhmədova çıxış edərək öz fəaliyyətləri haqqında danışıb və onlara göstərilən diqqətə görə təşəkkürlərini bildiriblər.

# Gənclər Günü ilə əlaqədar ulu öndər Heydər Əliyevin məzarı və Şəhidlər xiyabanı ziyarət edilib

Hər il fevralın 2-si ölkəmizdə Azərbaycan Gəncləri Günü kimi geniş qeyd olunur.

AZƏRTAC xəbər verir ki, bu münasibətlə Gənclər və İdman Nazirliyinin kollektivi və gənclər təşkilatlarının nümayəndələri Fəxri xiyabana gələrək, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ümummilli lider Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla yad olunub, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn gənclər ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, məzarları üzərinə gül dəstələri qoyublar.

Azərbaycan gənclər və idman naziri Azad Rəhimov jurnalistlərə müsahibəsində bildirib ki, bu gün Azərbaycan gəncliyinin bayramıdır. 1993-cü ilin sentyabrında ulu öndər Heydər Əliyevin Ali Sovetdə ilk görüşü məhz gənclərlə keçirilib. 1994-cü ildə isə Gənclər və İdman Nazirliyi təsis olunub. Bu, Azərbaycanda dövlət gənclər siyasətinin başlanğıcı idi. 1997-ci ildə ölkəmizdə gənclərlə bağlı qanun qəbul olunub. 2005-ci ildən Azərbaycanda gənclər sahəsində üç dövlət proqramı qəbul edilib. Bu il həm də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasının 25 illiyi tamam olacaq.

Nazir Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Azərbaycan Gəncləri Gününə həsr edilmiş respublika toplantısında iştirakını, dövlət başçısının fəal gəncləri təltif etməsinin onlara göstərilən yüksək diqqət və qayğının göstəricisi olduğunu bildirib. A.Rəhimov vurğulayıb ki, bu gün Azərbaycan gəncləri Prezident İlham Əliyevin ətrafında sıx birləşiblər. Gənclərimiz Azərbaycanın firavan gələcəyinə inanırlar.

# XİN: Paşinyan anlamalıdır ki, münaqişənin həlli Ermənistanın müstəqilliyinə təkan verəcək

Ermənistanın baş naziri Nikol Paşinyan Almaniyaya səfəri çərçivəsində bir neçə bəyanatla çıxış edərək, "Azərbaycan tərəfinin güzəştləri: münaqişənin həllinin Dağlıq Qarabağ və Ermənistan xalqları üçün məqbul olması" kimi fikirlər səsləndirib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva məsələyə münasibət bildirib. O deyib: "İlk növbədə, xatırlatmaq istərdim ki, münaqişə nəticəsində məhz Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonu işğal olunub və onun bir milyona yaxın əhalisi etnik təmizləməyə məruz qalaraq məcburi köçkünə çevrilib. Münaqişənin həlli ilə bağlı qəbul olunan beynəlxalq qətnamə və sənədlər, ilk növbədə, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi işğalçı erməni qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Münaqişənin həlli ilə bağlı qəbul olunan bütün sənədlərdə və ATƏT-in Minsk qrupunun həmsədrlərinin təkliflərində söhbət "xalq" yox, erməni və azərbaycanlı əsilli iki əhalidən gedir. Ermənistanın baş naziri kimi Nikol Paşinyan anlamalıdır ki, münaqişənin həlli Ermənistanın müstəqilliyinə təkan verəcək və ilk növbədə Ermənistan əhalisi üçün böyük iqtisadi imkanlar açacaq, yeni siyasi vəziyyət yaradacaq".

# ADA Universitetində Rumıniyanın Avropa İttifaqı Şurasında sədrliyinə həsr olunan tədbir keçirilib



Fevralın 1-də ADA Universitetində Rumıniyanın Avropa İttifaqı Şurasında sədrliyinə həsr olunan "Avropaya yanaşarkən: Milli gündəmlər və ümumi hədəflər" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev bildirib ki, Avropa İttifaqı ilə əlaqələrdə Avropanın enerji təhlükəsizliyinin təmin olunması məsələsi mühüm yer tutur. Azərbaycan TANAP, TAP kimi irimiqyaslı enerji layihələrini həyata keçirir. 2020-ci ildə təbii qazımız İtaliyaya çatdırılacaq. Bizim layihələr dünyanın enerji xəritəsini dəyişdirəcək. Azərbaycan Avropanı Asiya ilə bağlayacaq bir sıra böyük nəqliyyat-logistika layihələrinin təşəbbüskarı və iştirakçısı kimi də çıxış edir.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas iki tərəf arasında yeni sazişə dair danışıqların növbəti mərhələsinin fevralın ortalarında keçiriləcəyini deyib.

ADA Universitetinin prorektoru Fariz İsmayılzadə və Rumıniyanın Azərbaycandakı səfiri Dan Yanki əməkdaşlığın intensivləşdirilməsinin əhəmiyyətindən danışıblar.





# Uşaqların mənəvi-fiziki təkmilləşməsi prosesinə mühüm dövlət dəstəyi

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevralın 1-də Daxili İşlər Nazirliyinin Bakı şəhərinin Xətai rayonunda yeni inşa olunmuş 6 saylı uşaq bağçasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdi.

Daxili işlər naziri Ramil Usubov məktəbəqədər təhsil ocağında yaradılan şəraitlə tanış olan Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verdi ki, 6 saylı uşaq bağçasının inşasına 2017-ci ilin dekabrında başlanılıb. Əsasən əlahiddə çevik polis alayında çalışanların övladları üçün nəzərdə tutulan məktəbəqədər təhsil müəssisəsində 4-ü Azərbaycandilli, 3-ü isə rusdilli bölmə olmaqla 7 qrup fəaliyyət göstərəcək. Burada balacalara ingilis dili də öyrədiləcək. Uşaq bağçasında bir yaş yarımdan beş yaşadək 140 uşağın təlim-tərbiyəsi ilə 46 nəfərdən ibarət peşəkar heyət məşğul olacaq. Şahmat, rəsm dərnəklərinin də fəaliyyət göstərəcəyi ikimərtəbəli məktəbəqədər təhsil müəssisəsinin otaqları və dəhlizləri uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib, qrup otaqları zəruri inventarlarla, mebel dəstləri ilə təchiz edilib. Bir sözlə, uşaq bağçasının əsas binasının planlaşdırma quruluşu uşaqlarla aparılan təlim-tərbiyə işlərinin məzmununa uyğun həll olunub.

Binada təhlükəsizlik məsələləri də ən yüksək səviyyədə həll edilib. Belə ki, videomüşahidə, yanğınxəbərverici, həmçinin qeydiyyata giriş-çıxış sistemləri quraşdırılıb. Uşaq bağçasında akt və idman zalları, geniş yeməkxana da tikilib. Bağça azyaşlı sakinlərin zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin edəcək.

Gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili, onların sağlamlığının qorunması və vətənpərvər, savadlı şəxsiyyət kimi yetişməsi istiqamətində Azərbaycan dövləti çox mühüm layihələr həyata keçirir. Ölkəmizdə məktəbəqədər tərbiyə müəssisələri yenidən qurulur, müasir uşaq müəssisələrinin inşası davam edir. Bu gün uşaq bağçalarında yaradılan şərait uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmağa imkan verir, həmçinin onların bilikli və zəngin dünyagörüşünə malik bir vətəndaş kimi böyüməsində əhəmiyyətli rol oynayır.

Altı saylı uşaq bağçasının yerləşdiyi ərazidə və ətrafda genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, müxtəlif çiçək və gül kolları, ağaclar əkilib, işıqlandırılma işləri yerinə yetirilib. Burada balacaların istirahəti üçün oyun və idman avadanlığı quraşdırılıb. Bir sözlə, müəssisədə balacaların vaxtlarını maraqlı və səmərəli keçirmələri üçün hərtərəfli imkanlar yaradılıb.

Yeni inşa edilən bağça ilə tanış olan Birinci vitse-prezident Mehriban Əliyeva məktəbəqədər təhsil müəssisəsinin işinə uğurlar arzuladı.

Birinci vitse-prezident Mehriban Əliyeva uşaqlarla xatirə şəkli çəkdirdi.








# Azərbaycan Rusiyanın Şimali Qafqaz regionunda əsas investorlarındandır

Fevralın 1-də iqtisadiyyat naziri Şahin Mustafayev ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Ş.Mustafayev Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi, birgə səyləri nəticəsində ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, dövlət başçılarının qarşılıqlı səfərlərinin və müntəzəm görüşlərin dövlətlərarası münasibətlərə yüksək dinamizm gətirdiyini vurğulayıb. Bildirib ki, təkcə ötən il Prezident İlham Əliyev Rusiyaya 3 dəfə səfər edib, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana rəsmi səfəri çərçivəsində Bakıda IX Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib, iqtisadiyyatın bir sıra sahələrində iki ölkənin əməkdaşlığına dair "dəyirmi masa"lar təşkil olunub.

Nazir Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkə iqtisadiyyatının inkişafı üçün həyata keçirilən tədbirlər, aparılan iqtisadi islahatlar, onların uğurlu nəticələri barədə məlumat verib. O, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla icra olunduğunu və bu proqramlar çərçivəsində görülən işlərin iqtisadiyyatın inkişafında əhəmiyyətini vurğulayıb. Bildirib ki, sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, biznesə yeni dəstək mexanizmlərinin yaradılması və digər istiqamətlərdə mühüm tədbirlər həyata keçirilir. Sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə kreditləşdirilməsi, sənaye parkları və məhəllələrinin, aqroparkların yaradılması, investisiyaların və ixracın təşviqi mexanizminin tətbiqi və digər tədbirlər sahibkarlığın davamlı inkişafının təmin olunmasında mühüm önəm kəsb edir.

"Təsadüfi deyildir ki, Dünya Bankının dərc etdiyi "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi əvvəlki illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci



yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla MDB ölkələri arasında lider mövqeyə yüksəlib", - deyə Ş.Mustafayev bildirib.

Görüşdə vurğulanıb ki, Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və iki ölkə arasında ticarət dövriyyəsinin həcmində müsbət artım dinamikası müşahidə edilir. Ötən il Azərbaycanla Rusiya arasında ticarət dövriyyəsi 20 faiz artıb. Rusiya qeyri-neft məhsullarımızın ixracı üzrə isə birinci yerdədir. Azərbaycanda təqribən 700-dən çox Rusiya kapitallı şirkət fəaliyyət göstərir. Ölkələrimiz arasında uğurlu investisiya əməkdaşlığı həyata keçirilir. Rusiya şirkətləri Azərbaycan iqtisadiyyatına 4 milyard dollardan çox sərmayə yatırıb. Azərbaycanın Rusiya iqtisadiyyatına investisiyası 1 milyard dollardan çoxdur. Azərbaycan-Rusiya birgə müəssisəsi olan "R-Pharm" MMC-nin yaradılması uğurlu əməkdaşlığın nümunəsidir.

Nazir qeyd edib ki, Azərbaycan Rusiyanın federal subyektləri ilə sıx əməkdaşlıq edir və Rusiyanın Şimali Qafqaz regionunda əsas investorlardandır. Azərbaycan şirkətləri bu regionda bir sıra mühüm layihələrə investisiya yatırırlar.

Ş.Mustafayev ölkəmizdə infrastrukturun inkişafı istiqamətində görülən işləri vurğulayıb, nəqliyyat-tranzit əməkdaşlığının genişləndirilməsində "Şimal-Cənub Beynəlxalq nəqliyyat dəhlizi"nin və Samur çayı üzərində tikilən avtomobil körpüsünün əhəmiyyətini, hazırda tikilməkdə olan Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun bu sahədə rolunu qeyd edib.

Nazir Azərbaycan və Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikası arasında sənaye, kənd təsərrüfatı, investisiyalar, turizm və digər istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi üçün potensialı diqqətə çatdırıb.

Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezov ölkəmizə səfərindən məmnunluğunu ifadə edib, indiyədək bir neçə dəfə Azərbaycanda olduğunu, ölkəmizin sürətli inkişafını vurğulayaraq hər dəfə tamamilə yeni mənzərə ilə qarşılaşdığını bildirib.

O, Azərbaycanın Rusiya və onun federal subyektləri ilə əməkdaşlığının uğurla inkişaf etdiyini, bu sahədə işgüzar dairələrin iştirakı ilə keçirilən tədbirlərin əhəmiyyətini qeyd edib. R.Temrezov iqtisadiyyatın bir sıra sahələrində əlaqələrin genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması üçün potensialı diqqətə çatdırıb.

Görüşdə Azərbaycan və Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikası arasında iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi istiqamətləri, sənaye, kənd təsərrüfatı, investisiya, ticarət, turizm və sair sahələrdə əməkdaşlığın inkişafı məsələləri müzakirə edilib.

Azərbaycana səfəri çərçivəsində Qaraçay-Çərkəz Respublikasının nümayəndə heyəti Balaxanı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu, Balaxanı Sənaye Parkı, Böyükşor gölünün ekoloji yaxşılaşdırılması işləri ilə və "GreenTech" tərəvəz məhsullarının istehsalı müəssisəsi ilə tanış olublar.

# Rusiyanın Qaraçay-Çərkəz Respublikasının başçısı Azərbaycandakı multikultural mühit barədə məlumatlandırılıb

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə fevralın 1-də Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezov ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş zamanı QMİ sədri bu yaxınlarda Rusiya Federasiyası Şimali Osetiya-Alaniya Respublikasının paytaxtı Vladiqafqaz şəhərinə etdiyi səfərdən danışıb. Qeyd edib ki, bu səfəri zamanı açılışında iştirak etdiyi Muxtarov məscidi Qafqaz Xalqları Ali Dini Şurası üzvlərinin dövlətimizin başçısına müraciətinə Prezident İlham Əliyevin xüsusi diqqəti sayəsində bərpa olunub. A.Paşazadə bunun Azərbaycan Prezidentinin nəinki ölkəmizdə, eləcə də bütün regionda dinə və dindarlara göstərdiyi qayğının göstəricisi olduğunu vurğulayıb.



Qonağa ölkəmizdəki tolerant mühit barədə məlumat verən QMİ sədri Azərbaycanın çoxmillətli və çoxdinli bir ölkə olduğunu, dövlətimizin milli siyasətinin müxtəlif millətlərin, etnik qrupların, dini azlıqların birgə yanaşı yaşaması, dözümlülük prinsipləri əsasında müəyyənləşdirildiyini söyləyib. O, Azərbaycanda tarixən heç vaxt milli və dini zəmində ayrı-seçkilik, qarşıdurma baş vermədiyini, qarşılıqlı etimada, hörmətə əsaslanan mütərəqqi milli-mədəni, həmçinin dini münasibətlər mövcud olduğunu qeyd edib.

Raşid Temrezov Azərbaycandakı tolerant mühiti yüksək dəyərləndirdiyini bildirib. O, xalqlarımız arasında əlaqələrin tarixinə toxunub. Belə yüksək səviyyəli qarşılıqlı əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Görüşdə iştirak edən iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkə iqtisadiyyatının inkişafı istiqamətində həyata keçirilən tədbirlər, aparılan iqtisadi islahatlar, onların uğurlu nəticələri barədə məlumat verib. Bildirib ki, ölkəmizdəki ictimai-siyasi sabitlik iqtisadi sahəyə də müsbət təsir göstərir.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu ölkələrimiz arasındakı yüksək səviyyəli münasibətlərdən danışıb.

# Bölgələrdə hərbi obyektlərin inşası davam etdirilir

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarına əsasən hərbi hissələrdə şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhəboyu zonada olan nazirliyin rəhbər heyəti yeni inşa edilməkdə olan bir neçə hərbi obyektlərdə tikinti işlərinin gedişini yoxlayıb.

Nazir general-polkovnik Zakir Həsənov hərbi obyektlərdə aparılan tikinti işlərinin gedişi ilə maraqlanıb, işlərin vaxtında və keyfiyyətlə yekunlaşdırılması ilə bağlı cavabdeh vəzifəli şəxslərə müvafiq göstərişlər verib.

# Milli Məclisin yaz sessiyası başladı

## Oqtay ƏSƏDOV: “Prezident İlham Əliyevin siyasətinə hər zaman dəstək verən parlament yaz sessiyası dövründə də bu istiqamətdəki fəaliyyətini gücləndirəcək”

Dünən Milli Məclisin yaz sessiyası öz işinə başladı. Dövlət himni səsləndirildikdən sonra parlament Sədri Oqtay Əsədov bildirdi ki, Milli Məclisin qanunvericilik fəaliyyəti bu sessiyada da səmərəli olacaq. Parlamentin hər zaman Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil siyasətə dəstək verdiyini söyləyən spiker Milli Məclisin yaz sessiyası dövründə də bu istiqamətdə fəaliyyətini daha da gücləndirəcəyini vurğuladı.

Oqtay Əsədov onu da əlavə etdi ki, sessiya müddətində Nazirlər Kabinetinin, insan hüquqları üzrə müvəkkilin hesabatları dinləniləcək, 2018-ci ilin dövlət büdcəsinin icrası haqqında qanun layihəsi müzakirəyə çıxarılacaq.

### İntizam komissiyasının üzvlərinin sayı 7-dən 11-ə çatdırıldı

İlk iclasın gündəliyinə müzakirə olunması üçün 38 məsələ daxil edilmişdi. Deputatlar ilk olaraq Milli Məclisin İntizam və Hesablayıcı komissiyalarının yenidən təşkil edilməsi haqqında sənədləri təsdiqlədilər.

İntizam komissiyasının tərkibinə Ağacan Abıyev, Məlahət İbrahimqızı, Xanlar Fətiyev, Mirkazım Kazımov, Səttar Möhbalıyev, Fazil Mustafa ilə yanaşı, yeni üzvlər - Malik Həsənov, Sevinc Hüseynova, Hikmət Məmmədov, Pərvin Kazımzadə, Fəzail İbrahimli də daxil edilib.

Xatırladaq ki, qanunvericiliyə edilən dəyişikliyə əsasən, İntizam komissiyasının üzvlərinin sayı 7-dən 11-ə artırılıb.

Qanunverici orqanın Hesablayıcı komissiyasının tərkibi isə dəyişməyib. Komissiyanın sədri deputat Fəttah Heydərov, üzvləri isə Qüdrət Həsənquliyev, Xanhüseyn Kazımlı, Rafael Hüseynov, Zahid Oruc, Mixail Zabelin və Sədaqət Vəliyevadır.

### Biz də Gürcüstanda heykəl ucaldacağıq

İclasda Milli Məclisin 2019-cu il yaz sessiyasının qanunvericilik işləri planı ətrafında müzakirələr başlandı. Deputatlar çıxış edərək müxtəlif təkliflər səsləndirdilər.

Mətbuat Şurasının sədri, Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əflatun Amaşov və həmkarı Fazil Mustafa çıxış edərək Azərbaycan torpaqlarının işğalında iştirak etmiş cinayətkar erməni terrorçu Mixail Avakyana Gürcüstanda abidə ucaldılmasına ciddi etirazlarını bildirdilər. Qeyd edildi ki, Azərbaycanla Gürcüstanın yüksək qonşuluq əlaqələri olsa da, buna qarşı hələ də fəaliyyət göstərən qüvvələr var.

Fazil Mustafa isə təklif etdi ki, Gürcüstanda Əhməd bəy Ağaoğluna heykəl ucaldılsın: “Bu il Ağaoğlunun 150 illik yubileyi tamam olur. Hesab edirəm ki, bu heykəl Gürcüstanda azərbaycanlılar yaşayan bölgədə ucaldılmalıdır. Bu, elə bizim Gürcüstandakı indiki situasiyaya, yəni erməni terrorçusuna qarşı heykəl ucaldılması məsələsinə ən böyük etirazımız olardı. Bu məsələdə ümumi sözlərlə kifayətlənmək olmaz”.

Milli Məclisin Sədri Oqtay Əsədov isə dedi ki, bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyi bəyanat verib. Azərbaycanın Gürcüstandakı səfiri Gürcüstanın Xarici İşlər Nazirliyində olub və bu məsələlər üzrə iş gedir: “Güman edirəm ki, Gürcüstan hökuməti bu məsələyə diqqət yetirərək Azərbaycanın mövqeyini nəzərə alacaq və məsələ həllini tapacaq”.

Spiker bildirdi ki, həmin abidəni erməni hökuməti deyil, orada yaşayanlar qoyub: “Gürcüstanın Marneuli rayonunda da azərbaycanlılar heykəl ucaldacaqlar”.

Deputatlardan Vahid Əhmədov, Fərəc Quliyev, Əli Məsimli, Sahib Alıyev, Zahid Oruc, Elmira Axundova, Jalə Əliyeva, Fəzail Ağamalı, Azay Quliyev, İqbal Məmmədov çıxış edərək müxtəlif təkliflər səsləndirdilər.

### “Siyasi partiyalar haqqında” qanun yenidən hazırlansın

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov isə “Siyasi partiyalar haqqında” qanuna dəyişiklik edilməsini vacib bildi. Komitə sədri hesab edir ki, hətta bununla bağlı yeni qanun layihəsinin hazırlanmasına ehtiyac var. Həmçinin dünyada olduğu kimi, Azərbaycanda da siyasi partiyaların maliyyə mənbəyi ilə bağlı qərar qəbul olunmalıdır: “Bir qrup partiya Mərkəzi Seçki Komissiyasına hesabat verməyərək bu prosesdən yayınır. Onlar bununla maliyyə dövriyyəsinin olmadığını bildirirlər. Lakin əksəriyyəti yanlarında cangüdən, köməkçi gəzdirirlər. Bu azmış kimi, qara pullar hesabına Azərbaycanda mitinq, yürüş, qarşıdurma yaratmağa cəhd edirlər. Maliyyə mənbəyinin qarşısı bağlanmasa, onlar əməllərindən əl çəkməyəcəklər. Çünki pul verənlər tapşırıqlarını həmin şəxslər vasitəsilə həyata keçirirlər”.

### Asayişi pozmağa cəhd göstərənlər üçün xalq, vətən anlayışı yoxdur

Komitə sədri dedi ki, Azərbaycanda asayişi pozmağa cəhd göstərənlər üçün xalq, vətən anlayışı yoxdur: “Onlar üçün yalnız maddiyyat anlayışı var. Xaricdə oturub erməndən pul alanların məqsədləri daxildə qarşıdurma yaratmaq istəyənlərlə eynidir. Hesab edirəm ki, hər birimiz onlara qarşı mübarizə aparmalıyıq. Bəzən həmin şəxslər Milli Məclis haqqında mənfi fikirlər söyləyirlər. Amma nədənsə deputatlarımız yaxasını kənara çəkirlər. Hər kəs bilməlidir ki, deyilən sözlər bütün deputatlara şamil olunur. Əgər onlar birini deyirsə, biz onlara qarşı 20 dəfə daha artıq söz deməliyik”.

Siyavuş Novruzovun sözlərinə görə, xaricdən Azərbaycana qarşı yönəldilən şəxslər nəyisə dəyişmək qabiliyyətində deyillər: “Onlar yalnız söyüş söyməyi bacarırlar. Əgər belədirsə, biz də onlara cavab verməliyik. Hətta söyüşü də başqalarının adlarından yazır, mənəvi terror həyata keçirməyə cəhd edirlər. Təbii ki, bu, onların özlərinin deyil, xaricdəki qüvvələrin məhsuludur. Bu adamlar anlamırlar ki, biz illərdir siyasətlə məşğuluq və onların taktikasını, mexanizmini yaxşı bilirik. Bu yolla bizi fəaliyyətimizdən döndərmək mümkün deyil. Ölkə iqtisadiyyatı inkişaf etdikcə bizi sevməyən qüvvələrin halı daha da pisləşir. Mən inanmıram ki, dövlət nümayəndəsi və strukturlarından həmin şəxslərə hər hansı informasiya ötürülür. Bu cür informasiyalar yaymaqla onlar qarşıdurma yaratmağa çalışırlar. Prezident İlham Əliyevin komandası birdir və Milli Məclis də hər zaman bu siyasətə dəstək verir. Bizi bu yoldan heç kim döndərə bilməz”.





### Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında

#### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin deputatları aşağıdakı komitələrin sədr müavinləri seçilsinlər:

| | |
|---|---|
| İbrahimqızı Məlahət İbrahim qızı | Hüquq siyasəti və dövlət quruculuğu komitəsi; |
| İsmayılov Şahin Əmir oğlu | Gənclər və idman komitəsi. |

***Oqtay ƏSƏDOV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

Deputat Zahid Oruc da müxalifətin son mitinqindən və şəhidlərin ruhuna edilən hörmətsizlikdən söz açaraq dedi ki, Şəhidlər xiyabanını aksiya məkanına çevirmək olmaz. Çünki Şəhidlər xiyabanı millətin qürur, and və sükut yeridir: “Həmin məkanı heç bir halda aksiya məkanına çevirmək olmaz. Kimlərsə də bu müqəddəs məkanı aksiya yerinə çevirmək istəyirlərsə, çox böyük səhv edirlər. Onlara ən böyük cəzanı elə şəhidlərin ruhu verəcək”.

### Qanunun tətbiqində boşluqlar mövcuddur

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli də müzakirə olunan məsələyə toxunaraq dedi ki, internet resurslarında təhqirlərlə bağlı 2016-cı ildə Cinayət Məcəlləsinə 148-1-ci maddə əlavə edilib. Bu maddəyə görə cərimə və azadlıqdan məhrumetmə cəzası da var. Ancaq qanunun tətbiqində boşluqlar mövcuddur: “Radikal müxalifətin mitinq keçirmək məqsədi nə Məhəmməd Əmin Rəsulzadəni, nə də 20 Yanvar şəhidlərini anmaqdır. Onların məqsədi iğtişaş yaratmaq, ictimai-siyasi sabitliyi pozmaqdır. 2008-ci ildə “Sərbəst toplaşmaq haqqında” qanuna bununla bağlı dəyişiklik edilib və bu dəyişikliklər qanunsuz toplaşmaqla bağlı halların qarşısının alınmasına xidmət edir. Hüquq mühafizə orqanları asayişi pozmaq istəyənlərin qarşısını alır. Bundan başqa, 2016-cı ilin payız sessiyasında Cinayət Məcəlləsinin 148-1 maddəsinə edilən dəyişikliklərə əsasən, internetdə saxta profillərdən istifadə edənlər üçün cəza tədbirləri müəyyənləşib. Hətta burada saxta profil istifadəçilərinə qarşı azadlıqdan məhrumetmə cəzası da nəzərdə tutulub. Lakin təcrübə göstərir ki, edilən dəyişikliklərin tətbiqi ilə bağlı müəyyən boşluqlar var”.

### İnsan sosial şəbəkələri oxuyanda xəcalət çəkir

Komitə sədri ölkə Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələri ilə görüşünün xalqımız tərəfindən yüksək qarşılandığını da söylədi. Ancaq dağıdıcı müxalifət internetdə şəhid ailələrini təhqir edir, dövlət başçısı ilə görüşmələrinə görə onları qınayır: “Xalqımız bilməlidir ki, həmin şəxslər hakimiyyətə müxalif deyillər, onlar xalqa, Azərbaycan dövlətinə nifrətlə yanaşırlar. Əgər zamanında heç olmasa öz yaşadıqları ərazini qoruya bilsəydilər, bu qədər şəhid verməzdik. Naxçıvan blokadada olsa da, ulu öndər Heydər Əliyev oranı qorudu. Lakin bu insanlar heç öz kəndlərini belə qoruya bilmədilər.

Azərbaycanda bu qədər şəhid olmasının günahı 1992-ci ildə hakimiyyətdə olanlardır. Hesab edirəm ki, sosial şəbəkələrdə yayılan təhqirlə bağlı qanunvericilikdə heç bir problem yoxdur, sadəcə onun tətbiqi ilə bağlı işlər görmək lazımdır”.

Milli Məclisin Sədri Oqtay Əsədov isə vurğuladı ki, sosial şəbəkələrdə təhqirlərin aradan qaldırılması üçün tədbirlər görmək lazımdır: “İnsan sosial şəbəkələri oxuyanda xəcalət çəkir. Milli Məclisin, dövlət rəhbərliyinin ünvanına ağızlarına gələni yazırlar. Təhqirə yol verənlərin qarşısının alınmasını fikirləşməliyik. İnsanlar bilməlidirlər ki, mentalitet təhqirə yol vermir. Artıq hər şeydən keçiblər”.

Müzakirələrdən sonra Milli Məclisin 2019-cu il yaz sessiyasının qanunvericilik işləri planı təsdiqləndi.

### İki deputat komitə sədrinin müavini seçildi

İclasda Milli Məclis komitələrinin sədr müavinlərinin seçilməsi haqqında məsələ də müzakirəyə çıxarılaraq qəbul edildi.

Qeyd edək ki, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini vəzifəsinə Məlahət İbrahimqızının, Gənclər və idman komitəsinin sədr müavini vəzifəsinə Şahin İsmayılovun namizədliyi irəli sürülmüşdü. Deputatlar təklifə müsbət münasibət bildirdilər.

Milli Məclis “Türk Mədəniyyəti və İrsi Fondunun maliyyə qaydaları haqqında” sazişin təsdiq edilməsi barədə, “Azərbaycan Respublikası hökuməti ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında yerləşmə ölkəsi haqqında” sazişin təsdiq edilməsi barədə və “Türk Akademiyasının maliyyə qaydaları haqqında” sazişin təsdiq edilməsi barədə qanun layihələrini təsdiqlədi.

Həmçinin “Azərbaycan Respublikasının “Sərhəddə fərqlənməyə görə” medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında”, “Azərbaycan Respublikası Silahlı Qüvvələri Qarnizon və qarovul xidmətləri nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə”, “Dövlət əmlakının özəlləşdirilməsi haqqında”, “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Seçki Məcəlləsində, Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında qanun layihələrinə texniki düzəlişlər səsverməyə çıxarılaraq qəbul edildi.

Deputatlar “Büdcə sistemi haqqında”, “Dövlət borcu haqqında”, “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” və Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrinə də müsbət münasibət bildirdilər.

### Sürücülük vəsiqəsi yenilənir, amma dəyişmək məcburi olmayacaq

Günün ikinci yarısında öz işini davam etdirən Milli Məclisdə öncə “15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında” və “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihələri müzakirəyə çıxarıldı.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirdi ki, dəyişikliyə əsasən vətəndaşın qanuni nümayəndəsinin notariat qaydasında təsdiq olunmuş etibarnaməsi əsasında təyin edilmiş şəxsin də fərdi identifikasiya kartının alınması üçün müraciət hüququ təmin olunacaq. Hər iki sənəd səsverməyə çıxarılaraq qəbul edildi. Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə də dəyişikliklər təsdiqləndi.

Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verdi. Bildirdi ki, qanun layihəsi “gəminin üzgüçülüyə yararlığı haqqında şəhadətnaməsi”nin əsas gəmi sənədləri siyahısından çıxarılmasını və bununla bağlı dəyişiklikləri nəzərdə tutur. Sənəd səsverməyə çıxarılaraq qəbul edildi.

Həmçinin iclasda “Hərbi vəzifə və hərbi xidmət haqqında”, “Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə, “Qiymətli kağızlar bazarı haqqında”, “Patent haqqında”, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” və “İxrac nəzarəti haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri də təsdiqləndi.

İnzibati Xətalar Məcəlləsində və “Avtomobil nəqliyyatı haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi. Bildirdi ki, bu sənəd Azərbaycanda verilən sürücülük vəsiqələrinin xaricdə tanınmasına mane olan amili aradan qaldıracaq. Sürücülük vəsiqəsindəki məlumatlar ingilis dilində təkrarlanacaq.

Ancaq ölkədə bütün sürücülük vəsiqəsinin dəyişdirilməsinə ehtiyac olmayacaq. Dəyişiklik yalnız xarici ölkələrə mütəmadi olaraq avtomobillə yük daşıyan, səfər edən sürücülərə aiddir. Bu kateqoriyaya aid şəxslər sürücülük vəsiqələrini dəyişdirməlidirlər. Layihə səsverməyə çıxarılaraq qəbul olundu.

### Açıq məkanda reklam qurğuları ilə bağlı şərtlər dəyişir

Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə təklif olunan dəyişikliklər açıq məkanda reklam qurğularının tikintisinə, quraşdırılmasına və onlara konstruktiv dəyişikliklərin edilməsinə icazənin verilməsi prosedurunun sadələşdirilməsi məqsədilə təklif olunur. Belə ki, reklam yerləşdirilməsi üçün nəzərdə tutulan ərazi 60 kvadratmetrdən az olduqda, tikintiyə icazə sənədinin alınmasına ehtiyac olmayacaq. Sənəd səsverməyə çıxarılaraq qəbul edildi.

“Reklam haqqında” qanunda dəyişiklik edilməsi barədə layihə haqqında (birinci oxunuş) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verdi. Bildirdi ki, dəyişikliyə əsasən bundan sonra bayıra ünvanlanmaqla qapıların, pəncərələrin, vitrinlərin çöl və iç tərəfində yerləşdirilən reklamlar da açıq məkanda reklam hesab olunacaq. Obyektlərin adını göstərən reklam hesab olunmayan lövhələrin ölçüsünün 2 kvadratmetrdən 1 kvadratmetrədək azaldılması nəzərdə tutulur.

### KİV haqqında sənədə ciddi əlavələr edilməlidir

“Kitabxana işi haqqında” (birinci oxunuş), “Kütləvi informasiya vasitələri haqqında” və “Nəşriyyat işi haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinin müzakirəsi zamanı çıxış edən deputatlardan Aqil Abbas, Elmira Axundova ölkədə kitabxanaların sayının artırılmasının vacibliyini bildirdilər.

Parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov isə dedi ki, KİV haqqında sənədə daha geniş formatda baxılmalıdır. Komitə sədrinin fikrincə, KİV haqqında qanuna yeniliklər edilməlidir: “Hazırda çap mətbuatı ilə bağlı yeniliklər həyata keçirilir. Ancaq bəzi KİV-lər etik qaydaları ötüb keçib. Ona görə də bu sənədə qanunvericilik sərtləşdirilməlidir. Mətbuat Şurası yeni format müəyyənləşdirməlidir. Artıq insanlar çox kəskin şəkildə təhqir edilirlər. Bunun qarşısı mütləq alınmalıdır. Ulu öndər Heydər Əliyev senzuranı, qəzetlərin borclarını ləğv etdi. Prezident İlham Əliyev bu gün jurnalistlərə mənzil bağışlayır. Artıq mətbuat nümayəndələri üçün 3-cü bina tikilir. Bu dövlət hər zaman mətbuata yardımlar edib. Qəzetlər hər il yardım alırlar. Ancaq yenə də bu sahədə xoş olmayan vəziyyət var. Ona görə də bununla bağlı tədbir görülməlidir”.

Spiker Oqtay Əsədov isə dedi ki, bu məsələ Mətbuat Şurası ilə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin birgə səyi nəticəsində öz həllini tapmalıdır.

İclasda həmçinin “Milli arxiv fondu haqqında”, Əmək Məcəlləsində və Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), “Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında”, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” və “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” qanunlarda dəyişiklik edilməsi barədə layihələr də təsdiqləndi.

Deputatlar həmçinin “Sosial sığorta haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında” və “Əmək pensiyaları haqqında” qanunlarda texniki dəyişikliklərə müsbət münasibət bildirdilər.

Milli Məclis həmçinin “İşsizlikdən sığorta haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında”, “Məşğulluq haqqında”, “Dövlət rüsumu haqqında” (birinci oxunuş), “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” (birinci oxunuş), “Patent haqqında” (birinci oxunuş) qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini təsdiqlədi. Bununla da yaz sessiyasının ilk iclası başa çatdı.

***Rəşad BAXŞƏLİYEV,***
***Fərman BAĞIROV (foto),***
***“Azərbaycan”***



# Davamlı və sürətli islahatlar dövrü

## Bu mərhələ Nəsimi rayonunun inkişafına böyük təkan verir



2018-ci il Azərbaycanın ictimai-siyasi həyatında, daxili və xarici siyasətində mühüm uğurlarla yadda qaldı. İstər regionda, istərsə də qlobal iqtisadiyyatda baş verən proseslərə baxmayaraq, ölkədə həyata keçirilən sosial layihələrin heç biri dayandırılmadı.

Azərbaycanın təşəbbüsü, iştirakçısı olduğu beynəlxalq əhəmiyyətli layihələrin gerçəkləşməsi istiqamətində atılan addımlar ölkəmizin nüfuzunun daha da yüksəlməsinə səbəb oldu.

Dünən Nəsimi Rayon İcra Hakimiyyəti başçısı yanında Şuranın geniş iclasında 2018-ci ildə rayonun sosial-iqtisadi inkişafına yekun vuruldu. Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin son iclasında qarşıya qoyulmuş vəzifələr müzakirə olundu, yeni ilin başlıca hədəflərini əhatə edən qərar qəbul edildi. Toplantını giriş sözü ilə açan Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov qeyd etdi ki, iqtisadi baxımdan son illərdə Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Prezidentin innovasiyayönümlü, yüksək rəqabətqabiliyyətli istehsala əsaslanan sosial-iqtisadi siyasəti Azərbaycan iqtisadiyyatını keyfiyyətcə yeni, daha yüksək mərhələyə çıxarıb və respublikamız dünyanın iqtisadi cəhətdən dinamik inkişaf edən ölkəsi imicini qazanıb.

Yığıncaq iştirakçılarına rayonda son bir ildə baş verən yenilikləri və ümumi irəliləyişi əks etdirən videohesabat təqdim olunandan sonra Asif Əsgərov 2018-ci ildə sosial-iqtisadi inkişafın əsas göstəricilərini şərh etdi, ölkə rəhbərinin paytaxtın və onun rayonlarının hərtərəfli inkişafı ilə bağlı həyata keçirdiyi siyasətin növbəti hədəfləri barədə məlumat verdi.

"Əldə edilən bu nailiyyətlər və reallaşmaqda olan yeni sosial-iqtisadi layihələr onu deməyə əsas verir ki, 2019-cu ildə də qarşıya qoyulan bütün vəzifələr uğurla icra ediləcək, Azərbaycan iqtisadiyyatı öz inkişaf dinamikasını qoruyub saxlayacaq" - deyən Asif Əsgərov vurğuladı ki, ölkəmizin hər yerində dinamik inkişaf, infrastrukturun yeniləşdirilməsi, istehsal müəssisələrinin, iş yerlərinin yaradılması, geniş vüsət almış tikinti, quruculuq və abadlıq işləri ötən ildə Nəsimi rayonunda da uğurla davam etdirilib. Paytaxtımızda əhalinin ən sıx yerləşdiyi rayonlardan biri olan Nəsimi rayonu ötən il mühüm uğurlara imza atıb. Rayonun görkəmi dəyişir, əhalinin normal yaşayış səviyyəsi təmin olunur. Sosial problemlərin həlli istiqamətində təqdirəlayiq tədbirlər davam etdirilir, ötən ildə Nəsimi rayonunun iqtisadi və sosial həyatında müsbət dəyişikliklər baş verib, bütün sahələrdə yüksəliş müşayiət olunub. Rayonda sosialyönümlü tədbirlərə geniş yer verilməsi sakinlərin həyat səviyyəsinin yaxşılaşdırılmasına xidmət edir. İnşa edilən yeni obyektlər həm də turizmin inkişafına böyük imkanlar yaradır.

Natiq qeyd etdi ki, Prezident İlham Əliyevin ötən ilin əvvəlində yerli icra strukturlarına verdiyi tapşırıqların Nəsimi rayonunda bütünlüklə və ardıcıl icrası ilin uğurla başa çatdırılmasını təmin edib. Dövlət başçısı paytaxtın mərkəzi rayonunun problemlərinin həllini daim nəzarətdə saxlayır, gerçəkləşdirilən layihələri ardıcıl himayə edir. 2018-cı ildə rayonda yerləşən müxtəlif təyinatlı obyektlərin inşası, təmir-yenidənqurma işləri müvəffəqiyyətlə davam etdirilib. Bu obyektlərin açılışında və tikinti işlərinin gedişatı ilə tanışlıq mərasimlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak ediblər.









Asif Əsgərov vurğulayıb ki, respublikamızda əldə olunan uğurlar hər bir bölgədə olduğu kimi Nəsimi rayonunun sosial-iqtisadi, ictimai-siyasi həyatında da öz real əksini tapıb. 2018-ci ilin aprel ayının 11-də keçirilmiş prezident seçkilərində rayon ictimaiyyəti yüksək fəallıq nümayiş etdirib. Ümumilikdə rayon sakinlərinin mütləq əksəriyyəti İlham Əliyevə səs vermişlər.

Qeyd olundu ki, rayonun iqtisadi və sosial həyatında baş verən dəyişiklikləri əyani surətdə əks etdirən makroiqtisadi göstəricilər 2018-ci ildə əvvəlki ilin müvafiq dövrünün göstəricilərini xeyli üstələyib. Ötən il Nəsimi rayonunda 8306 yeni iş yeri açılıb. Əvvəlki ilə nisbətən işçilərin orta aylıq nominal əməkhaqqının səviyyəsi 6.1 faiz yüksələrək 652.1 manata çatıb.

Rayon icra hakimiyyəti tərəfindən ərazidə iqtisadi durumun yaxşılaşdırılması məqsədilə daxili imkanlardan istifadə etməklə sağlam biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi, kiçik və orta sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması üçün münbit şərait yaradılıb. Həmçinin yerli infrastruktur layihələrin icra olunması, yeni istehsal və emal müəssisələrinin açılması, məşğulluq səviyyəsinin artırılması və əhalinin maddi rifahının yüksəldilməsi ilə bağlı verilmiş tapşırıqların icrasının təmin edilməsi istiqamətində işlər davam etdirilib.

İcra başçısı qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hər yerində, paytaxt Bakıda, o cümlədən Nəsimi rayonunda həyata keçirilən quruculuq və abadlıq işləri sakinlər tərəfindən dərin rəğbət və ölkə rəhbərliyinə minnətdarlıq hisləri ilə qarşılanır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq Nəsimi rayonunda sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə istismar müddəti bitmiş, mövcud şəhərsalma normalarına cavab verməyən, şəhərin ümumi görünüşünə xələl gətirən yaşayış binalarının, qəzalı vəziyyətdə olan sosial və digər qeyri-yaşayış obyektlərinin sökülərək yenidən qurulması həyata keçirilir. İndiyədək yeni yaşayış binalarının inşa edilməsi məqsədilə çoxsaylı layihələr müzakirə olunaraq zəruri sənədləşmə işləri aparılıb, 23 məhəllə üzrə sököntü və tikinti işlərinə başlanaraq nəzərdə tutulan inşaat işləri uğurla davam etdirilir. Daha 2 layihənin icrasına da başlanıb.

Rayon mənzil-kommunal təsərrüfatı, su-kanal, enerji təchizatı və satışı, qaz və istilik xidməti müəssisələrinin işi daim RİH-in nəzarətində saxlanılıb, yaranmış çətinlik və problemlərin aradan qaldırılmasına operativ kömək göstərilib. Təhsil, səhiyyə, mədəniyyət obyektlərinin işi daim diqqət mərkəzində olub, bu sahələrin fəaliyyətini yaxşılaşdırmaq üçün zəruri tədbirlər həyata keçirilib. Ötən tədris ilində rayonun orta məktəblərini 1561 nəfər bitirmiş, onlardan 6 məzun qızıl medala layiq görülmüş, 1083 məzun tələbə adını qazanmışdır. Məzunlardan 23 nəfəri 650-dən çox, 2 nəfəri isə 700 bal toplamış, 261-i xarici ölkələrin ali məktəblərinə qəbul olunmuşdur.

Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə tarixi günlər və yubileylərlə bağlı kütləvi tədbirlər keçirib, ümumxalq bayramları, ayrı-ayrı peşə günləri təntənə ilə qeyd olunub, müxtəlif sahələrdə fərqlənənlər mükafatlandırılıblar.

Vətəndaşların müəyyən edilmiş vaxtlarda qəbulu, onların müraciətlərinə əsaslandırılmış yazılı cavabların verilməsi, şəffaflığın artırılması, mövcud nöqsanların aradan qaldırılması məsələləri daim diqqət mərkəzində saxlanılıb.

Hesabat göstəricilərinə yekun vuran Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı qeyd etdi ki, əldə olunmuş uğurlar yeni nailiyyətlər üçün möhkəm zəmin yaradıb.

Azərbaycan Dillər Universitetinin rektoru akademik Kamal Abdullayev, YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı və Bakı "Dağ Yəhudiləri"nin dini icmasının rəhbəri Milix Yevdayev çıxış edərək rayonda görülmüş işləri yüksək qiymətləndirdilər, qarşıda duran vəzifələrdən, həlli vacib məsələlərdən söhbət açdılar.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının sektor müdiri Tağı Tağıyev yığıncaqda çıxış edərək Nəsimi rayonunun sakinlərinə 2019-cu ildə daha böyük uğurlar arzuladı.

Müzakirələrdən sonra cari ilin konkret hədəflərini əks etdirən qərar qəbul olundu. Toplantı iştirakçıları adından Prezident İlham Əliyevə ünvanlanan müraciətdə rayonun sürətli inkişafına göstərdiyi diqqət və qayğıya görə minnətdarlıq, nəsimililərin quruculuq əzmi ifadə olundu.

Yekun hesabatda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən yubilyarlara Nəsimi Rayon İcra Hakimiyyətinin xatirə hədiyyələri təqdim olundu.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# İlham Əliyev ən böyük himayədarımız, Mehriban Əliyeva dayağımızdır

## Qubadlılı şəhid ailələri Azərbaycan Prezidentinə və birinci xanıma minnətdarlıq edirlər

*Əvvəli 1-ci səh.*









Birdəfəlik müavinət təyin edilən şəhid ailələri isə dövlət başçısına öz minnətdarlıqlarını bildirirlər. Onların sırasında Qubadlı şəhidlərinin vərəsələri də var.

Azərbaycanın Milli Qəhrəmanı, polis əməkdaşı Vasili Əliyevin ailəsi də bu sıradadır. Əslən Qubadlı rayonundan olan Əliyevlər ailəsi bu gün Sumqayıt şəhərində məskunlaşıblar. Milli Qəhrəmanın həyat yoldaşı Aygün Əliyeva deyir ki, 1982-ci ildə ailə qursalar da, cütlük cəmi 10 il evlilik həyatı yaşayıb. İki yadigarları var - Elmir və Zülfiyyə. Hazırda hər ikisi Sumqayıt şəhərində yaşayır, ailəlidirlər.

Vasili Əliyev 1980-ci ildən Qubadlı rayonunda polis əməkdaşı kimi çalışıb. 1992-ci il oktyabrın 19-da qəhrəmancasına şəhid olub. Bir il sonra Azərbaycan Respublikası Prezidentinin 11 may 1993-cü il tarixli fərmanı ilə Vasili Əliyevə Milli Qəhrəman adı verilib. Vasili Əliyev şəhid olanda 32, həyat yoldaşının isə 27 yaşı var idi.

İki uşaqla başsız qalan Aygün Əliyeva bir qərar verir. Dövlətin himayəsinə sığınmaq və uşaqlarını böyütmək üçün həyat yoldaşının yolunu davam etdirmək üçün polis orqanında işə qəbul olunur. 1993-cü ilin fevral ayından Daxili İşlər Nazirliyinin əməkdaşı olur.

Ailə Qubadlının işğalından sonra Buzovnadakı xəstəxanada məskunlaşır. 1996-cı ildə ulu öndər Heydər Əliyevin Milli Qəhrəman ailələrinin üzvləri ilə görüşündə yaşanan maraqlı tarixçə onların həyatını dəyişir. Ulu öndər həmin görüşdə tapşırıq verir və Sumqayıtın icra hakimiyyəti bir otaqlı evin orderini Aygün xanıma təqdim edir.

### Dövlətin qayğısı həmişə üzərimizdə olub

2008-ci ildə şəraitin çətinliyi üzündən Aygün Əliyeva Prezident İlham Əliyevə ərizə ilə müraciət ünvanlayır. Çox çəkmir ki, ailənin bu müraciəti də müsbət cavablandırılır.

- Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva şəxsən evi mənə təqdim etdilər. İki otaqlı evlə təmin olundum. Orda mənim polis işçisi olduğumu biləndə çox təəccübləndilər. Sakitcə dayanıb Prezidenti dinləyirdim. Mehriban xanım kənardan gəlib məni qucaqladı və qayıtdı ki, nəyə ehtiyacınız olarsa, mən canla-başla hazıram. Həqiqətən də adına uyğun bir xarakterə malik insandır. Hər ikisindən də Allah razı olsun, çox razıyam.

Prezident İlham Əliyev də o qədər səmimi, humanist insandır ki, elə bilirsən, sənə qardaşdır. Hər adam dövlət başçısı ola bilməz. O, xalqına bu cür yüksək qayğı göstərir. Tarix onu necə gözəl yetişdirib. Hər zaman dəstəklərini hiss etmişəm. Yoldaşıma da minnətdaram ki, şərəfli ölümü ilə bizə işıqlı yol açıb getdi. Dövlətin qayğısı həmişə üzərimizdə olub.

Şəhid vərəsələrinə verilən 11 min manat birdəfəlik ödəmə də həqiqətən, şəhid ailələrinə böyük təsəllidir. Bu, bir daha təsdiq edir ki, Azərbaycan dövləti, onun lideri heç vaxt bu kateqoriyaya aid insanları yaddan çıxarmır. Hər zaman cənab İlham Əliyevin, Mehriban xanım Əliyevanın himayəsi altındayıq.

### Hər zaman Prezidentin diqqətindəyik

Qubadlının digər polis Milli Qəhrəmanı Kərəm Mirzəyevin oğlu Cahandar Mirzəyev də onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına öz minnətdarlıq hissini belə izah edir:

- Prezident İlham Əliyev şəhid ailələrinə hər zaman xüsusi diqqət göstərib. Ulu öndər Heydər Əliyev necə edirdisə, cənab İlham Əliyev də həmin yolu davam etdirir.

Şəhid və Milli Qəhrəman ailələri hər ay təqaüd alırlar. Dövlət başçısı şəhid ailələrinə verilən təqaüdü də artırdı və bu aydan 300 manat həcmində olacaq. 11 min manat birdəfəlik ödəmə isə Azərbaycan Prezidentinin bizlərə necə qayğı göstərdiyinin təsdiqidir. Milli Qəhrəman oğlu kimi belə bir humanist addıma görə Prezident İlham Əliyevə təşəkkürümü bildirirəm.

Bu gün şəhid hərbi qulluqçuların vərəsələrinin birdəfəlik ödəmə təminatı ilə bağlı məsələyə dövlət başçısının xüsusi diqqət ayırması ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış və qazi olmuş şəxslərə olan ehtiramın bariz təcəssümüdür. Ümumiyyətlə, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan xalqını maraqlandıran və narahat edən məsələlərə daim diqqətlə, həssaslıqla, doğmalıqla, böyük sevgi ilə yanaşıblar.

Prezident İlham Əliyevlə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələri ilə görüşü, dövlət başçısının səsləndirdiyi dəyərli fikirlər və şəxsən şəhid anasının ayağa qalxmasına razı olmayaraq özünün ahıl insanlara yaxınlaşıb plastik kartı təqdim etməsi bir daha şəhidlərimizin və onların ailələrinin nə qədər dəyərli olduğunu nümayiş etdirdi. Bu səhnə Azərbaycan dövlətinin, xüsusilə ölkə Prezidentinin öz şəhidinə, şəhid ailələrinə, müharibə əlillərinə necə sahib çıxdığının əyani təsdiqi idi.

Biz bu diqqət və qayğını yüksək dəyərləndirir və bəyan edirik ki, hər zaman dövlət başçısının yanındayıq, onun müstəqil, humanist siyasətinin dəstəkçisiyik.

### Tanrı Sizi qorusun, cənab Prezident!

Daxili işlər orqanlarının əməkdaşı olmuş Qubadlı şəhidi Bəhmən Mehdiyevin həyat yoldaşı Təranə Şahmuradova da Azərbaycan Prezidentinə dərin təşəkkürünü bildirir:

- Şəhid ailələri hər zaman dövlətin himayəsində olublar. Prezident cənab İlham Əliyev verdiyi göstəriş və tapşırıqlarla, imzaladığı fərman və sərəncamlarla bizim ən böyük himayədarımız olduğunu təsdiqləyib.

Son görüş isə heç zaman unudulmayacaq bir xatirə kimi yaddaşlara yazıldı. Görüşdə dövlət başçısı bəyan etdi ki, evi olmayan şəhid ailəsi qalmayacaq. Bu kateqoriyaya aid olan insanlar hər zaman onun diqqətindədir. Dövlət başçısı bunu keçən il prezident seçkilərindən dərhal sonra imzaladığı ilk fərmanla da təsdiq etdi. Şəhid vərəsələrinə birdəfəlik ödəmələrin edilməsi ilə bağlı fərman ölkə ictimaiyyəti tərəfindən çox yüksək dəyərləndirildi. Yanvarın 28-də isə fərmana dəyişiklik edildi və birdəfəlik yardım alacaq vərəsələrin sayı daha da artdı. Bu kateqoriyaya 461 şəhid polisin də adı daxil edildi. Bu da onu göstərir ki, şəhid ailələri ilə bağlı məsələlər hər zaman şəxsən dövlət başçısının nəzarətində olur. Bu, çox böyük humanist addımdır və şəhidlərimizə, onların müqəddəs ruhuna göstərilən diqqətin dövlət səviyyəsində daha bir ifadəsidir. Göstərdiyi diqqət və qayğıya görə dövlət başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya ailəmiz adından minnətdarlığımı bildirirəm. Tanrı Sizi qorusun, cənab Prezident!

O gün olsun ki, Qarabağ torpağı düşmən işğalından azad edilsin və şəhidlərimizin ruhu şad olsun.

### 238 şəhidi, 11 Milli Qəhrəmanı olan rayon

Bu gün sayı 38 min 16 nəfər olan Qubadlı rayon əhalisi respublikamızın 41 müxtəlif şəhər və rayonunda məskunlaşıblar. Sumqayıt şəhərində 23 min 886 nəfər, Bakı şəhərində 11 min 188 nəfər, Abşeron rayonunda 1983 nəfər və digər 3 şəhər, 28 kənd rayonunda 959 nəfər müvəqqəti yaşayır.

Qubadlı rayonu torpaqlarımızın bütövlüyü uğrunda mübarizədə 238 şəhid verib. Bununla yanaşı, 316 nəfər Qarabağ əlili,100 nəfərdən çox insan isə itkin düşmüş kimi qeydə alınıb. Şəhidlərindən 11 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adı ilə təltif olunub. Onlardan Şükür Həmidov və Fəxrəddin Cəbrayılov hal-hazırda öz fəaliyyətlərini davam etdirirlər.

2016-cı ilin Aprel döyüşlərində də Qubadlıdan olan hərbçilər böyük şücaət göstəriblər. Ali Baş Komandan İlham Əliyev tərəfindən Aprel zəfərində fərqlənən Şükür Həmidova Azərbaycan Respublikasının Milli Qəhrəmanı, Mais Bərxudarova general-mayor hərbi rütbəsi və Faiq Qasımova igidliyə görə I dərəcəli medal verilib.

### Şəhid ailələrinə qayğı rayon rəhbərliyinin daim diqqət mərkəzindədir

Şəhidlərin xatirəsinin anılması, şəhid ailələrinə qayğı rayon rəhbərliyinin daim diqqət mərkəzində olan məsələlərdəndir. Rayon icra hakimiyyətinin başçısı Malik İsaqov şəhid ailələrini qəbul qrafikindən kənar istənilən vaxt qəbul edərək onları dinləyir, üzləşdikləri problemlərin aradan qaldırılması istiqamətində tədbirlər görür.

Bundan başqa, rayonda şəhid adlarının əbədiləşdirilməsi istiqamətində bir çox işlər həyata keçirilib. Belə ki, rayonun ümumtəhsil məktəblərinin əksəriyyəti və mədəniyyət evləri Qubadlı şəhidlərinin adını daşıyır. O cümlədən, döyüşlərdə şəhid olmuş və Milli Qəhrəman adına layiq görülmüş keçmiş polis işçiləri Vasili Əliyevin adı rayon mədəniyyət evinə, Kərəm Mirzəyevin adı isə rayonun Xanlıq kənd orta məktəbinə verilib. Qubadlı şəhər 2 saylı tam orta məktəb isə şəhid Bəhmən Mehdiyevin adını daşıyır.

Rayon icra hakimiyyətinin təşəbbüsü ilə Qubadlı rayonunda olan şəhidlərin qısaca həyat yolunu əks etdirən "Vətən oğul istəyəndə" kitabı nəşr olunub.

Bütün bunlarla yanaşı, şəhidlərin anım günləri, onların şərəfinə idman yarışları və yubiley tədbirləri keçirilir. Bir qayda olaraq hər il şəhidlərin uyuduğu Bakı və Sumqayıt şəhərlərindəki Şəhidlər xiyabanına kütləvi ziyarət təşkil olunur.

Bayramlar, əlamətdar günlərdə şəhid ailələrinə, imkansız və aztəminatlı ailələrə mütəmadi olaraq yardımlar edilir. Rayon icra hakimiyyətinin daxili imkanları hesabına yas mərasimlərinin təşkilinə, xəstələrin müalicəsinə və sair məsələlərlə bağlı aztəminatlı ailələrə maddi kömək olunur.

### Qubadlıdan olan 270-dən çox məcburi köçkün ailəsinə fərdi ev verilib

Son 15 ildə ölkəmizdə məcburi köçkünlərin problemlərinin həlli sahəsində genişmiqyaslı işlər görülüb, ölkədəki bütün çadır düşərgələri, fin tipli qəsəbələr ləğv edilib.Yeni salınmış 102 qəsəbə və şəhərcikdə 265 min nəfər məskunlaşdırılıb.

Dövlət tərəfindən 270-dən çox Qubadlı rayonundan olan məcburi köçkün ailəsinə fərdi ev verilib. Sumqayıt şəhəri 26-cı məhəllədə yerləşən "Şəfa" sanatoriyası ərazisində 800 nəfərlik mərasim evi, 12-ci mikrorayon ərazisində 100 nəfərlik, 47-ci məhəllə ərazisində 150 nəfərlik mərasim evləri tikilib, zəruri avadanlıqlarla təmin edilərək məcburi köçkünlərin istifadəsinə verilib.

Eyni zamanda, "Şəfa" sanatoriyasının I və II mərtəbəsində olan 74 boş otaq və 1500-dən çox fərdi ev RİH-in köməyi ilə təmir olunaraq məcburi köçkünlərə təqdim edilib.

### Onlar tezliklə doğma yurda qayıdacaqlarına inanırlar

Hər zaman Azərbaycan dövlətinin qarşısında duran strateji vəzifələrdən ən başlıcası əhalinin sosial müdafiəsinin təmin edilməsi olub. Xüsusən də aztəminatlı, şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin, məcburi köçkünlərin sosial-rifah halının, mənzil-məişət şəraitinin yaxşılaşdırılması daim Prezident İlham Əliyevin diqqətdə saxladığı məsələlərdəndir.

Dövlət başçısı bütün məsələlərdə daim xalqın yanında olub, hər zaman onun sevincini də, kədərini də bölüşüb.

Qubadlılıların məskunlaşdığı 41 şəhər və rayonun heç birindən Qubadlı dağları görünmür. Ancaq hər bir qubadlılı, hətta qaçqınlıqda anadan olan körpələrimiz harada yaşamalarından, dünyanın hansı nöqtəsində olmalarından asılı olmayaraq Qubadlı dağlarını görürlər, özü də öz ürəklərinin gözü ilə. Və tezliklə doğma yurda qayıdacaqlarına inanırlar. Ali Baş Komandan İlham Əliyevin apardığı müdrik siyasət, götürdüyü düzgün istiqamət buna zəmanət verir.

***Fərizə ƏHMƏDOVA, "Azərbaycan"***

# İmadəddin Nəsimi - 650



Hüseynbala MİRƏLƏMOV

# SON SƏFƏR

Povest

*(Əvvəli qəzetin 31 yanvar tarixli nömrəsində)*

Nəhayət, bayaqdan bəri qardaşını səbirlə dinləyən Şahxəndan necə oldusa, hövsələdən çıxdı:

- Vallah, dadaş, məni nə Miranşah maraqlandırır, nə Qara Yusif, nə də İbrahim şah. De görüm ta bu dəfə evlənəcəksən, yoxsa elə özündən uydurduğun gözəllərə qəzəl yaza-yaza duracaqsan? Daha bəsdi - o, böyük adamlar kimi qardaşını məzəmmət etməyə başladı, - daşı ətəyindən tök, heç bilirsən camaat arxanca nə danışır?

Seyid Əli təəccüblə soruşdu:

- Nə danışır?

- Deyirlər ki, guya sən səfərlərdə türk, ərəb qızları ilə o qədər eşqbazlıq edirsən ki, Şamaxıya qayıdanda evlənməyə gücün qalmır.

- Yəni elə belə deyirlər?

- Bəli.

Seyid Əli ürəkdən güldü və dedi:

- Balası, necə ki söz vermişəm, Hüsniyyədən başqa bir kimsə ilə evlənməyəcəyəm.

Şahxəndan, elə bil, bu sözə bənd idi, açdı sandığı, tökdü pambığı:

- Dadaş, heç bilirsən səndən sonra nələr olub?

Seyid Əli qorxdu, təşviş içində soruşdu:

- Nə olub? Yoxsa...

- Yox, deməyəcəyəm. Muştuluğumu ver, sonra...

Seyid Əli ciddi görkəm alıb, bir qədər sərt şəkildə dedi:

- Muştuluq... Nə muştuluq? - Sonra əlini cibinə salıb bir dinar çıxartdı və Şahxəndana dedi:

- Balası, tez ol, de görüm, Hüsniyyəyə nə olub?

Şahxəndan məzə üçün pulu dişi ilə yoxladı, sonra məmnun halda cibinə qoydu və başını yırğalaya-yırğalaya dedi:

- Uzun həngamədi, amma yenə də danışım: deməli, Hüsniyyənin əri - müsəllim Əbubəkr İsmailiyyə təriqətinə qulluq edən iki nəfərin ölümünə fətva vermişdi. Hökm həm Şirvanşah, həm də qazı tərəfdən təsdiq olundu. Həmin ismaililər də, təbii ki, bundan sonra dar ağacından asıldılar.

Seyid Əli möhkəm əsəbiləşdi:

- Şahxəndan, cəhənnəm olsun Şirvanşah da, qazı da, Əbubəkr də, ismaililər də, hələ desən, dar ağacı da. Sən mətləb üstünə gəl, de görüm, Hüsniyyəyə nə olub?

Şahxəndan olanları bütün təfərrüatı ilə, yəni yerli-yataqlı danışmaq istəyirdi. Odur ki, dedi:

- Darıxma, dadaş, bir az hövsələli ol, yoxsa karıxacağam. Deməli, qətldən bir ay sonra Dağıstandan bir dəstə atlı gəlib Dəvəçilərdə müsəllim Əbubəkrin evinə od vurur, özünü də, əvvəlki arvaddan olan uşaqlarını da yandırır.

- Bəs Hüsniyyə?!

- Hüsniyyə özündən gedir. Elə bilirlər ki, ölüb, toxunmurlar. Ara sakitləşəndə Səlminaz...

- Hansı Səlminaz?

- Hüsniyyənin dul rəfiqəsi... Hüsniyyəni götürüb evinə aparır. Hüsniyyə indi də elə onun yanında qalır.

- Belə de... Belə de... Kədərli hadisədir... Yaxşı, balaca hiyləgər, bu muştuluğu məndən niyə aldın?

- Necə niyə aldım? Hüsniyyə ki sağ qalıb... Bu şad xəbərə muştuluq düşmür?

- Bunu düz deyirsən, düşür, düşür, hələ bir dinar azdı...

- Onda bir dinar da ver! Xəsislik eləmə! Heç bilirsən, sənin muştuluq xəbərini gətirənlərə neçə dinarlıq ayın-oyun verdim?

- Bilirəm, balası, bilirəm.

Sonra Seyid Əli birdən nəyisə xatırlayıb ayağa qalxdı:

- Sabah cümə axşamıdı?

- Hə. Nədi ki?

- Qəbir üstə gedərik. Ata-anamıza, dünyadan cəmi köçənlərimizə "Yasin" oxutdurarıq.

- Gedərik, gedərik... Bir bura bax...

- Nə olub?

- Gör kücədən kim keçir...

Seyid Əli pəncərəyə yaxınlaşan kimi küçədən keçən adamı tanıdı - bu, mədrəsədə onunla bir sinifdə oxuyan, hamıya qan udduran Kafiəddin idi. Belində yekə bir səhəng: "Ay ayran istəyən, ay sərin ayran istəyən" deyə çağırırdı. Allahın işinə bax, yeriyəndə yeri titrədən, tay-tuşları nədi, onlardan da böyüklərə dov gələn Kafiəddin indi ayran səhənginin altında ikiqat olmuşdu.

Seyid Əli Şahxəndana dedi:

- Amma səsi əvvəl kimi qalıb ha...

- Cəsarəti, kişiliyi isə yox...

- Niyə elə deyirsən?

- Arvadından qorxur, özü də bilirsən necə? Nə qazanırsa, aparıb qoyur ovcuna. Bəlkə çağırım, ayran gətirsin?

- Lazım deyil, utanar.

- Əksinə, sevinər. Təki pul çıxsın.

- Yaxşı, sən də şişirtmə, utanar.

- Onda utanan sifət?

- Dedim ki, lazım deyil. Mən bir yenə həyətə düşüm. Bayaq bir az ayaqüstü oldu.

Seyid Əli itburnu kollarının arasından keçib hündür, qol-budaqlı bir ağacın yanında dayandı:

- Salam, mənim gilasım, maşallah, böyümüsən, budaqların göy üzünü bürüyüb. - Sonra o, bir başqa ağacın bilək yoğunluğunda saf gövdəsinə toxundu: - Bu badamı, yadıma gəlir, bir neçə il bundan əvvəl əkmişdim, uzanıb, mənim hesabıma görə, üzü payıza bar verməlidir, yaxşı da çiçəkləyib, külək lap yarısını töksün, yarısı ki qalacaq, bəsimizdir. Bu da qoz ağacı. Şahxəndan kimi heç cür boy atmaq istəmir. Nəyin çatmır? Torpağın, suyun, havan, günəşin, üstəlik, qulluq eləyənin, nazınla oynayanın... Bəs dərdin nədi? Bəlkə əlavə nəsə istəyirsən? Pis başlamamışdın, niyə yolda ilişib qaldın? Yəqin, kökün gedib daşa dirənib, eybi yoxdur, yoxlayarıq...

Seyid Əli başını ağac-uğacla nə qədər qatmaq istəsə də, fikri-zikri, xəyalı dünya gözəli Hüsniyyənin yanında idi. Görəsən, o, indi nə edir? Bilirmi ki, bax, bu dəm onu düşünən, xəyalından keçirən və düşündükcə, xəyalından keçirdikcə yanıb-yaxılan, ürəyi şam kimi əriyən bir biçarə, bir binəva var və bu biçarə, bu binəva nə edəcəyini bilmir, qərarsızdı...

Şahxəndan eyvanda dayanıb, qardaşının ağaclara dediyi sözlərə qulaq asa-asa başını bulayırdı, çünki o da yaxşı bilirdi ki, ağac boş söhbətdi, qardaşının dərd-səri Hüsniyyədir...

❖ ❖ ❖

Yay günü uzandıqca elə hey uzanırdı. Sanki günəş göy qübbəsini heç cür tərk etmək istəmirdi. Dağlardan yaxınlaşmaqda olan axşamın ilk sərin mehi əsib gəlirdi.

Seyid Əli eyvanda, iri qədimi taxtın üstündə uzanmışdı. Gəzdiyi ölkələr, gecələdiyi məscid, karvansara və xanəgahlar, söhbət elədiyi dərviş, abid, imam, şair və səyyahlar gözləri önündən çəkilmir, səslər, xüsusilə də dəvələrin boynundan asılmış zınqırovların ahəngdar səsləri qulaqlarından getmək bilmirdi. Pirdirəki dağlarının sərin küləyi, küçəni başına götürmüş mal-qara səsi, itlərin ağız-ağıza verib hürüşməsi, atların kişnərtisi necə də tanış və doğma idi. O bu iki-üç illik ayrılıqdan sonra yenə Şamaxıda - böyüyüb boya-başa çatdığı doğma evlərində, qardaşının yanında idi. Bu iki-üç ildə qardaşı onun divanının üzünü bir neçə nüsxə köçürüb, möhkəm dəri ilə cildləmişdi, yəni böyük iş görmüşdü - indi o cildləri saraylara və məscidlərə hədiyyə etmək olardı.

Seyid Əli yumşaq yorğan-döşəkdə xumarlandıqca yol yorğunluğu ayaqlarından süzülüb gedir, günlərlə at və yaxud dəvə üstündə oturmaqdan ağrıyan əzaları, sızım-sızım sızıldayan sümükləri rahatlıq tapırdı...

Şahxəndan qardaşı üçün sacda badam qovururdu - istəyirdi ki, isti-isti dadına baxsın. Lakin o, Seyid Əlinin yatdığını görüb, oyatmağa qıymadı.

❖ ❖ ❖

Səs-küylü Şamaxı gecəsinin parlaq ulduzları səmada nəhəng bir ocaq çatmışdı və sanki bu ocağın qızmar közləri hərdən çırthaçırt yerə tökülürdü. İki qardaş - Seyid Əli və Şahxəndan açıq eyvanda bir-birinin yanında dünyadan xəbərsiz halda yatırdılar. Həmişəki kimi, həyətin keşiyini çəkmək küçük vaxtından burada böyümüş Qaçalana etibar edilmişdi. O, qonşuluqdakı itlərlə ağız-ağıza verib fasiləsiz hürür, bununla da yatmadığını, işində ayıq-sayıq olduğunu göstərirdi.

Gecənin bir aləmində taqqıltı səsi eşidildi. Şahxəndan tez gözlərini açdı: "Yenə başladılar"... Sonra bir dəfə də taqqıltı səsi eşidildi... sonra bir dəfə də... sonra bir dəfə də...

Şahxəndan ah çəkib, başını buladı. Qonşu uşaqları, hər gecə olduğu kimi, yenə də evlərini daşa basırdılar. İncəvara, daşlar xırda idi, kirəmiti sındırmırdı, amma səsləri, az qala, adamı dəli edirdi.

Şahxəndan yerinin içində oturub, şirin-şirin yatan qardaşına baxırdı.

Evlərinin daşa basılması təzə hadisə deyildi. Artıq neçə müddət idi ki, məhəllə uşaqları nəinki gecələr, hətta gündüzlər də onu rahat buraxmır, "kafir", "kafirin qardaşı" deyib şataşır, hətta təklikdə yaxalayanda döymək də istəyirdilər. Səbəb isə, əlbəttə, qardaşının yazdığı şeirlər idi. Qəribədir, bu qəzəllər, qəsidələr, qitələr onların həm çörəyi, həm də qınaq yeri idi. Əslində, Seyid Əli Şamaxıda Nəiminin şagirdi kimi tanınandan - "İmadəddin Nəsimi" olandan sonra bu düşməncilik başlamışdı və arxasında Qulam Əli, Rəşid Yaqubi, Bəhluli, Qaim Şirvani, Əhməd Kəsirəddin kimi Şirvan şairləri dayanırdı. Onlar hər yerdə Seyid Əli haqqında cürbəcür şayiələr yayır, ona həcvlər yazır, şeirlərini təhrif edib, pis yerə yozurdular. Hətta İbrahim şaha, qazı Əbdülvahaba mənzum məktub yazıb "kafirlər kafiri"nin - Seyid Əli İmadəddin Nəsimini belə adlandırırdılar - cəzalandırılmasını tələb edirdilər. Xoşbəxtlikdən, nə İbrahim şah, nə də qazı Əbdülvahab onların bu qərəzli ittihamlarına məhəl qoyur, əksinə, dahi şairi hər yerdə tərifləyir, ən mötəbər məclislərinə dəvət edir və mükafatlandırırdılar.

Seyid Əli ilin çox vaxtını Bakıda, Təbrizdə, Hələb və Bağdadda olduğundan bu tənə və hədələrin ziyanı ən çox kiçik qardaşa - Şahxəndana dəyirdi. O isə dözür, dözür, dözürdü...

Doğrudur, "bu balaca müdrik"in şəhərin Abdallar, Xalçaçılar, Misgərlər məhəllələrində xeyli qohum-əqrəbası - simsarı vardı, amma onları bu mənasız münaqişəyə cəlb eləmək ağlının ucundan belə keçmirdi. Elə təkcə dəmbəgöz, hirsli, qəzəbli, heç vaxt at belindən düşməyən dayısı sərbaz Xeyrəddin bəs idi ki, hamını susdursun. Amma Şahxəndan heç vaxt ona ağız açmamışdı.

Hə, bir də tarçı Əzimian onların dostu idi. Şəhərdə - dükan-bazarda danışırdılar ki, guya o, ermənidir. Halbuki biçarə getdiyi, daha doğrusu, apardığı bütün toylarda cani-dildən bəyan edirdi ki, ay camaat, vallah, billah, mən erməni deyiləm, farsam. Bizdə bu cür adlar çoxdur. Heç erməni də bu cür "Bayatı-Şiraz" çala bilər? Amma bu sözlər heç kəsin qulağına girmirdi, yəni camaat elə dediyini deyirdi: ermənisən, vəssalam!

❖ ❖ ❖

Bir azdan, axır ki, kirəmitləri döyəcləyən "daş yağışı" ara verdi və Şahxəndan da, Seyid Əli kimi, dərin yuxuya getdi. Doğrudur, daş səsləri kəsiləndən sonra da Qaçalan yaramaz uşaqların qarasınca bir xeyli hürdü, lakin bu, div kimi yatmış qardaşların yuxusuna xələl gətirmədi...

❖ ❖ ❖

Səhər Şahxəndan yuxudan oyananda Seyid Əlinin yerində olmadığını görüb xeyli təəccübləndi. O, elə düşünmüşdü ki, yol yorğunu olmuş qardaşı ən azı günortaya qədər yatacaq. Ancaq şairlər şairi, həmişəki kimi, sübh tezdən qalxmışdı. Hələ uşaqlığından onda belə bir xüsusiyyət vardı: başını yerə atan kimi yuxuya gedirdi, bir də, tez yatıb, tez dururdu. Ən rahat yatdığı yataq isə, əlbəttə, ana yadigarı doğma yorğan-döşək idi...

O, Şahxəndan hələ yuxuda ikən qalxıb yaxınlıqdakı "Bədəvilər bazarı"na getmiş, yaxşı bal, qaymaq, təzə isti çörək almış, qayıdanda isə dəvəni, toyuqcücəni açıb həyətə buraxmışdı.

Şahxəndan qalxıb paltarını geyindi, sonra qardaşının özü ilə gətirdiyi şeir dəftərini götürüb həyətə düşdü və toxtaq səslə dedi:

- Dadaş, bəzi qəzəllərin heç xoşuma gəlmir. Odur ki, üzünü köçürməyəcəyəm.

Seyid Əli qaşlarını çatdı və sual dolu baxışlarla qardaşının üzünə baxdı.

Şahxəndan bu baxışlara cavab verirmiş kimi dedi:

- Bax, iki qəzəl yazmısan, ikisi də eynilə bir-birinə bənzəyir.

Seyid Əli soruşdu:

- Hanı? Göstər görüm...

Şairlər şairi suçiləyəni əlindən yerə qoyub, şeir yazılmış vərəqələri aldı:

- Hə, yaxşı tutmusan, oxşarlıqları var, amma fərqləri də çoxdur. Sən ikisinin də üzünü köçür.

- Yox ey, dadaş, bax bunun üzünü köçürəcəyəm, həm yığcamdır, həm də təmiz türkcədir. Elə ki misraları ərəb, fars sözləri ilə doldurursan, az qalıram şeiri hirsimdən cırıb atım. Axı camaatın başa düşmədiyi şeyi yazmağın nə mənası var?

- Balası, - şairlər şairi çox ciddi tərzdə dedi. - Yaxşı ki, sən köçürdüyünü gözüyumulu köçürmürsən. Çünki mənim xəttimdə də səhv çox olur. Vacibdir ki, mütləq düzəldəsən. Amma fikrə toxunma, qoy neçə varsa, elə qalsın, hətta xoşuna gəlməsə də. Adamlar cürbəcür olduğu kimi, zövqlər də cürbəcürdür. Sənin xoşuna gəlməyən bir başqasının xoşuna gələ bilər.

Böyük qardaşının dediklərinə baxmayaraq, Şahxəndan bir-birinə bənzəyən şeirlərdən birinin üzünü köçürüb, o birini döşəkçənin altında gizlətdi.

Seyid Əli əl-üzünü yuyub quruladıqdan sonra pilləkənin üstündə oturdu:

- Yaxşı, balası, o bir-birinə bənzəyən şeirləri bir oxu görüm...

Şahxəndan evə girib xoşuna gəlməyən şeiri döşəkcənin altından çıxartdı, xoşuna gələn şeiri isə bir dəfə oxumaqla artıq əzbər bilirdi. O, əvvəlcə bəyənmədiyi şeiri oxudu:

Vəslinə kim ki irmədi, dərdü əzab içindədir,
Ləlini kim ki sormadı, təşnə sərab içindədir.

Könlüm içində surətin can kimi qılmışam yerin,
Cövrəi-küntü nənzi gör kim nə xərab içindədir.

Şəmi rüxün hərarəti cuşa gətirdi aləmi,
Gör necə yanar od imiş kim, bu kəbab içindədir.

Qəndü nəbatü şəkərin ləzzətini unutmuşam,
Ta ki bənimlə ləblərin nazü itab içindədir.

Kim ki qaşınla olmadı sübhü əzəldə aşina,
Ta əbəd ol qaragünün bəxti səhab içindədir.

Sirri səqahüm rəbbihüm zahidə sorma anı,
Arifi-rəbbihüm bilir kim bu şərab içindədir.

Zöhdə dəlalət eylərəm, eşqə həris olur könül,
Mən nə şümarə düşmüşəm, ol nə hesab içindədir.

Düşdü cahanə gülqülə fitnəli nərgisində us,
Fitnələrin gör, ani sən sanma ki, xab içindədir.

Şəmsü qəmər əgər üzün tabinə düşmədi nədən,
Eşqə əsir olan kişi atəşü ab içindədir.

Surətini sifətinə valehü heyran olmuşam,
Gözdən əgərci surətin tərfi-niqab içindədir.

Zülfü qaşın Nəsimiyə vəchi-həsəndir, ey sənəm,
Cim ilə nun bu hüsn ilə qansı kitab içindədir?

Seyid Əli soruşdu:

- Yaxşı, bunun nəyi xoşuna gəlmir?

- Dadaş, bu qəzəldə mətləb çox uzanıb, həm də, bayaq dediyim kimi, ərəb-fars sözlərindən çox istifadə olunub, qəlizdir, heç nə anlamaq olmur.

- Bəs o biri qəzəl necədir?

- Əzbərdən deyim?

- De.

Şahxəndan həmin qəzəli sinədən dedi:

Qoyma üzünü niqab içində,
Rəf oldu əcəm hicab içində.

Dağıtma yanağın üzrə zülfün,
Neylər bu günəş səhab içində.

Gördüm səni həm fələkdə yıldız,
Buldum səni bu kitab içində.

Cadu gözün uyğudan oyandı,
Fitnə qılır ol bu xab içində.

Mən cəng kimi gah ikiqat olub,
Növbə qılıram rübab içində.

Gah eşqin ilə gözüm olacam,
Tərkik edərəm şərab içində.

Gah dəm kimi, dəm olur yanaram,
Bişər cigərim kəbab içində.

Hər kim sənə sünkir oldu, ey can,
Qaldı əbədi əzab içində.

Sanma ki, Nəsimi hüsiyandır,
Çoxdan dolaşıb hesab içində.

Seyid Əli şəfqət dolu nəzərlərlə qardaşının üzünə baxdı, onun yaşı ilə o qədər də uyuşmayan sərt mühakimələrinə, ağlına heyran qaldı və gülə-gülə dedi:

- İstəyirsən sənə bir sirr də açım?

Şahxəndan dedi:

- Aç, dadaş.

- İkinci oxuduğun qəzəl qaçaq-quldurların, yolkəsənlərin də xoşuna gəlmişdi.

Hər ikisi güldü. Sonra Seyid Əli qardaşını bağrına basıb əlavə etdi:

- Amma sən birinci qəzələ də dəymə, qoy qalsın. İndisə gəl bir tikə çörək yeyib, qəbiristanlığa baş çəkək. Sonra qonaq-qara əlindən getməyə imkan olmayacaq...

❖ ❖ ❖

Seyid Əli qəbiristanlığa gedən yolda qəfildən Şahxəndana sarı çönüb soruşdu:

- Yaxşı, gecə evimizi daşlayanlar kimlər idi?

Şahxəndan təəccüb etdi:

- Boy, mən elə bildim sənin xəbərin olmayıbdı.

- Yox, oldu... Sadəcə, səbirlə gözlədim ki, görüm bu işin axırı nə olacaq... Sən o daş atanları tanıyırsan?

- Tanıyıram... Məhəllə uşaqlarıdı...

- Niyə atırlar? Dəli olublar?

- Deyirlər, guya sən kafirsən.

- Yenə bu səfeh söhbət? Onlar uşaqdılar, nə bilirlər ki, kafir və yaxud müsəlman nədi? Deməli, bu fikri onların başına bir dolduran var.

- Əlbəttə var.

- Kimdi?

- Mədrəsə mollası.

- Hə, düz deyirsən. Onun işidir. Yaxşı ki, İbrahim şah var, yoxsa bu vəhşilərin əlindən Şamaxıya ayaq basmaq olmazdı...

Nəhayət, gəlib catdılar. Bu da qəbiristanlıq, dünənə kimi bir-birilə düşmənçilik edən, didişən adamlar indi burada yan-yana sakitcə uyuyurdular. Seyid Əli anasının başdaşının yanında dayanıb "Yasin" oxuyurdu. Birdən bir az aralıda toplaşmış adamların ona tərs-tərs baxdıqlarını hiss etdi. Amma özünü o yerə qoymadı. Elə bu vaxt iki yaraqlı sərbaz atlarını qəbiristanlığın girəcəyində saxlayıb, molla Zülfüqara yaxınlaşdılar və ondan nəsə soruşdular. O da əli ilə Seyid Əli ilə Şahxəndanı göstərdi. Sərbazlar qəbirlərin arasından keçən əyri-üyrü cığırlarla gəlib qardaşlara yaxınlaşdılar, sonra Seyid Əlinin "Yasin"i oxuyub qurtarmasını gözlədilər. Qəbiristanlıqda olanlar maraqla onlara baxırdılar. Seyid Əli Yasini oxuyub qurtardıqdan sonra sərbazlarla görüşdü və onlar öz aralarında astadan nəsə danışdılar. Sonra sərbazlar bir az əvvəl gəldikləri əyri-üyrü cığırlarla qəbiristanlıqdan çıxdılar və atlarına minib gözdən itdilər...

*(Ardı var)*

# İsmayıllı gəncləri bayramlarını qeyd ediblər

İsmayıllı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, rayon Gənclər və İdman İdarəsinin fəal iştirakı ilə şəhər Mədəniyyət Mərkəzində 2 fevral - Azərbaycan Gəncləri Günü təntənəli qeyd olunub.



İştirakçılar əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib önünə gül dəstələri qoyduqdan sonra gənclərin əl işlərindən, yaradıcılıq nümunələrindən təşkil olunmuş sərgiyə baxıblar.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov qeyd edib ki, ümummilli lider Heydər Əliyev xalqın təkidli xahişi ilə yenidən hakimiyyətə gəldikdən sonra pərakəndə halda olan gənclər təşkilatlandı, dövlət, region və beynəlxalq layihələrin həyata keçirilməsi üçün səfərbərliyə alındı. Ulu öndər gəncliyi ölkənin sosial-iqtisadi inkişafının aparıcı qüvvəsinə çevirdi. Fəxr ediləsi haldır ki, İsmayıllı gəncləri də dövlət gənclər siyasətinin həyata keçirilməsində, Prezident İlham Əliyevin sərəncam, tapşırıq və tövsiyələrinin icrasında fəal mövqe tuturlar.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Taleh Salehov diqqətə çatdırıb ki, İsmayıllı gəncləri dövlət gənclər siyasətinə sadiq olaraq sosial-iqtisadi inkişafda fəallıqlarını, həmçinin təhsildə, informasiya texnologiyalarına yiyələnməkdə, peşə öyrənməkdə, hərbi-vətənpərvərlik tərbiyəsində, intellektual inkişafda, milli-mənəvi dəyərlərin qorunması və zənginləşdirilməsində nailiyyətləri ardıcıl olaraq artırırlar.

Tədbirdə dövlət gənclər siyasətinin həyata keçirilməsində fəal iştirak edən bir qrup gəncə fəxri diplom və hədiyyələr, Yeni Azərbaycan Partiyası sıralarına yeni daxil olmuş gənclərə üzvlük vəsiqələri təqdim edilib.

Əməkdar müəllim, veteran, təhsil işçisi Şəfaqət Rəsulov da gəncləri təbrik edib. O, Azərbaycan həyatının daha da zənginləşməsində, təhsildə, hərbi vərdişlərə yiyələnməkdə bütün gənclərə uğurlar arzulayıb. Gənclər Forumunun iştirakçısı Tacəddin İbadov, gənc müəllim Aytac Ziyadxanlı, YAP rayon təşkilatı gənclər birliyinin sədri Qönçə Ağazadə və başqaları çıxış ediblər.

Məclisin musiqi bəzəyini uşaq incəsənət məktəbinin şagirdlərindən təşkil olunmuş bədii kollektiv verib. Gənc musiqiçilərin və ifaçıların təqdimatı kimi qiymətləndirilən incəsənət məktəbinin ansamblı Gənclər Gününə əsl bayram ovqatı gətirib.

*"Azərbaycan"*

# Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin fevral ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli

| Mərkəzi icra hakimiyyəti orqanı | Qəbul günü | Qəbulun keçirildiyi şəhər | Əhatə olunan şəhər və rayonlar |
|---|---|---|---|
| **Azad Rəhimov** gənclər və idman naziri | 08 | Şirvan | Şirvan, Salyan, Neftçala, Hacıqabul, Sabirabad, Saatlı |
| **Əbülfəs Qarayev** mədəniyyət naziri | 08 | Tovuz | Tovuz, Ağstafa, Qazax, Şəmkir, Gədəbəy, Göygöl, Daşkəsən |
| **Ramin Quluzadə** nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri | 08 | Hacıqabul | Hacıqabul, Şirvan, Sabirabad, Saatlı |
| **Arzu Rəhimov** Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi | 14 | Göygöl | Göygöl, Gəncə, Mingəçevir, Naftalan, Goranboy, Daşkəsən, Kəlbəcər |
| **Fikrət Məmmədov** ədliyyə naziri | 15 | Xaçmaz | Xaçmaz, Quba, Qusar |
| **Muxtar Babayev** ekologiya və təbii sərvətlər naziri | 15 | Beyləqan | Beyləqan, İmişli, Zərdab, Füzuli, Xocavənd, Laçın |
| **Ceyhun Bayramov** təhsil naziri | 15 | Ucar | Ucar, Zərdab, Kürdəmir, Göyçay |
| **Məleykə Abbaszadə** Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri | 15 | Naftalan | Naftalan, Mingəçevir, Yevlax, Goranboy, Ağdaş |
| **Zakir Qaralov** Baş prokuror | 22 | Salyan | Salyan, Şirvan, Hacıqabul, Sabirabad, Saatlı |
| **Kəmaləddin Heydərov** fövqəladə hallar naziri | 22 | Quba | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən |
| **Şahin Mustafayev** iqtisadiyyat naziri | 22 | Ağcabədi | Ağcabədi, Ağdam, Laçın |
| **İnam Kərimov** kənd təsərrüfatı naziri | 22 | Sabirabad | Sabirabad, Saatlı, Hacıqabul, Salyan, Neftçala |
| **Oqtay Şirəliyev** səhiyyə naziri | 22 | Biləsuvar | Biləsuvar, Salyan, Neftçala, Cəlilabad, Cəbrayıl |
| **Mikayıl Cabbarov** vergilər naziri | 22 | Beyləqan | Beyləqan, Füzuli, İmişli, Ağcabədi, Laçın, Xocavənd |
| **Hicran Hüseynova** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri | 22 | Goranboy | Goranboy, Gəncə, Mingəçevir, Naftalan, Yevlax, Göygöl, Samux, Kəlbəcər, Xocalı |
| **Kərəm Həsənov** Əmlak Məsələləri Dövlət Komitəsinin sədri | 22 | Mingəçevir | Mingəçevir, Yevlax, Ağdaş, Bərdə |
| **Ramil Usubov** daxili işlər naziri | 23 | Şirvan | Şirvan, Salyan, Neftçala, Biləsuvar, Hacıqabul, Sabirabad, Saatlı, İmişli, Zərdab, Cəbrayıl |
| **Səfər Mehdiyev** Dövlət Gömrük Komitəsinin sədri | 23 | Ağsu | Ağsu, Şamaxı, İsmayıllı, Qobustan |
| **Sahil Babayev** əmək və əhalinin sosial müdafiəsi naziri | 27 | Sabirabad | Sabirabad, Şirvan, Saatlı, Hacıqabul |
| **Mübariz Qurbanlı** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri | 27 | Hacıqabul | Hacıqabul, Şirvan, Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl |
| **Rövşən Rzayev** Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri | 27 | Goranboy | Goranboy, Gəncə, Naftalan, Şəmkir |

**Qeyd:** Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanının səlahiyyətlərinə aid olmalıdır.

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 25 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Aşağı Əskipara, Cəfərli kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Şirvanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## 2 fevral Gənclər Günüdür

# 25 yaşlı doktorant

## Azərbaycanda uğurlu təşəbbüslərin müəllifi kimi tanınan Təbriz Cəfərov indi də Türkiyədə təhsil diasporumuzu təşkilatlandırır

**Gənclik millətin yaşaması, inkişafı üçün təməl daşıdır, deyirlər. Bir millətin mövcudluğu üçün sağlam gəncliyin olması vacib şərtdir. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən asılıdır. Bu baxımdan Azərbaycanda gənclərlə iş sahəsində görülən tədbirlər gəncliyin inkişafına hər zaman təkan verib, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynayıb.**

### Prezident təqaüdçüsü və gənc "Qlobal səfir"

Son illər Azərbaycanda gənclərin intellektual və yaradıcı potensialının üzə çıxarılması, gənclərin fəallığının artırılması istiqamətində məqsədyönlü layihə və proqramlar həyata keçirilir. Səsi dünyanın müxtəlif ölkələrindən, nüfuzlu universitetlərindən gələn gənclərimiz öz istedadları, bacarıqları ilə ölkəmizi layiqincə təmsil edir, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması prosesində fəallıq nümayiş etdirirlər.

Belə gənclərimizdən biri də Türkiyənin Ankara Universitetinin 25 yaşlı doktorantı Təbriz Cəfərovdur. 1994-cü ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda ziyalı ailəsində anadan olan Təbriz 2011-ci ildə test imtahanlarından yüksək bal toplayaraq Prezident təqaüdçüsü adına layiq görülüb.

Ali təhsilini isə Prezident yanında Dövlət İdarəçilik Akademiyasında alan Təbriz 2014-cü ildə Tailand Krallığının paytaxtı Banqkok şəhərində keçirilən Beynəlxalq Gənc Liderlərin 5-ci Assambleyasında ölkəmizi təmsil edib. Burada o, Qlobal Sülh Fondu, UNESCAP və Qlobal Gənc Liderlər Akademiyasının birgə təsdiqi ilə "Qlobal səfir" statusuna layiq görülüb.

2015-ci ildə akademiyanın Siyasi idarəetmə fakültəsinin hüquqşünaslıq ixtisası üzrə təhsilini başa vuraraq ali təhsilin magistratura pilləsini Türkiyə Cümhuriyyətində davam etdirmək qərarına gəlib və Türkiyə Baş nazirinin yanında Xarici Ölkələrdə Yaşayan Türklər və Dost Xalqlar Başqanlığı tərəfindən elan edilən təqaüd proqramı əsasında qardaş ölkənin Səlcuq Universitetində publik hüququ üzrə magistratura təhsilini davam etdirməyə başlayıb.

### 23 yaşında Ankara Universitetinin doktorantı

2017-ci ildə üzərində çalışdığı elmi işi - "Türkiyə və Azərbaycan Açısından Publik Hüquqi Şəxslər Anlayışının İncələnməsi" adlı magistr dissertasiyasını yekunlaşdıraraq hüquq üzrə magistr elmi dərəcəsinə yiyələnib.

Bundan sonra Təbriz təhsilin doktorantura pilləsini də oxumaq üçün yenidən Türkiyə Baş nazirinin yanında Xarici Ölkələrdə Yaşayan Türklər və Dost Xalqlar Başqanlığına müraciət edib. Gənc hüquqşünasın bu müraciəti də müsbət qiymətləndirilib və Türkiyə dövləti bütün xərcləri öz üzərinə götürməklə "Hüquq üzrə fəlsəfə doktoru" proqramı üzrə onun doktorantura təhsilini Ankara Universitetində almağına dair qərar verib. 2017-ci il sentyabrın 21-dən Təbriz Türkiyənin ən nüfuzlu universitetində elmi araşdırmalarını davam etdirməyə başlayıb.

Sosial şəbəkənin imkanlarından yararlanmaqla hazırda qardaş ölkədə olan Təbriz Cəfərovla söhbətləşib həm təhsili, həm də ictimai fəaliyyəti ilə maraqlandıq.

Ankara Universitetinin hüquq elmləri üzrə doktorantı bildirdi ki, Azərbaycan dövləti hər zaman gənclərə həssas münasibət göstərib. Gənclərlə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və bu istiqamətdən irəli gələn vəzifələrin dəqiqliklə yerinə yetirilməsi nəticəsində hazırda Azərbaycan gənci elm, idman, mədəniyyət, incəsənət və s. sahələrdə böyük nailiyyətlər əldə edir, dövlətçilik ənənələrini uca tutur, çoxşaxəli islahatların həyata keçirilməsində yaxından iştirak edir.



### Milli maraqların müdafiəsi, pulsuz hüquqi yardım

Keçirdiyi görüşlərdə, iştirak etdiyi toplantılarda Azərbaycan həqiqətləri barədə geniş məlumat verən gənc doktorant həm də yeni təşəbbüslərlə çıxış edir. Bir müddət öncə Təbriz Türkiyədə təhsil alan Azərbaycan gənclərinin vahid şəbəkəsinin yaradılması ilə bağlı maraqlı ideya irəli sürmüşdü.

Söhbət zamanı bəlli oldu ki, artıq Təbrizin bu istəyi reallaşıb. Türkiyədə, xüsusi ilə Ankarada yaşayan azərbaycanlı gənclərin təşkilatlanması yönündə "Azərbaycan Gənclərinin Ankara Həmrəyliyi" (AGAH) Gənclər Təşkilatı təsis edilərək qeydiyyatdan keçirilib. Təşkilatın ümumi yığıncağında açıq səsvermə yolu ilə keçirilən seçkidə Təbriz Cəfərov idarə heyətinin sədri seçilib.

Gənc hüquqşünas dedi ki, istəkləri öncə paytaxt Ankarada yaşayan azərbaycanlı gənclərin ortaq platformasını formalaşdırmaq, onların Türkiyə topluмuna daha sağlam bir şəkildə adaptasiyasını təmin etməkdir. Təşkilatın qarşısına qoyduğu ən başlıca məqsəd isə Azərbaycanın milli maraqlarının müdafiəsidir. AGAH-in fəaliyyəti istiqamətində həmçinin gənclər arasında birlik, bərabərlik prinsipləri əsasında dostluq əlaqələrinin qurulması, Türkiyənin müxtəlif dövlət təsisatları ilə ictimai əhəmiyyətli əlaqələrin yaradılması əsas yer tutur.

AGAH həm də pulsuz hüquqi yardım işləri ilə məşğul olur. Türkiyədə, xüsusi ilə Ankarada məskunlaşan həmvətənlərimizə qarşılaşdıqları inzibati-hüquqi çətinliklərlə bağlı təmənnasız və könüllü əsaslarla məsləhətlər verilməsi üçün təşkilatın nəzdində hüquq işçi qrupu yaradılıb. Məsləhətlərin peşəkarlığını təmin etmək məqsədi ilə Türkiyədə fəaliyyət göstərən vəkillər və təcrübəli hüquqşünaslarla ictimai əsaslarla əməkdaşlıq edilir.

### Hər zaman Azərbaycanın adı yüksək tutulmalıdır

Hüquq təhsilini uğurla davam etdirən Təbriz Cəfərov Azərbaycan həqiqətlərinin yayılması prosesində hər zaman ativlik nümayiş etdirib. Ötən il Xocalı faciəsinin 26-cı ildönümü, bu il 20 Yanvar ümumxalq hüzn günü ilə əlaqədar toplantılara qatılıb, bir neçə televiziya kanalının qonağı olub və mərasimlərdə iştirak edib. Bu tədbirlərdə, mərasimlərdə, TV-lərə müsahibələrdə Təbriz Azərbaycan həqiqətlərini bir daha Türkiyə ictimaiyyətinə çatdırıb. Türkiyənin siyasi dairələrində, dövlət strukturlarında keçirdiyi görüşlərdə isə AGAH-ın fəaliyyət və əməkdaşlıq istiqamətləri müzakirə mövzusu olub.

Daim yeni hədəflərə doğru irəliləyən Təbriz Cəfərov müxtəlif kreativ təşəbbüslərlə çıxış edərək daha böyük uğurlar qazanmaq üçün çalışır. Gənc hüquqşünas hesab edir ki, xaricdə təhsil alan və təhsilini başa vuraraq müxtəlif sahələrdə çalışan gənclər müasir dövrün tələblərinə və reallıqlarına uyğun olaraq ölkəsinin təbliğatını da aparmalıdır: "Xaricdə təhsil alan və yaşayan hər bir gənc ayrı-ayrılıqda bir səfirdir. Çünki elə ölkələr var ki, orda Azərbaycanın rəsmi diplomatik nümayəndəliyi yoxdur, amma tələbələri var. Bu tələbələrin hər biri öz ətrafında, oxuduğu, yaşadığı yerdə, dostları arasında, təhsil aldığı ali məktəbdə və s. Azərbaycan adını yüksək tutmalı, ölkəmizin təbliği və sevilməsi məqsədilə durmadan fəallıq göstərməlidir. Hər kəsin fərd olaraq bu işdə əldə edəcəyi kiçik bir nailiyyət Azərbaycan adına böyük uğur deməkdir".

Bütün bunlar göstərir ki, Azərbaycan gəncliyi sözün əsl mənasında, inkişaf dövrünü yaşayır və dövlətin gənclər siyasəti bəhrəsini verir. İnanırıq ki, ölkəmizin Türkiyədə layiqincə təmsilçiliyi ilə məşğul olan gənc doktorant Təbriz Cəfərov da yeni-yeni layihələri ilə Azərbaycan adına böyük uğurlara imza atacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



**"Psixologiya sahəsinə sevərək gəlmişəm. Düşünürəm ki, insanın seçdiyi ixtisasın onun şəxsi keyfiyyətləri ilə əlaqəsi var və mən insanları öyrənməyi, ən başlıcası isə özümü kəşf etməyi, tanımağı sevirəm. Psixoloqun əsas vəzifəsi pasiyentə düşdüyü çətin situasiyanı anlatmaq və çıxış yolu tapmaq, bu istiqamətdə analiz aparmaqdan ibarətdir. Burada önəmli məqam odur ki, insanlar üçün güzgü rolunu oynayıb onların özlərini tanımasına yardım edə biləsən. Həyatlarını onlara uzaqdan göstərə və izləmə şansını yaradasan. İnsanın ixtisasına sevgisi yaranmasa, o, heç vaxt yaxşı mütəxəssis ola bilməz. İnsanlar kimi peşəyə də sevgi lazımdır. Hər çətinliyinə sinə gərib irəliləmək üçün..."**

# Sağlam ruhun keşikçisi

### Düzgün seçim

İnsanın təkcə xəstəliklərə tutulmaması, bədənin isə güclü olması onun sağlamlığına dəlalət etmir. Bədənin sağlam olması ilə yanaşı, ruhi sağlamlıq da yerində olmalıdır. Bəzən fiziki sağlamlığa, psixoloji sağlamlıqdan daha çox önəm verilir. Bu isə mənəvi pozuntu, depressiya və stress kimi arzuolunmaz vəziyyətlərə səbəb olur.

Təsadüfi deyil ki, psixologiya ən çətin sahələrdən biri kimi qeyd olunur və psixoloqların da bu mənada işlərinin ağır olduğu vurğulanır. Onlar ruhi sarsıntı içərisində olan, özünəinamı qırılan insanların ümidini geri qaytarmalı, yaşam həvəslərini artırmalıdırlar.

Ona görə də insanlarla işləməyi, ünsiyyəti seçən bu sahənin adamlarında güclü iradə mütləqdir və bunu yalnız peşəkarlar bacarır.

Psixologiyanı özünün həyat amalına çevirən gənc müsahibimiz Fidan Azərqızı (Ağayeva) bu sahədə uğurlar qazansa da, çətinliklərlə də çox qarşılaşıb. Müsahibimiz deyir ki, özünü dərk edən gündən psixoloq olmaq istəyib. Ailəsi onu həkim görmək istəsə də, o, öz seçimini edərək bu sahəyə istiqamətlənib.

Hələ abituriyent olduğu zamanlarda imtahan həyəcanını azaltmaq üçün psixoloq yanına gedən Fidan xanım nəticəsini əyani şəkildə gördükdə, düzgün seçim etdiyini bir daha dəqiqləşdirib.

### Passiv həyatı sevmirəm

Fidan xanım arzuladığı kimi, Bakı Qızlar Universitetində psixologiya ixtisasına qəbul olur və elə təhsilinin ilk günlərindən etibarən seçdiyi peşənin incəliklərini daha dərindən öyrənmək üçün əzmlə çalışmağa başlayır: "Birinci kursun ilk günlərindən psixologiya sahəsini professional şəkildə öyrənməyə girişdim. Artıq birinci kursun sonunda psixologiyanın yeddidən artıq istiqaməti üzrə kurslarda iştirak etdim və nailiyyətlər əldə etdim. Universitet nəzdində keçirilən elmi konfranslarda tələbə olduğum müddətdə psixologiya sahəsi üzrə birinci yerə layiq görülürdüm. Şanslı idim ki, müəllimlərim mənə bu ixtisasımı hər gün daha çox sevdirirdi".

Psixoloq deyir ki, o, heç zaman passiv həyat keçirməyib və gəncliyin verdiyi enerji ilə daim öz üzərində çalışıb, təkmilləşib: "Mən passiv həyatı təsəvvür edə bilmirəm. Aktiv olmağı sevirəm və öyrəndiklərim yeniliklərdən qrup yoldaşlarımı, bu ixtisasda təhsil alan dostlarımı da xəbərdar etmək istəyirdim. Mütəmadi olaraq təhsil aldığım universitetdə psixoloji seminarlar təşkil edirdim. İkinci kursa başladığım ilk günlərdə universitetdə Tələbə Gənclər Təşkilatına sədr seçimlərinin olacağını dedilər və mənim bu seçkiyə qatılmağımı təklif etdilər. Tələbələrin səs çoxluğu ilə Bakı Qızlar Universitetinin Tələbə Gənclər Təşkilatının sədri seçildim. 3 il müddətində TGT sədri olaraq fəaliyyət göstərdim. Azərbaycan Tələbə Gənclər Təşkilatının mükəmməl komandası ilə birlikdə çalışaraq bu sahədə çox təcrübə qazandım. Gənclər birliyinin psixologiya mərkəzinin rəhbəri kimi də fəaliyyət göstərirdim. Həmçinin başqa bir ictimai birlikdə psixologiya akademiyası layihəsini yaratdım və iki il müddətində həmin layihənin rəhbəri kimi çalışdım".

### Erkən nikah problemləri

Fidan Azərqızı söyləyir ki, 2 il əvvəl çalışdığı mərkəzin Lənkəranda filialı açılır və ona müvəqqəti olaraq həmin filialda çalışmaq təklif olunur. Əvvəlcə tərəddüd etsə də, sonradan işinə olan bağlılığı, insanlara kömək etmək hissi daha üstün gəlir və qərarını verir. Elə bu gün də həmin bölgədə psixoloq kimi fəaliyyət göstərir: "Orada problemlərin daha dərin olması məni çəkdi. Xüsusən, bu bölgədə müraciət edən qadınlar ancaq xanım psixoloq istəyirdilər. İnsanların ailədə toplum halında yaşaması, qayınana gəlin münasibətləri, yaxud da kişi - qadın psixologiyasının daha yaxşı bilinməməsi məsələləri ilə bağlı problemlər vardı. Ailə problemlərində erkən nikahlar ümumi bölgələrdə olduğu kimi, burada da xarakterikdir. İnsan özünü anlamadan, dərk etmədən ailə qurur. 16 yaşında insan hər hansı emosional, sevgi boşluğuna düşür, amma bəzən qarşısındakı insandan özünə qarşı bu sevgini görmür. Amma ailədə mütləq sevgi olmalıdır. Bəzən insan deyir ki, mən bu insanı qarşılıqsız da olsa ömür boyu sevəcəm, təki onun yanında olum. Lakin insan elə bir varlıqdır ki, hər zaman sevgiyə ehtiyacı var, tənhalıq onun üçün deyil. Bu cür qarşılıqsız sevgi olan ailələrdə problemlər yaranır".

### Onun danışmağa ehtiyacı var

Psixoloqun sözlərinə görə, indi işlədiyi bölgədə insanların psixoloji maariflənməsi yeni-yeni başlayır və onların inamını qazanmaq daha çətindir: "Bəzən problemlərlə qarşılaşırsan. Məsələn, hansısa bir şəxs 10-20 dəfə davamlı seanslara gəlməlidir. İkinci seansdan yaxınları gəlib soruşur ki, bu şəxsdə irəliləyiş varmı? Nə deyirsiniz? Amma biz hələ tanışlıq mərhələsindəyik və təbii ki, o insan da dərhal qarşısındakına ürəyini açmaz, nədəsə tərəddüd edər. Düşünər ki, mənim danışdıqlarımı valideynimə, yoldaşıma, yaxud kiməsə deyər və o tərəddüd birinci-ikinci dəfədə onları çəkindirir. Nəzərə almaq lazımdır ki, bir konsultasiya ümumilikdə problemi həll etmək üçün kifayət deyil. Yaxud da illər boyu yaranan problemin, uzun dövr davam edən psixoloji narahatçılığın bir seansda yox olması mümkün deyil, çünki psixoloqun "sehrli çubuğu" yoxdur ki, onun vasitəsi ilə hər şeyi bircə seansa dəyişsin. Müsbət nəticə üçün zaman lazım olur".

Fidan Azərqızı söyləyir ki, bizim mədəniyyətimizdə insanlar problemlərini ailə və ya dostları ilə paylaşmağı daha üstün tuturlar, bu, qısamüddətli rahatlıq hissi yaradır: "Ancaq bu vəziyyət narahatçılığı aradan qaldırmır. Birincisi, adətən, insanın emosianal bağlı olduğu insanlar neytral ola bilməzlər, çünki onlar sizi yaxından tanıyır və sevirlər. Digər tərəfdən, onlar emosional kömək etməyə çalışdıqları və tərəfsiz ola bilmədikləri üçün adətən, müəyyən yol göstərirlər".

"Onu da qeyd edim ki, psixoloqa müraciətlə bağlı insanlar arasında belə bir yanlış düşüncə də var ki, psixoloqun yanına yalnız hansısa problemin olanda getmək lazımdır. Amma bu, tamamilə səhvdir və sən bəzən sadəcə, danışmaq üçün, səni yükləyən o psixoloji yükdən qurtarmaq üçün də psixoloqa müraciət edə bilərsən. Bəzən elə pasientlərlə rastlaşırıq ki, o insan hər kəsdən qaçıb, özünə qapanıb, onu narahat edən düşüncələrdən, fikirlərdən danışmayıb, utanıb, qınaqdan qorxub. Bax, bu cür pasientlərin terapiyası sadəcə danışmaqla, onu dinləməklə müsbət nəticələnib" - deyə psixoloq vurğulayır.

### Ümid yeri

Psixoloqlar onlara müraciət edənlərin, adətən, ən son ümid yeri olurlar. Ona qədər terapevtlərdən, nevropatoloqlardan keçərək, axırıncı pənah yeri kimi psixoloqların yanına gəlirlər. Fidan Azərqızı elə bu səbəbdən də psixoloqun məsuliyyətinin böyük olduğunu deyir: "Sən həmin insanın ümidini doğrultmalısan. O, kiməsə etiraf etmədiyi, hamıdan gizlətdiyi sözü, bəlkə də özlüyündə vicdan əzabı çəkdiyi bir şeyi səninlə bölüşür və bununla rahatlıq tapır. Artıq o düşünmür ki, mən təkəm..."

Psixoloqun yüksək analiz qabiliyyəti olmalıdır və insanların danışdıqlarından düzgün nəticə çıxarıb onların həyatlarına dair düzgün seçimlər verməyi bacarmalıdır. Elə gənc müsahibimiz Fidan Ağayeva da belə psixoloqlardandır və daim bu sahədə daha yaxşı nəticələr əldə etmək, insanlara yardım göstərmək üçün öz üzərində işləyir. Özünü çox xoşbəxt sayır, düşünür ki, Allah ona belə bir peşə vasitəsi ilə insanlara kömək etmək missiyasını verib...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Yarı işıqlı, yarı qaranlıq dünyanın bəxş etdiyi əzmkarlıq



**- Yaradıcı insanların fərqli dünyası olur deyirlər. Bəs, sənin dünyan necədir?**

**- Yarı işıqlı, yarı qaranlıq...**

*Bu, müsahibim Elşən Əsgərovla dialoqumuzdan bir parçadır. O, "ƏSA" teatrının 28 yaşlı gənc aktyorudur. Həm də rejissor kimi çalışır. Uşaq vaxtı yaşadığı xoşagəlməz olay nəticəsində sol gözünün görmə qabiliyyətini itirib.*

*Böyük Qafqazın əlil aktyorlardan ibarət ilk teatrı sayılan "ƏSA" öz fəaliyyəti ilə incəsənətin heç bir maneə tanımadığını, əlil insanların göründüyündən qat-qat güclü olduqlarını sübut edib. Teatrın fəaliyyəti Azərbaycanda və ölkəmizin xaricində yaşayan əlil insanlar üçün stimul mənbəyinə, motivasiyaya çevrilib.*

*2 fevral - Gənclər Günü münasibətilə cəmiyyətimizin uğurlu gənclərindən söhbət açarkən, bu teatrın bacarıqlı simalarından biri ilə də oxucuları tanış etmək istədik. Elşənin qısa həyat hekayətini və düşüncələrini onun dilindən eşitmək daha maraqlı olar.*





### İtkilər də əvəzlənir

- Uşaq vaxtı arxeoloq olmaq arzusunda idim, ancaq 5-ci sinifdə oxuyarkən fikrimi dəyişdim. Baxdığım filmlər məndə rejissor-aktyor olmaq həvəsi yaratdı. Kənardan müşahidə etdiklərimi necə səhnələşdirmək olar, deyə həmişə düşünürdüm. 13 yaşımda yaşadığım olay isə həyatımı dəyişdi. Həyətdə oynayanda taxta parçası gözümü zədələdi. Sol gözümün bəbəyi kəsildi. Üç dəfə əməliyyat olundum, amma bir xeyiri olmadı və yavaş-yavaş görmə qabiliyyətim itdi.

O vaxt ümid edirdim ki, gözlərim düzələcək. İlk günlərdə sıxıntım olurdu, amma sonra bu gerçəkliyi qəbul etdim. Başa düşürsən ki, həyata davam etməlisən. İndi həyatımı heç bir itki görməmiş kimi yaşayıram.

Orta məktəbi bitirəndən sonra Rəssamlıq Akademiyasına sənədlərimi vermək istədim. İmtahana gecikdim. Sonra Gənc Tamaşaçılar teatrında işləyən bir dostum mənə dedi ki, bəs, sən uşaqlıqda aktyor olmaq istəyirdin, indi gəl, cəhd edək, sənədlərini universitetə ver. Bir gecə səhərə qədər imtahana hazırlaşdım, ertəsi gün Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə qabiliyyət imtahanına getdim. Nəticəm uğurlu oldu və burda təhsil almağa başladım. Tələbəlik illərində də bir çox tamaşalarda rollar canlandırmışam.

### "ƏSA" - fiziki məhdudiyyətli gənclər bir arada

- Üç ildir "Yuğ" və "ƏSA" teatrları ilə əməkdaşlıq edirəm. Bu sənətdə ustadım elə özüm olmuşam. 2017-ci ilin mayında "ƏSA"da Şekspirin "Yay gecəsində bir yuxu" pyesi əsasında hazırlanmış ikinci tamaşada rol təklifi aldım. Və o gündən əməkdaşlığımız başladı. "ƏSA" inklüziv teatrdır. Fiziki məhdudiyyəti olan və olmayan gənclərin birgə fəaliyyətidir. Bundan başqa, "Yuxum", "Adamlar və siçanlar", "Paris partladı" tamaşalarında rol almışam. Yaxın zamanlarda da "Göy quş" tamaşasında Tilo adlı itin ruhunu oynayacağam.

"Yuğ" teatrında isə "Quş dili" tamaşasında balıqçı, "Müəmmalı qətlin üç versiyası" tamaşasında isə şahid rolunda oynamışam. İndi də çox təkliflər gəlir. Ssesanirlərlə tanış olub sonra rəy verirəm. İstəyirəm ki, yaxşı işdə görünüm.

Bu sənətdə mənim ustadım deyəcəyim kimsə yoxdur. Elə özüm öz üzərimdə işləyirəm. Oxuduğum nəzəriyyələri praktikada tətbiq edirəm. Güzgünün önündə məşqlər edirəm. Artıq 28 yaşım var. Yetərincə uğur qazanmış sayılıram. Hansısa bir işi görürük və o, nəticə verirsə, bu, sənin uğurundur. Ancaq hələ çox uğur qazanmaq üçün zamanım var.

Deyilənə görə, rollarım çox uğurlu alınır. Çalışıram ki, hamısından zövq alım. Bu olmasa, mən o rolu oynaya bilmərəm. Əsas olan sevdiyin işlə məşğul olmaqdır. Sevdiyin işi görürsənsə, çətinliklərə məhəl qoymursan. Bu yolda yaşadığın məhrumiyyətlər sənə təslim olmağa imkan vermir. Məqsədim də gələcəyimi istədiyim kimi təmin etməkdir. İstəyirəm aktyorluq sahəsi üzrə xaricdə təhsil alım.

### Dünyaya tək gözlə baxmağın müsbət tərəfləri də var

- Hər bir insan kimi mənim də həyatda arzum var. Xatirələrdə yaxşı sənətkar kimi qalmaq istəyirəm. Rejissor olaraq öz həyatımı fərqli ssenari əsasında qurmaq istəyirəm Əvvəl xəyal etməyi sevirdim, indi isə reallıqla yaşayıram, bu günümü düşünürəm.

Dünyaya tək gözlə baxıram. Təbii ki, müəyyən çətinlikləri olur, amma müsbət yönləri də var. Məsələn, fotoaparatla nə isə çəkəndə kadrları daha yaxşı görmək olur. Şəkil çəkəndə adam bir gözünü yumur axı, mənim gözüm həmişə yumuludu deyə, o iş mənə asan gəlir.

Düşünürəm ki, problemi həll etmək mümkündür. Çətinliyi həll etmək lazımdır. Çalışıram ki, həllini tapım. Bəzən elə olur ki, insanlar problem yaşayan kimi özünə qapanır. Vay o gündən ki, tənbəl olasan. Belə olanda problemlər üst-üstə gələcək və altında qalacaqsan. Əksinə, əzmli olmaq və çalışmaq lazımdır. Bir mənfi cəhətim var ki, çox danışmağı sevmirəm. Dostlarım da həmişə mənə bunu irad tuturlar.

Zənnimcə, fiziki məhdudiyyətli oldunsa, düşünməməlisən ki, heç nəyə əlin yetmir və oturub ölümünü gözləməli deyilsən. Məsələn, qolları olmayan bir rəssam təsəvvür edək. O, təbiəti təsvir etmək üçün ayaqlarından istifadə edə bilər. Beləlİəri də var. Yetər ki, istəsin.

### Pərdələr endirilir və o yuxu bitir...

- Hərdən səhnə və həyat reallığını müqayisə edirəm. Həyatda yaşadığım sıxıntıları, problemləri səhnədə unuduram. Tamaşaçı qarşısında şən bir rol canlandırmalısansa, özünü unutmalısan. Tamaşa bitir, pərdələr endirilir və qayıdırsan özünə.

Hərdən düşünürəm ki, səhnə daha yaxşıdır, yoxsa həyatın reallığı? Cavabım olur ki, səhnə yuxu kimidir. Oynayırsan və bitir. Oyanıb həyatın reallığına qucaq açırsan. Ən yaxşısı isə həyatın reallığını yaşamaqdır.

Hansısa bir rolu oynamaq kimi arzum da olmayıb. Məncə, aktyor bütün rolları arzulamalı və onu sevərək oynamalıdır.

### Uğurun sirri

- Məqsədə çatmaq üçün səbirlə ilmə-ilmə addım atmaq lazımdır və ətrafdan məhrum olmamağa çalışmalısan. Məncə, məqsədə çox köklənməməlisən. Ətrafda çox şeyi itirə bilərsən.

Hərdən elə olur ki, əlimdə sevdiyim işi atıb, başqa bir şey axtarışına düşürəm. Bir yerdə durmağı sevmirəm. Hər zaman yenilik axtarışındayam. Sonu uğursuzluq ola bilər, amma risk etmək lazımdır. Makarenkonun belə bir sözü var - "riskdən imtina etmək, yaradıcılıqdan imtina etməkdir". İndi pulsuz da uğur qazanmaq olar. Uğur qazanmaq çətin məsələ deyil. Biri yaxşı şeir yazıb sosial şəbəkədə paylaşarsa, anında tanınacaq. Bəzən deyirlər ki, ailə qurmaq karyeraya mane olur, amma məncə, əksinə, təkan verir.

Mən sadəcə elə yaşamaq istəyirəm ki, "nəyə görə yaşadım?" sualını özümə verəndə, cavabını tapa bilim...

*Yaşadığı məhrumiyyətə rəğmən, gələcəyə ümidlə baxan gənc aktyor Elşən Əsgərov həyatda istədiyi məqsədə çatmaq üçün hələ çox zamana ehtiyacı olduğunu düşünür. Bu yolda ona büdrəməməyi, daha böyük uğurlar qazanmağı arzu edirik...*

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***



# Cəlil Məmmədquluzadə-150

# Sizi deyib gəlmişəm...



● Tənqidi realizmin banisi

# Mirzə Cəlil dühası: *satiradan lirizmə*

> "Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynamış və bütöv bir ədəbi məktəb formalaşdırmış qüdrətli şəxsiyyətdir. Vətəndaş yazıçının bədii nailiyyətlərlə zəngin irsində azərbaycançılıq məfkurəsi dövrün ictimai-siyasi fikrinin aparıcı amili kimi dolğun ifadəsini tapmışdır. Sənətkar həyat həqiqətlərini, ictimai mühiti hərtərəfli əks etdirən və bədii-estetik dəyər daşıyıcısına çevrilən rəngarəng obrazlar qalereyası yaratmışdır".
>
> **İlham ƏLİYEV,**
> **Azərbaycan Respublikasının Prezidenti**

**Cəlil Məmmədquluzadə - bu böyük şəxsiyyət yaradıcılığa başlayarkən qədim və zəngin Azərbaycan ədəbiyyatında bədii nəsr inkişaf etməmiş bir sahə idi və hekayə kamil janr kimi bu ədəbiyyatda hələ formalaşmamışdı. Onun bədii nəsri Azərbaycan ədəbiyyatında yeni ədəbi hadisə idi və akademik İsa Həbibbəylinin sözləri ilə desək, "Poçt qutusu" Azərbaycanda kiçik hekayə janrının ilk böyük mükəmməl proqramı" oldu. Xalq Mirzə Cəlilin hekayələri ilə bu janrı milli ədəbiyyatın faktı kimi dərhal qəbul etdi. "Kiçik adamlar"ı və "Artıq adamlar"ı, "Ölülər"i və "Dəlilər"i, "Saqqallı uşaqlar"ı da millətə çevirən, xalqa öz "mən"ini genetik yox, milli səviyyədə dərk etdirən, ibrətli əsərləri bizə hamıdan çox və hamıdan kəskin Məmmədquluzadə" yazdı.**



C.Məmmədquluzadə qələmə aldığı hadisələrə, insanlara bəslədiyi münasibətdən, əhvalatları necə şərh etməsindən asılı olaraq satirik üsluba, satirik boyalara müraciət edir. Bu boyalar təsvir və təhkiyədən, obrazların taleyindən və ya ictimai mövqeyindən asılı olaraq müxtəlif çalarlarda üzə çıxır. Təbii ki ədibin yaradıcılığında formaca müxtəlif, rəngarəng olan gülüş özünün ən yüksək ifadəsini, komik qüvvəsini yalnız satirada tapır. Bununla yanaşı, ədibin satirik təqdimində ictimai ittiham məzmunlu lirika satira ilə növbələşir. Şifahi xalq ədəbiyyatından başlayaraq, "Şikayətnamə", "Kitabi-Əskəriyyə", "Rəşid bəy və Səadət xanım" və s. kimi əsərlərdə bu forma əlamətlərinə rast gəlmək mümkündür. Satira ilə lirikanın belə uğurlu müştərəkliyini sonrakı nəsrimizdə qüvvətli şəkildə, novatorcasına inkişaf etdirən də məhz Mirzə Cəlildir. Nəhayət, "Danabaş kəndinin əhvalatları" povestində satira ilə lirika tam qovuşuq halda, növbələnmə tərzində bir-birini tamamlamaqla çox cazibədar və kamil sintezini" tapır.

Cəlil Məmmədquluzadə irsində lirik pafos onun yaradıcılığının ilk nümunəsi olan "Çay dəstgahı" əsərində, "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi poetik nümunələrdə və s. üzə çıxan şairlik istedadında da cəmlənir. "Milli musiqini mənəviyyat, əxlaq və fəlsəfə kimi tərənnüm edən" Mirzə Cəlil müdrikliyi "Kamança" kimi daha dərin mənalı söz hikməti ilə də könülləri ovsunlayır. 1918-ci ildə, qan yaddaşımıza həkk olan Şuşada erməni-Azərbaycan savaşının ən şiddətli zamanında Qəhrəman yüzbaşı önündə "Zabul segahı" çalan, ölümə məhkum olmuş qoca erməni tarzən Baxşı dayanır. Ədib qanlı toqquşmanı silahla deyil, muğamla, istedadın lirizm harmoniyasında siyasi düşüncə tərbiyəsində susdurur. Bizdən oğurlanan məhz özümüzə qaytarıldığı üçün hissin, duyğunun gücü ilə bağışlanır: "Ədə, erməni, tez kəmənçəni yığışdır, itil get burdan". Mirzə Cəlil humanizmi, duyumu, Mirzə Cəlil dühası budur!

Cəlil Məmmədquluzadə yaradıcılığında satiradan lirizmə yönlənmək, bəzən paralel müştərəklik mahiyyətcə daha çox insanların ictimai ədalətsizliklərdən doğan mənəvi iztirablarının emossional təzahürüdür. Ədibin sözaltı məna və psixoloji məzmunla zəngin olan əsərlərində hissin, yaxud fikrin güclü olduğunu demək çətindir. Burada: a) hiss və fikirlər obrazların zahirindən mahiyyətə doğru aşkara çıxır; b) əsər boyunca obrazların mənəvi iztirablarının bədii ifadəsi kimi özünü göstərir. Haqsızlıq dünyasının hər cür eybəcərliklərini özündə cəmləyən Xudayar bəy Zeynəbin oğlu Vəliquluya nəsihətində deyir: "İndi, əzizim, Vəliqulu, qardaşoğlu, sən özün də görürsən ki, sizin məndən savayı bir özgə böyüyünüz, baş çəkəniniz yoxdur. Bəs belə olan surətdə mən necə durum kənardan baxım ki, anan getsin Xalıqverdi bəyə və gözəl atanın, rəhmətlik atanın, o iki gözümün işığı atanın... Bu sözləri Xudayar bəy bir halda deyirdi ki, deyəsən pəs, ürəyi yanırdı. Sol əliylə geyməsinin ətəyini qalxızıb, guya ki, gözünün yaşını silir. Amma bir xırdaca huşyar adam olsaydı, əlüstü duyardı ki, Xudayar bəyin gözünə bir tikə yaş gəlməyibdir". Müəllif təsvir olunan hadisələrlə obrazın adi vəziyyətindəki hisslərini deyil, müəyyən səbəbdən düşdüyü vəziyyəti, yalnız zahirdə olduğunu yığcam və dəqiq təsvir edir. Zahiri lirizm "iki gözünün işığı" olan dostu üçün göz yaşı tökərək onu şərtləşdirən yeni məqsədlərə xidmət edir, Xudayar bəy özgə nöqteyi-nəzəri vasitəsilə (mən necə durum kənardan baxım ki, anan getsin Xalıqverdi bəyə) iş görür, Zeynəbin faciəli taleyini, yaşadığı cəmiyyətin ədalətsizliyini rüsvay edən tutarlı fakt kimi isbatlayır. Satiradan adlayan, uzaqlaşan gerçək lirizm isə obrazın etirazlarını, göz yaşlarını həssaslıqla verir, onun psixoloji situasiyalarını əsər boyu məharətlə açır: "Zeynəbin işi çox çətin yerə gəldi dayandı. Ev qaranlıq, uşaqlar ac, bir tikə aşdan-zaddan bişirib, qaldı ocaqda, soyudu. Mallar qaldı ac, susuz, Vəliqulu da ki, çıxdı qoydu getdi. Kim nə bilsin, nə vaxt gələcək çörəyə?! Xudayar bəyin Vəliqulunu yoldan çıxarması, ana ilə oğul arasında nifaq əsərin təsirli epizodlarındandır: "Zeynəb qaranlıqda oturub bu tövr fikrə cummuşdu. Qızları da ağlamaqdan bir az sakit olub üzlərini qoymuşdular analarının dizləri üstə. Düz iki saat ana və balalar bu halətdə oturmuşdular. Axırı qapı açıldı. Zeynəb elə bildi Vəliquludur. Bir az ürəyi açıldı". Mirzə Cəlil qadın faciəsini, kölə vəziyyətinə düşmüş ruhun mənəvi iflasını, tənha, çıxılmaz, ümidsiz vəziyyətdə belə ürəyin xəyal etdiyi nöqtədə dayandığını məharətlə göstərə bilir. O, nüfuz sahiblərinə üsyan edən, inamını itirmiş qadına sosial-tipik müəyyənliyin üstünlük təşkil etdiyi zaman daxilində olan münasibətə etiraz edir, ana, qadın aliliyini yüksək tutur və bu zaman sözlər məna etibarı ilə öz tonunu, mənasını da dəyişir: "Ax ana, nə gözəl zadsan!"

Eyni intonasiya ilə səslənən ifadə formasına ədibin "Ölülər" əsərində də rast gəlirik. "Ölülər"in birinci pərdəsində Kəblə Fatma şeyxin ölü diriltmək əhvalatını eşidib sevinir, il yarım əvvəl itirdiyi qızının - Saranın yenidən ona qayıdacağının həyəcanından ağlayır. Ona qarşı etinasız olan ərindən bir küncə sıxılaraq ağlayan qadına İsgəndərin ürək yanğısı da budur: "Yazıq ana".

Fəlakət və müsibət içində göz yaşlarına qərq olan, köməksiz qadın - anaların faciəsi, insan psixologiyasının ən gözəl, ən incə nöqtələrini duymaq və aça bilmək, təhlil etmək məharəti kimi hər iki əsərdə oxşar şəkildə lirik fonda sənətkarlıqla qələmə alınır.

Ədib bəzən obrazların hisslərində portret detallarından istifadə edərək fikri daha qabarıq ifadə edir: "Bir az kənarda 45-50 sinnində bir övrət çömbəlib, dalını dayayıb kürsüyə və çənəsini hər iki əlinin kəfəsinə qoyub qaş-qabaqnan Əhmədin ağlamağına tamaşa edirdi. Köhnə çarğat, köhnə ağ çit arxalıq və köhnə solmuş şiləyi dizlik - övrətin libası ancaq budur. Əgər deyək ki, bu övrətin ayaqlarında heç başmaq da yoxdur, yəqin eləmək lazımdır ki, bu övrət kasıb bəndənin övrətidir".

Son cümlə lirik situasiyanın ən kəsərli dönüş nöqtəsi, həlledici anı olaraq mahiyyətə doğru istiqamətlənir: "Bəli, bu övrət Məhəmməd Həsən əminin övrəti - İzzətdir" - təsdiqi tutarlı fakt kimi satiradan lirizmə, lirizmdən isə yenidən mühitin ittiham dolu ifşasına yönlənir.

Ədibin nəsrində dramatik əsərin tərkib hissələrindən biri olan təksəslilik əsərdə iştirak edən obrazlardan birinin tək, öz-özünə danışması psixoloji təhlil kimi müəllifin obraza verdiyi müstəqim xasiyyətnamə xarakteri daşıyaraq lirik intonasiyanın yaranmasında mühüm rol oynayır. "Danabaş kəndinin əhvalatları" əsərində Məhəmməd Həsən əminin taleyi, süjet boyu kifayət qədər tanış olduğumuz "qaragünçülük" onun özözünə şikayətlənməsində dövrün aynası kimi daha konkret təsəvvür yaradır: "Lap işlərim çətin yerə dayandı. Vallah, bilmirəm kasıblıq dərdi çəkim, arvad-uşaq dərdi çəkim, eşşək dərdi çəkim. Yəni, eşşəyi də verməmək olmazdı. Söz yox, nə tövr verməmək olar? Eşşəyi verməsəm, onda dəxi kənddə baş gəzdirmək olar? Genə necə olsa, hakimdi, katdadı. Günün günorta çağı gəldi, nahaq yerdə yaxaladı ki, bu qədər iştrafındı ver, onda bəs necə olsun? Xeyr, olmazdı ki, vermiyeydim". Məhəmməd Həsən əmi hökm sürən özbaşınalığı, haqsızlığı, çarəsizliyi görür. O bilir ki, hakim təbəqəni özündən narazı salmaq olmaz. Obrazın sarsıntıları, düşdüyü vəziyyətdən çıxış yolları axtarması, həyəcanlı, gərgin, müdafiəsiz və itaətkar vəziyyəti, bu vəziyyətdə öz xasiyyət və xarakterinə tənqidi münasibət, bəzən haqq qazandırma mövqeyi ictimai və psixoloji cəhətlərin əyani şəkildə yekunu olaraq ədibin insan psixologiyasını məharətlə aça bilmək bacarığı kimi şərtlənir: "Hələ mən bilmirəm ki, vallah, bu arvad-uşaq nə deyir?! Hələ bu küçük niyə belə özünü yerdən yerə çırpır?! Deyinən görək axır mənnən bir yerdə alnının tərini silib pul qazanmısınız? Verdim, çox yaxşı elədim verdim. Öz eşşəyimdir, özüm də verdim də. Dəxi sizə nə dəxli var? A kişi, yəni, insafən onların da günahı yoxdur. Onlar da elə məndən ötrü qalmaqal eləyirlər da". Göründüyü kimi, ədibin yaradıcılığında satira və lirizm bir birini əvəzləyən ifşa və lirizm paradoksu kimi sanki bir nöqtədə birləşir, yaradıcılıq manerasının mükəmməlliyini bir daha isbatlayır.

*Səadət VAHABOVA,*
*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent*

## Görkəmli ədəbi simalar Cəlil Məmmədquluzadə haqqında

- ***Abdulla ŞAİQ:*** "C.Məmmədquluzadənin və "Molla Nəsrəddin" məcmuəsinin yerli istismarçılara, çar məmurlarına, köhnəliyə qarşı, İran və Türkiyə hökmdarlarına qarşı, Şərq ətalətinə, dinə və mövhumata qarşı apardığı mübarizə Azərbaycan zəhmətkeşlərinin öz istiqlaliyyətləri uğrunda mübarizə etmək üçün ayağa qalxmalarına çox böyük fayda vermişdi".
- ***Firudin bəy KÖÇƏRLİ:*** "İndiyə qədər çapdan çıxmış nömrələrə əsasən demək olar ki, "Molla Nəsrəddin" nöqsanlara gülmək yolu ilə müsəlman cəmiyyətini islah etməkdən ibarət olan məqsədini tamamilə yerinə yetirir..., azərbaycanlıların vaxtı keçmiş, köhnəlmiş görüşlərini, anlayış və adətlərini, gülüş yolu ilə aradan qaldırmaq, onların adətlərini islah etməyə və özlərini də oyadıb, nəcib və ciddi fəaliyyətə sövq etməyə çalışır".
- ***Abbas ZAMANOV:*** "Mircə Cəlil əsərlərini ürəyinin qanı ilə yazırdı".
- ***Mir Cəlal PAŞAYEV:*** "Mirzə Cəlil ədəbiyyatımıza "xırda adamları", onların dərdini, ürək döyüntülərini gətirdi. Xalqın dərdini qələmə almaq - vətənə, xalqa sonsuz məhəbbətdən doğur".
- ***Məmməd CƏFƏR:*** "Cəlil Məmmədquluzadənin və onun 1906-cı ildən başlayaraq ətrafına topladığı mollanəsrəddinçilərin kəşf edib mətbuat aləminə, döyüş meydanına çıxardığı Sabirlərin, Əli Nəzmilərin qələminin gücü ilə Azərbaycan satirik ədəbiyyatının şöhrəti ölkə sərhədini aşaraq, bütün Şərqdə rəğbət, məhəbbət qazanmış, Şərqin müxtəlif ölkələrində qoca Molla Nəsrəddinin neçə-neçə istedadlı davamçıları, məfkurə və sənət dostları yetişmişdir".
- ***Yaşar QARAYEV:*** "Mirzə Cəlil XX əsr Azərbaycan bədii fikrində yeni realizmin başçısı və böyük nümayəndəsi sayılır. Ümumən Azərbaycan realizmi Zakirdən Sabirə qədər keçdiyi yolda Mirzə Cəlildən yüksək zirvə tanımır. Bizdə tənqidi realizm Mirzə Cəlillə kamala çatır. O, M.F.Axundov realizminin, sadəcə, davamçısı deyildi, bu realizmin inkişafında tam yeni mərhələnin "baneyi-kari" idi. Mirzə Fətəlidən sonra Azərbaycan nəsrində, dramaturgiyasında, ədəbi və ictimai fikrində böyük islahatlar Mirzə Cəlil yaradıcılığında baş verir".

● Millətpərvər

**Böyük çətinliklərlə nəşrinə nail olduğu "Molla Nəsrəddin" jurnalının 1906-cı il 7 aprel tarixli ilk sayında Cəlil Məmmədquluzadə üzünü oxuculara tuturdu: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri deyib gəlmişəm ki, mənim söhbətimi xoşlamayıb, bəzi bəhanələrlə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükəmalar buyurublar: "Sözünü o kəslərə de ki, sənə qulaq vermirlər".**
**"Molla Nəsrəddin" jurnalının elə həmin sayının üz qabığında verilən karikaturada isə bir dəstə yuxuya getmiş müsəlman təsvir olunmuşdu. Şərqin müdrik ağsaqqallarından sayılan Molla Nəsrəddin onları oyatmağa çalışırdı...**



*- Bəli, bu gün gəlib deyirsən: Hacı, qəzet al oxu,*
*Sabah da inşallah gəlib deyəcəksək: Hacı dur get urus ol.*

# Sözünü o kəslərə deyirdi ki...

"Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur. Zira ki, mal-mülk tələf olur gedir, amma söz qalır".

***Cəlil Məmmədquluzadə***

Əsrin dörddə biri ərzində, müəyyən fasilələrlə nəşr olunacaq məşhur jurnalın ilk sayında verilmiş bu yazı və karikatura, əslində, bir mövzunun sözlə və karikatura ilə təsviri idi. Mövzu isə əsir Vətən, əsarətin məngənəsində çırpınan azərbaycanlılardı...

### Millətin Söz aynası

Adı ilə də oxucusunu güldürəcəyi bəlli edilən jurnalın birinci sayında gülüş ünvanını belə nişan verirdi böyük Mirzə Cəlil: "Ey mənim müsəlman qardaşlarım! Zəmani ki, məndən bir gülməli söz eşidib, ağzınızı göyə açıb və gözlərinizi yumub, o qədər "xa-xa!" edib güldünüz ki, az qaldı bağırsaqlarınız yırtılsın və dəsmal əvəzinə ətəklərinizlə üz-gözünüzü silib, "lənət şeytana!" dediniz, o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz.

Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqətlə baxınız camalınıza".

Bu yazının dərcinə qədər də Mirzə Cəlilin bənzərsiz yazıçılıq qabiliyyəti müasirlərinə bəlli idi. Hələ XIX əsrin sonlarında o, "Çay dəstgahı" alleqorik mənzum dramını, "Kişmiş oyunu" komediyasını, "Danabaş kəndinin əhvalatları" povestini və bir sıra kiçik hekayələrini yazmışdı. Buradaca yaradıcılığa "əlvida" demiş olsaydı belə, təkcə 1894-cü ildə qələmə aldığı "Danabaş kəndinin əhvalatları" əsəri Cəlil Məmmədquluzadə adının Azərbaycan ədəbiyyatında əbədi yaşamasına bəs edərdi. Amma o, xalqına, Vətəninə xidmət yolunu özünə ömürlük seçmişdi. Həm də bu yola çox güclü, qüdrətli bir silahla - Sözlə çıxmışdı. Və sözünü o kəslərə deyirdi ki, öz problemlərini və nöqsanlarını görmək iqtidarında və arzusunda deyildilər.

Mirzə Cəlilin əsərləri ayna idi. Orada öz eyiblərini görənlərin kimisi "Bu, mən deyiləm" deyə düşünərək özünə təsəlli verir, gülüb keçir, kimisi də müəllifə düşmən kəsilirdi. Yazıçı isə öz tövrünü dəyişmədən satirik əsərlərinin gülüş hədəfinə çevirdiyi müasirlərinə qurtuluş yolunu göstərirdi.

Bu gülüş Cəlil Məmmədquluzadənin, demək olar ki, bütün yaradıcılığını müşayiət etdi. O, xalqının, soydaşlarının halına ürək ağrısı ilə güldü... Müəllifi öz içində yandırıb qovruldan, qəhr edən bu gülüş düşmənlərin ətrafında dolandığından, zamanın belə qəsdinə durduğundan xəbərsiz qardaşlarının qolundan yapışıb onları oyatmağa cəhd etmək, səy göstərməkdi.

### "Ey biçarə Vətən..."

Azərbaycan xalqının milli oyanışı Cəlil Məmmədquluzadə yaradıcılığının başlıca qayəsi idi. O, bu yolda əngəl olanları tənqid edirdi. Demək olar ki, Azərbaycanın, azərbaycanlıların ictimai-siyasi, iqtisadi, mədəni həyatında mövcud olan elə bir problem yox idi ki, Cəlil Məmmədquluzadə ona münasibət bildirməsin. XX əsrin əvvəllərində Azərbaycanda hökm sürən savadsızlıq, məktəblərin azlığı, olanların böyük əksəriyyətinin də dövrün tələblərinə cavab verməməsi bu görkəmli ziyalını düşündürən ən ümdə məsələlərdən idi. Eyni səylə o, xalqımızın mədəni geriliyinə, dini xürafata, mövhumata, cəhalətə, avamlığa, çarizmin mürtəce siyasətinə qarşı inadla mübarizə aparırdı.

Mirzə Cəlil qadın azadlığını milli tərəqqinin əsas əlamətlərindən biri hesab edirdi. Arzu edirdi ki, Azərbaycan qadınlarının mədəni səviyyəsi və hüquqları Avropa qadınlarından aşağı olmasın: "Avropa qadınlarının səviyyəsinə çatmaq üçün Şərq qadınları oxumalı, çalışmalı, vuruşmalı və cəmiyyətlər təşkil etməlidirlər, yoxsa yer üzündə heç bir islam milləti mədəniyyət meydanında irəli gedə bilməyəcəkdir".

Təhsilə böyük əhəmiyyət verən ədib bəzi oxumuşlarımızın xalqdan ayrı düşdüyünə təəssüflənirdi. "Ananın kitabı", "Bizim obrazovannılar" və başqa əsərlərində, hətta doğma ana dilində danışmağı da özünə yaraşdırmayan belə oxumuşlarımızı satira atəşinə tuturdu.

Cəlil Məmmədquluzadə yaradıcılığında diqqətimizi çəkən bir məqam da budur: Azərbaycanı 1828-ci ildə ikiyə parçalasalar da, bir hissəsi Rusiyanın, digər hissəsi isə İranın müstəmləkəsinə çevrilsə də, dərdi bütövdür. Mirzə Cəlil o bütöv dərdi dilə gətirirdi: "Ax, gözəl Azərbaycan vətənim! Harda qalmısan?!. Ay torpaq çörəyi yeyən təbrizli qardaşlarım, ay keçəpapaq xoylu, meşkinli, sərablı, goruslu və moruslu qardaşlarım, ay bitli marağalı, mərəndli, gülüstanlı quli-biyaban vətəndaşlarım, ey ərdəbilli, qalxanlı bəradərlərim! Gəlin, gəlin, gəlin mənə bir yol göstərin! Vallah ağlım çaşıb! Axır dünya və aləm dəyişildi, hər bir şey qayıdıb öz əslini tapdı, hər mətləbə əl vuruldu, gəlin biz də bir dəfə oturaq və keçə papaqlarımızı ortalığa qoyub bir fikirləşək - haradır bizim vətənimiz?!".

### Mirzə Cəlil yadigarı

Səni dinləyənə, ən azından, dinləmək istəyənlərə Söz deməyə nə var ki?!.. Çoxu yazıb-oxumaq bilməyən, dünyanın işlərindən baş çıxarmayan, cəhalətin yaxasından bərk-bərk yapışıb buraxmaq istəməyən, yuvarlandırıldığı səfalətdən, düşdüyü qaranlıqdan çıxış yolu aramayan, ən ağırı, sənə qulaq verməyənlərə əl uzat, harayla... Sonra havada qalan əllərinə bax, öz qulağına çatan səsini dinlə... Və bunlardan usansan da, yorulsan da, kədərlənsən də geri çəkilmə... Mirzə Cəlil kimi millət təəssübkeşləri öz üzərlərinə bu qədər böyük və ağır mənəvi vəzifə götürmüşdülər.

"Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur, zira ki, mal-mülk tələf olur gedir, amma söz qalır. Belə ki, keçmiş hükəmanın, şüəranın sözləri hala baqidir".

1906-cı ildə "Mola Nəsrəddin" jurnalının ilk sayında dərc olunan "Atalar sözləri" adlı əsərində belə yazırdı Mirzə Cəlil.

Aradan yüz ildən çox vaxt keçsə də, onun özünəməxsus sadə üslubla, şirin dillə qələmə aldığı hər bir əsərində xalqının dərdinə yanan, vətəninə sevgisi tükənməz vətəndaş, ziyalı, yazıçı fəryadı duyulur.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Qoca Şərqin güzgüsü

● Felyeton

***Böyük yazıçı Cəlil Məmmədquluzadənin ədəbi-ictimai fəaliyyəti və onun "Molla Nəsrəddin" jurnalı Azərbaycan tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Xüsusilə, "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması yalnız Azərbaycanda deyil, Yaxın və Orta Şərqin mədəni həyatında da mühüm hadisə idi. Orada qaldırılan məsələlər mətbuatda, ictimai dairələrdə qızğın fikir mübadiləsinə səbəb olurdu. Şübhəsiz ki, bütün bunların hamısı jurnalın ictimai-siyasi həyatda tutduğu mövqedən, onun ideya istiqamətindən və xalq həyatında oynadığı ciddi roldan irəli gəlmişdi. Hüququ əlindən alınmış, əsrlər boyu istismar və mövhumatın ağırlığı altında əzilən zəhmətkeş kütlələrin taleyi, acınacaqlı həyatı və müqəddəratı ilə əlaqədar məsələləri jurnal öz səhifələrində müntəzəm surətdə əks etdirmişdir.***



*...Ay qardaşlar, mən ki dilsiz xəlq olunmamışam,*
*bu dilləri ağzıma soxursunuz...*

### Bizim "obrazovannı"lar

Mənim bir rəfiqim var, özü də müsəlmandır, amma məni görəndə rus dilindən savayı özgə dildə danışmaz. Məsələn, söhbətimiz bu cür olur: mən onu görəndə deyirəm:

- Hardan gəlirsən?

O mənə belə cavab verir:

- Ya xodil na poçtu.

Deyirəm:

- Dünən niyə bizə gəlmədin?

Cavab verir:

- K nam prişli qosti.

Deyirəm:

- Yaxşı, qonaqlar gedəndən sonra gələydin!

Cavab verir:

- Net, uje bılo pozdno.

Deyirəm:

- Söz verirsən ki, sabah gələsən, bir az söhbət edək?

Cavab verir:

- Postarayus, no slovo ne dayu.

Deyirəm:

- Xudahafiz!

Cavab verir:

- Do svidaniya!

Amma dostumun bir şeydən xəbəri yoxdur: xəbəri yoxdur ki, mən də rusca bir az danışa bilirəm!..

Axırı bir gün dostumdan soruşdum:

- Mən ölüm, mənə sözün doğrusunu de görüm, sən ki, otuz səkkiz il müsəlman içində tərbiyə tapıbsan, xəta olmadı ki, bir az rusca oxudun? Nə səbəbə sən mən ilə heç müsəlmanca danışmaq istəmirsən?

Yoldaşım mənə rus dilində belə cavab verdi:

- İsluşay, kak-to istıdno koqda obrazovannıy çelovek po-tatarski qovorit!.. (yəni, obrazovannının müsəlmanca danışmağı eyibdir!).

- Çox sağ ol, rəfiqim, mən bunu bilmirdim!..

Deyirlər ki, haman mənim rəfiqim rus işkolunda oxuyan vaxt bir gün anasına deyib:

- Ana! Pajalusta, mənə bir şey "svarit" elə! (yəni, bişir!).

Anası cavab verib:

- Bala, nə dedin?

Rəfiqim cavab verib:

- Ox, ox! Siz heç bir zad qanmırsınız! Mən deyirəm: bir zad bişir.

- Bala, nə bişirim?

- Çort yeqo iznayet!.. Yadımdan çıxıb... Yumru olur, əti döyüb salırlar çölməyə, ya qazana. Bir cür adı var...

- Bala, küftə deyirsən?

- Hə...hə... qofta, qofta!

**"Molla Nəsrəddin", 14 aprel, 1906, N 2.**

# Bakı Şəhər İcra Hakimiyyəti “Bakı Şəhər İşığı” Elektrik Şəbəkə müəssisəsi

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıda göstərilən LOT-lar üzrə tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdır.

**LOT-1** “Philiphs” markalı mal-materialların və digər idxal məmulatlarının alınması
**LOT-2** “Osram” markalı mal-materialların və digər idxal məmulatlarının alınması

Tender iştirakçılarının ixtisas göstəricilərinin müqayisəsi zamanı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 6.2 maddəsində göstərilən meyarlara üstünlük veriləcək. Tenderdə iştirak etmək istəyənlər hər LOT üçün 100 manat məbləğində iştirak haqqını sifarişçinin bankdakı hesablaşma hesabına köçürdükdən sonra göstərilmiş ünvandan tenderin əsas şərtlər toplusunu ala bilərlər. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir:

**Təşkilat: “Bakı Şəhər İşığı” Elektrik Şəbəkə müəssisəsi**
**Beynəlxalq Bankın Yasamal filialı**
**Kod: 805562**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT BIK IBAZAZ2X**
**H/h: AZ93IBAZ38010019449667485216**
**VÖEN: 9900013961**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək istəyənlər 05.03.2019-cu il tarixdə saat 17:00-dək aşağıdakı sənədləri Tender komissiyasına təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair öhdəliklərin olub-olmaması barədə arayışlar;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq edilmiş maliyyə hesabatları;*
- *analoji işlərin yerinə yetirilməsinə dair iddiaçının potensial imkanları haqqında məlumat;*
- *göstərilən işlərin yerinə yetirilməsi üçün FHN tərəfindən verilmiş razılıq (lisenziya) sənədi;*
- *tender təklifi zərflərin açıldığı gündən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır;*
- *tender təklifinə onun ümumi dəyərinin 1 faizi məbləğində bank zəmanəti ilə təminat verilməlidir. Həmin təminat zərflərin açıldığı gündən sonra azı 60 bank günü müddətində qüvvədə olmalıdır.*

İddiaçılar LOT-lar üzrə tender təkliflərini 14.03.2019-cu il saat 17:00-a qədər aşağıda göstərilən ünvana təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender proseduru 15.03.2019-cu il saat 16:00-da “Bakı Şəhər İşığı” Elektrik Şəbəkə müəssisəsinin binasında (Binəqədi rayonu, Biləcəri qəsəbəsi, Y.Hüseyinov 45) keçiriləcəkdir.

Tenderlə əlaqədar məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Samir Həsənov**
**Telefon: (012) 440 11 49**

***Tender komissiyası***

---

# “Azərişıq” ASC Pirallahı rayonu ərazisində yeni 110/35/6 kV-luq 2x40 MVA gücündə “Pirallahı” yarımstansiyasının tikintisi, avadanlıqların quraşdırılması və 110/35/6 kV-luq “Dübəndi” yarımstansiyası ilə -110/35/6 kV-luq “Pirallahı” yarımstansiyası arasında 110 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi və Xəzər rayonu Binə qəsəbəsində “Binə Aqro” MMC-yə məxsus istixana kompleksinin elektrik təchizatı üzrə işlərin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir:

**LOT-1.** Pirallahı rayonu ərazisində yeni 110/35/6 kV-luq 2x40 MVA gücündə “Pirallahı” yarımstansiyasının tikintisi, avadanlıqların quraşdırılması və 110/35/6 kV-luq “Dübəndi” yarımstansiyası ilə - 110/35/6 kV-luq “Pirallahı” yarımstansiyası arasında 110 kV-luq ikidövrəli kabel xəttinin çəkilməsi işlərinin satın alınması - **400 manat.**

**LOT-2.** Xəzər rayonu Binə qəsəbəsində “Binə Aqro” MMC-yə məxsus istixana kompleksinin elektrik təchizatı - **400 manat**

**“Azərişıq” ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs: Aşəd Ağayev (telefon: 440-39-93; daxili (22-83))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 07 mart 2019-cu il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 18 mart 2019-cu il saat 16:00-a qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 19 mart 2019-cu il tarixdə saat 16:00-da Bakı şəhəri, Ələsgər Qayıbov küçəsi, 8 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

---

# Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Azərpoçt” MMC üzrə poçt şöbəsi binalarının cari təmiri və inzibati binalarda “Kombi” istilik sistemlərinin quraşdırılması ilə bağlı

## *açıq tender elan edir*

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Azərpoçt” MMC üzrə poçt şöbəsi binalarının cari təmiri və inzibati binalarda “Kombi” istilik sistemlərinin quraşdırılması işlərinin yerinə yetirilməsi layihəsinə başlamışdır.

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Azərpoçt” MMC bu layihəni həyata keçirmək üçün qanunvericiliklə qadağan olunmamış şirkətləri tenderdə iştirak etməyə dəvət edir.

Tender 2 LOT üzrə keçirilir.

LOT 1: “Azərpoçt” MMC üzrə poçt şöbəsi binalarının cari təmiri;
LOT 2: İnzibati binalarda “Kombi” istilik sistemlərinin quraşdırılması.

Tenderdə iştirak etmək üçün iddiaçıların qeydiyyatı və ilkin sənədlərin təqdim edilməsi 07 mart 2019-cu il saat 17:00-a qədər aparılır.

İddiaçının təklifləri (1 nüsxə əsli, 1 nüsxə surəti) Tender komissiyası tərəfindən 18 mart 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanındakı binanın 3-cü mərtəbəsində “Azərpoçt” MMC-nin Əsas vəsaitlərin idarə olunması şöbəsində qəbul olunur. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçılar tenderə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək haqqında müraciət;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *İddiaçının tender təklifi;*
- *İddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir);*
- *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *Tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *İddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *İddiaçının analoji iş təcrübəsini təsdiq edən sənədlər;*
- *Tenderin əsas şərtlər toplusunda müəyyən edilmiş digər sənədlər;*
- *İddiaçı təqdim edəcəyi malların (işlərin və xidmətlərin) keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər;*
- *İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.*

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar tender təkliflərini 2 (iki) nüsxədə (əsli və surəti) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin əsli və surəti arasında fərqlər olduqda üstünlük “Əsli” sözü yazılmış nüsxəyə veriləcəkdir.

Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:
I LOT üzrə - 300 manat
II LOT üzrə - 300 manat
məbləğində pul vəsaitini aşağıdakı bank hesabına köçürməlidir:

**“Azərpoçt” MMC,**
**Kod: 690001,**
**M\H: AZ76NABZ01350100000000094944**
**VÖEN: 9900037711**
**S.W.I.F.T: AZPOAZ 22**
**“Azərpoçt” MMC**
**VÖEN: 9900037711**
**Hesablaşma hesabı: AZ46AZPO99995381000420000094**

İştirak haqqı hər LOT üzrə ayrı-ayrılıqda ödənməlidir.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Ödəniş haqqında sənəd qeydiyyat zamanı təqdim olunmalıdır.

Tender “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq keçiriləcəkdir.

Tenderdə iştirak etməkdə maraqlı olan bütün iddiaçılar layihənin texniki tələbləri ilə bağlı əlavə məlumatları “Azərpoçt” MMC-nin Əsas vəsaitlərin idarə olunması şöbəsindən ala bilərlər. Sənədlər Bakı şəhəri, Səbail rayonu, Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanındakı binanın 3-cü mərtəbəsində qəbul olunur

Telefon: (99412) 493-56-00 (daxili - 201), Faks: (99412) 493-00-37.

Tenderin qiymətləndirilməsi zamanı təmir-tikinti işlərinin görülməsi təmir işlərinin qısa müddətdə başa çatdırılmasına təminat verən və təmir-tikinti təcrübəsi olan müəssisə və təşkilatlara üstünlük veriləcəkdir.

Tender təklifləri 19 mart 2019-cu il saat 11:00-da iddiaçıların iştirakı ilə “Azərpoçt” Məhdud Məsuliyyətli Cəmiyyətdə (ünvan: Üzeyir Hacıbəyli küçəsi, 72) açılacaqdır.

***Tender komissiyası***

---

# Sumqayıt Regional Mədəniyyət İdarəsi 2019-cu il üçün

## *kotirovka sorğusu elan edir*

**1. 221100 - kompüter və avadanlıqlara xidmət.**

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 11.02.2019-cu il tarixədək qəbul olunur. Maraqlanan təşkilatlar (018) 655-49-87 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

**Ünvan: Sumqayıt şəhəri, 3-cü məhəllə, N.Nərimanov 12**

***Tender komissiyası***

---

# B İ L D İ R İ Ş

“Azərbaycan” qəzetinin 5,12 dekabr 2018-ci və 17 yanvar 2019-cu il tarixli nömrələrində “Azərsu” ASC-nin daxili vəsaiti hesabına “Yuyucu və təmizləyici” vasitələrinin satın alınması məqsədilə dərc edilmiş tenderlərində yetərsay olmadığından tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 14 fevral 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 15 fevral 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarəolunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +994124314767(2249).

***Tender komissiyası***

---

# Beynəlxalq aləm

## Çin ABŞ-la ticarətdə güzəştə getdi

Pekin ABŞ-la danışıqların sonuncu raundu zamanı qarşılıqlı ticarətdə disbalansı azaltmağa razı olmuşdur. Bu barədə Çin Ticarət Nazirliyi məlumat vermişdir.

Çin həmçinin ABŞ-ın kənd təsərrüfatı məhsullarının və enerji resurslarının idxalını fəal şəkildə artırmağa hazırdır. Nazirliyin məlumatında deyilir ki, tərəflər açıq, predmetli və səmərəli müzakirələr aparmışlar.

Danışıqların əsas mövzuları ticarət disbalansı, əqli mülkiyyət hüquqlarının müdafiəsi problemləri, qeyri-tarif maneələr olmuşdur. ABŞ və Çin nümayəndələri həm də danışıqların gələcək qrafikini dəqiqləşdirmişlər.

Bu ərəfədə ABŞ Prezidenti Donald Tramp bəyan etmişdi ki, tərəflər martın 1-dək ticarət sövdələşməsi əldə edə bilməsə, Vaşinqton yeni rüsumlar tətbiq edəcək.

Pekin və Vaşinqton ötən il ticarət müharibəsinə başlamışlar. Tərəflər ildə 100 milyardlarla dollarlıq idxal mallarına gömrük rüsumlarını artırırdı. Lakin ötən il dekabrın əvvəllərində Argentinada keçirilmiş G20 sammitində iki ölkənin liderləri “barışıq” sazişinə gəlmişlər. Belə ki, ÇXR Sədri Si Cinpin ticarət disbalansı ilə bağlı vəziyyəti düzəltməyi və ABŞ-dan kənd təsərrüfatı və digər malların böyük həcmdə idxalına başlamağı vəd etmişdir. Öz növbəsində Donald Tramp bildirmişdir ki, tərəflər 90 gün ərzində müəyyən olunmuş məsələlərlə əlaqədar kompromisə nail olsa, ABŞ yanvarın 1-dən etibarən ildə 200 milyard dollarlıq Çin mallarına rüsumları 10 faizdən 25 faizədək qaldırmayacaq.

## Livan hökumətinin yeni tərkibi elan olundu

Livanda yeni Nazirlər Kabinetinin tərkibi elan edilmişdir. Onun formalaşdırılmasına təxminən səkkiz ay vaxt tələb olunmuşdur. Bu barədə “İnterfaks” agentliyi xəbər verir.

Baş nazir vəzifəsini Səəd Həriri tutmuşdur. Bununla o, üçüncü dəfə hökumət başçısı təyin olunur. Cübran Basil xarici işlər naziri vəzifəsində qalmışdır.

Yerli KİV-in xəbərinə görə, yeni Nazirlər Kabinetində Livanın əsas siyasi qüvvələrinin nümayəndələri yer almışlar. Hökumətin formalaşdırılmasına İran və Suriyanı fəal şəkildə dəstəkləyən “Hizbullah” şiə qruplaşmasının mövqelərinin güclənməsi təsir etmişdir. Səhiyyə naziri vəzifəsinə Cəmil Cəbəq təyin edilmişdir. O, formal olaraq “Hizbullah”ı təmsil etməsə də, məhz qruplaşmanın təkidi ilə həmin vəzifəyə təyinat almışdır.

Nazirlər Kabinetinin tərkibinə həmçinin dörd qadın daxil edilmişdir. Onlardan biri daxili işlər naziri olmuşdur.

## Somalidə “əş-Şəbab”ın 24 silahlısı məhv edildi

ABŞ hərbi aviasiyası Somalidə “əş-Şəbab” terrorçu təşkilatının 24 silahlısını məhv etmişdir. Bu barədə ABŞ Silahlı Qüvvələrinin Afrika Komandanlığı (AFRİCOM) məlumat vermişdir.

Aviasiya reydi terrorçuların düşərgəsinin yerləşdiyi Hirana rayonunda keçirilmişdir. Mülki şəxslər arasında zərərçəkənlərin olmadığı bildirilir.

Məlumatda qeyd olunur ki, ABŞ və beynəlxalq tərəfdaşlar “əş-Şəbab”ın fəaliyyətinə son qoymaq üçün əməliyyatları davam etdirmək niyyətindədir.

Xatırladaq ki, “əş-Şəbab” 2004-cü ildə Somali ərazisində yaradılmışdır. Qruplaşmanın silahlıları mərkəzi hökuməti devirmək üçün mübarizə aparırlar. Terrorçular müntəzəm olaraq intiharçılardan istifadə etməklə hücumlar həyata keçirirlər.

---

# İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq mebel və inventarların alınması məqsədilə

## *kotirovka sorğusu elan edir*

İddiaçılar satınalma prosedurunun predmetinə uyğun hazırlanmış əsas şərtlər toplusunu İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalı və 15 fevral 2019-cu il tarixdə saat 15:00-dək təqdim edilməlidir.

**Ətraflı məlumat almaq üçün əlaqələndirici şəxs: Əyyub Abdullayev**
**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, A.M.Şərifzadə küçəsi, 172**
**Telefon: (012) 310 23 02**
**Fax: (012) 432 37 17**
**e-mail: info@edf.gov.az**

***Tender komissiyası***

---

# ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı Şəmsəddin Hacıyev Bakı Nobel İrsi Fondunun sədri, BMT-nin qlobal enerji üzrə aparıcı eksperti, siyasi elmlər doktoru, professor

**TOĞRUL BAĞIROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Bakı Nobel İrsi Fondunun sədri, BMT-nin qlobal enerji üzrə aparıcı eksperti, siyasi elmlər doktoru, professor

**TOĞRUL BAĞIROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Kürdəmir Rayon Məhkəməsinin sədri Müseyib Bayramov və məhkəmənin kollektivi Bakı Apelyasiya Məhkəməsinin hakimi Səriyyə Seyidovaya qardaşı

**QÜDRƏT SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8353
Sifariş 317
Qiyməti 40 qəpik